Hər kəs ədalətli olacaq
www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev
İctimai-siyasi, hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 36 (6178) 25 sentyabr 2026-cı il
Qiyməti 40 qəpik

# PREZİDENT ƏFV SƏRƏNCAMI İMZALADI



Bax:səh-2

## Ərdoğan BMT-də Azərbaycan və Ermənistan arasında daimi sülhdən danışdı



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan və Ermənistan arasında daimi sülhün bərqərar olunmasına dəstəyini ifadə edib.**

Adalet.az xəbər verir ki, Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasındakı çıxışında Türkiyənin Cənubi Qafqaza baxışının aydın olduğunu bildirib.

"Azərbaycan və Ermənistan arasında daimi sülhün bərqərar olmasını arzulayırıq. Cənab Əliyev və cənab Paşinyanın ortaya qoyduqları həll iradəsini təqdir edir və dəstəkləyirik", - deyə Türkiyə Prezidenti vurğulayıb.

Rəcəb Tayyib Ərdoğan, həmçinin Ermənistanla Türkiyə arasında normallaşma prosesini qətiyyətlə davam etdirdiklərini bildirib.

## Vilayət Eyvazov sıra baxışı keçirdi



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov sentyabrın 21-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bu barədə Adalet.az-a DİN-in mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 203 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

## Azərbaycanda hərbçilərin maaş və pensiyaları artırılır



**"Qalib Azərbaycan Ordusunun maaş və pensiyaları qabaqcıl beynəlxalq sistemə uyğunlaşdırılır".**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib.

Onun sözlərinə görə, bu sahədə yeni islahat paketi qapıdadır: "Nəhayət ki, orduda əməkhaqqı sistemi beynəlxalq standartlara əsaslanacaq və vahid struktura malik olacaq. Maaşlar xidmətkeçmənin yeri, xüsusiyyətləri, şərtləri və ağırlığı nəzərə alınmaqla hesablanacaq. Müdafiə Nazirliyinin hərbçilərinin maaşları orta hesabla 25% yaxın və daha çox artır. Baza maaşı olan vəzifə maaşı rütbə maaşı ilə əvəzlənir, maaşlarda rütbə maaşının həcmi isə 70%-ə qaldırılır. Müdafiə Nazirliyinin hərbçilərinin pensiya təminatı mexanizmi də təkmilləşir və tam rəqəmsallaşdırılır".

## Formula 1-lə əlaqədar metroda iş saatı uzadılacaq

**Bakıda keçiriləcək Formula 1 üzrə Azərbaycan Qranprisi ilə əlaqədar Bakı metropolitenində iş qrafiki dəyişdiriləcək.**

Adalet.az xəbər verir ki, mədəni-kütləvi tədbirlər planına uyğun olaraq, sentyabrın 24-dən 26-dək 3 stansiya - "İçərişəhər", "Sahil" və "28 May" gücləndirilmiş rejimdə fəaliyyət göstərəcək. Stansiyalara növbətçilik cədvəli əsasında əlavə işçi qüvvəsi ayrılacaq. Ayın 24-dən 25-nə və 25-dən 26-na keçən gecə qeyd edilən 3 stansiya saat 01:00-a qədər sərnişinlərin girişinə açıq olacaq.

Yaşıl və Bənövşəyi xətlər üzrə hərəkət ənənəvi qaydada təşkil ediləcək, həmçinin Qırmızı xəttin digər stansiyaları saat 00:00-da bağlanacaq.

*Əbülfət MƏDƏTOĞLU*

## Əvvəl düşünürdüm bitib bu kitab

Bax:səh-8

## Quterreşdən Yaxın Şərq çağırışı: "Artıq kifayətdir"



**BMT-nin Baş katibi Antonio Quterreş Yaxın Şərqdə döyüşlərin dayandırılmasına və humanitar yardımın maneəsiz şəkildə çatdırılmasına çağırıb.**

Adalet.az xəbər verir ki, Quterreş bunu BMT Baş Assambleyasının 81-ci sessiyasının ümumi siyasət müzakirələrində çıxışı zamanı deyib.

O bildirib ki, regionda qeyri-sabitliyin artması fonunda işğal olunmuş Fələstin ərazisindəki vəziyyət diqqətdən kənarda qalmamalıdır.

"Sözdə atəşkəs 'az atəşkəs'dən başqa bir şey olmadığını sübut etdi və mülki şəxslər bunun bədəlini ödəməyə davam edirlər. Artıq kifayətdir", - deyə Quterreş vurğulayıb.

Baş katib liderləri yüksək səviyyəli deeskalasiya və dialoq həftəsindən maksimum istifadə etməyə çağırıb. O, döyüşlərin dayandırılmasının, humanitar yardımın bölgəyə çatdırılmasının, həmçinin dənizçilik hüquqları və azadlıqlarının beynəlxalq hüquqa uyğun olaraq tam bərpa edilməsinin vacibliyini qeyd edib.

Quterreş xatırladıb ki, 7 oktyabr 2023-cü ildə HƏMAS-ın hücumundan təxminən üç il keçir. Onun sözlərinə görə, bundan sonra Qəzzada genişmiqyaslı döyüşlər baş verib və BMT-dəki fəaliyyəti dövründə görünməmiş ölüm və dağıntılarla nəticələnib.

## Xocalı və Xocavənddə kənd yolları yenidən qurulur

**Xocavənd rayonunun Ağkənd və Qarakənd, Xocalı rayonunun isə Təzəkənd və Badara kəndlərinə gedən avtomobil yollarında əsaslı yenidənqurma işləri həyata keçirilir.**

Adalet.az Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə (AAYDA) istinadən xəbər verir ki, yollar müasir tələblərə uyğun şəkildə yenilənir, yol infrastrukturu yaxşılaşdırılır, yaşayış məntəqələrinin rahat və təhlükəsiz nəqliyyat əlaqəsinin təmin olunması istiqamətində kompleks tədbirlər görülür.

## GÜNÜN LƏTİFƏSİ

Bir gün biri dostuna zəng edir ki, bəs evdə siçan var nə edim. Deyir tələ qur. Dostu deyir tələm yoxdu. Deyir məndə var göndərərəm. Tələnin üstünə pendir qoy, siçan yeyəndə tutsun. Deyir pendirim də yoxdu. Deyir eybi yox, çörək parçası da olar. Bu da deyir ki, bəs çörək də yoxdu axı.

Dostu əsəbiləşib deyir:

**- Evində quru çörək də yoxdusa, o siçan qurumsağın sənin evində nə ölümü var?**

# PREZİDENT ƏFV SƏRƏNCAMI İMZALADI



**Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş bəzi şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilirlər. Adalet.az xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilirlər:**

1.1. Aydəmirov Cəsarət Səfərqulu oğlu, 1999-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tərtər Hərbi Məhkəməsinin 2019-cu il 17 oktyabr tarixli hökmü ilə məhkum edilib;

1.2. Bağırov Elşən Malik oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2024-cü il 21 iyun tarixli hökmü ilə məhkum edilib;

1.3. Balabəyov Fikrət Əlibəy oğlu, 1970-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2024-cü il 7 noyabr tarixli hökmü ilə məhkum edilib;

1.4. Bayramov Hikmət Abduləli oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2024-cü il 9 sentyabr tarixli hökmü ilə məhkum edilib;

1.5. Beybudlu Xəyal Nemət oğlu, 2003-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2024-cü il 24 aprel tarixli hökmü ilə məhkum edilib;

1.6. Demir Mehmet, 1990-cı ildə anadan olmuş, Türkiyə Respublikasının vətəndaşı, Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon Məhkəməsinin 2025-ci il 19 iyun tarixli hökmü ilə məhkum edilib;

1.7. Əliyev Maarif Eldar oğlu, 2000-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 6 iyul tarixli hökmü ilə məhkum edilib;

1.8. Kərimov Sahil Aqil oğlu, 2004-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 18 yanvar tarixli hökmü ilə məhkum edilib;

1.9. Qasımov Rəfail Güloğlan oğlu, 1980-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 13 iyun tarixli hökmü ilə məhkum edilib;

1.10. Mikhayılov Kirill Vladimiroviç, 1980-ci ildə anadan olmuş, Rusiya Federasiyasının və İsrail Dövlətinin vətəndaşı, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2024-cü il 12 dekabr tarixli hökmü ilə məhkum edilib;

1.11. Muradov Qurban Sultan oğlu, 2000-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2025-ci il 27 fevral tarixli hökmü ilə məhkum edilib;

1.12. Musayev Cəlal İlham oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2023-cü il 31 may tarixli hökmü ilə məhkum edilib;

1.13. Özdemir Salih, 1981-ci ildə anadan olmuş, Türkiyə Respublikasının vətəndaşı, Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon Məhkəməsinin 2024-cü il 12 iyun tarixli hökmü ilə məhkum edilib;

1.14. Rəhimov İqbal Əliabas oğlu, 1969-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2024-cü il 26 aprel tarixli hökmü ilə məhkum edilib;

1.15. Rüstəmov Elman Yaşılxan oğlu, 1966-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 26 avqust tarixli hökmü ilə məhkum edilib;

1.16. Ryan Martin Riçard, 1988-ci ildə anadan olmuş, Fransa Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2026-cı il 16 mart tarixli hökmü ilə məhkum edilib;

1.17. Sabir Sonia, 1995-ci ildə anadan olmuş, Pakistan İslam Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 14 noyabr tarixli hökmü ilə məhkum edilib;

1.18. Süleymanov Sürət Nemət oğlu, 2003-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2024-cü il 19 yanvar tarixli hökmü ilə məhkum edilib;

1.19. Süleymanzadə İlqar Vüqar oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Hərbi Məhkəməsinin 2022-ci il 19 aprel tarixli hökmü ilə məhkum edilib.

2. İmişli Rayon Məhkəməsinin 2026-cı il 10 mart tarixli hökmü ilə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı Dadaşov Əziz İman oğlu cəzasının çəkilməmiş hissəsindən azad edilib.

# Zakir Həsənov hərbi polisin döyüş hazırlığını izləyib



**Müdafiə Nazirliyinin rəhbər heyəti Hərbi Polis İdarəsinin Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) bölüyünün ön əməliyyat bazasında icra olunan fəaliyyətlərlə tanış olub.**

Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən məlumat verilib.

Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik və Təhqiqat Baş İdarəsi rəisinin müavini - Hərbi Polis İdarəsinin rəisi general-mayor Elgün Əliyev müdafiə naziri general-polkovnik Zakir Həsənova hərbi polisin fəaliyyəti, ön əməliyyat bazası və qoşun xidmətinin təşkili barədə məruzə edib. Bildirilib ki, ƏİK bazasında icra olunan tədbirlər NATO-nun müvafiq standartlarına uyğunlaşdırılıb və sülhməramlı əməliyyatlarda qarşılıqlı fəaliyyət qabiliyyətinin təmin edilməsinə yönəldilmişdir. Bölmənin ərazisində yaradılan şəraitlə tanış olan rəhbər heyət yataqxanaya, idman və atəş şəhərciklərinə, mühəndis, kəşfiyyat və sürücülük hazırlıqları üzrə təlim mərkəzlərinə, eləcə də hərbi texnikaya baxış keçirib. Sonra nazirliyin rəhbər heyəti cari ilin oktyabr ayında keçirilməsi planlaşdırılan NATO-nun ƏİK Qiymətləndirmə və Rəy proqramı çərçivəsində birinci səviyyəli Özünü Qiymətləndirmə Təliminə hazırlıq üzrə döyüş hazırlığı prosesini izləyib.

Müdafiə naziri general-polkovnik Z.Həsənov hərbi qulluqçuların döyüş hazırlığının, eləcə də maddi-texniki təminatının və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində aidiyyəti şəxslər qarşısında müvafiq tapşırıqlar qoyub.

**Sonda xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu təltif olunub, bölmənin ərazisində xatirə ağacları əkilib.**

# "TRIPP regional əlaqələrin inkişafına və sülhün möhkəmləndirilməsinə töhfə verəcək"



**Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 81-ci sessiyası (#UNGA81) çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ hökumətinin təşkilatçılığı ilə keçirilən "Sülh vasitəsilə rifah: Trans-Xəzər Ticarət Marşrutuna və TRIPP-ə investisiya" adlı tədbirdə çıxış edib.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin (XİN) "X" sosial şəbəkə hesabında paylaşım edilib. Qeyd olunub ki, nazir çıxışı zamanı Azərbaycanın regional bağlantının gücləndirilməsi ilə bağlı baxışlarını təqdim edib. O bildirib ki, nəqliyyat və logistika əlaqələrinin inkişaf etdirilməsi regionda iqtisadi artımın sürətləndirilməsinə, təchizat zəncirlərinin dayanıqlığının artırılmasına və yeni investisiya imkanlarının yaradılmasına mühüm töhfə verə bilər. Tədbirdə əsas diqqət TRIPP layihəsinə yönəlib. Qeyd olunub ki, Vaşinqton Sammitinin mühüm nəticələrindən biri kimi təqdim edilən TRIPP Azərbaycan ərazisinin əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz multimodal nəqliyyat bağlantısının təmin edilməsini nəzərdə tutur. Vurğulanıb ki, layihə eyni zamanda daha geniş regional əlaqələrin inkişafına və regionda uzunmüddətli sülhün möhkəmləndirilməsinə töhfə verəcək.

Ceyhun Bayramov TRIPP-in həyata keçirilməsi istiqamətində ABŞ-ın səylərini yüksək qiymətləndirərək bu prosesdə göstərilən dəstəyə görə təşəkkürünü ifadə edib. Xarici işlər naziri layihənin yalnız nəqliyyat sahəsi ilə məhdudlaşmadığını, regional enerji bağlantılarının və enerji mənbələrinin şaxələndirilməsinin inkişafı baxımından da əhəmiyyətli potensiala malik olduğunu vurğulayıb.

Çıxışda Azərbaycanın nəqliyyat və logistika sahəsində həyata keçirdiyi layihələrə də diqqət çəkilib. Bildirilib ki, Bakı Limanı və Ələt Azad İqtisadi Zonasının ətrafında inteqrasiya olunmuş nəqliyyat-logistika qovşağının formalaşdırılması istiqamətində investisiyalar davam etdirilir.

Nazir rəqəmsallaşdırmanın genişləndirilməsinin, logistika və gömrük prosedurlarının sadələşdirilməsinin, eləcə də regional tərəfdaşlar arasında koordinasiyanın gücləndirilməsinin vacibliyini qeyd edib. Bu baxımdan Azərbaycan, Qazaxıstan, Türkiyə və Gürcüstan arasında həyata keçirilən koordinasiya yol xəritələrinin regional nəqliyyat əlaqələrinin inkişafına xidmət etdiyi vurğulanıb.

Azərbaycanın yanaşmasına görə, Trans-Xəzər marşrutunun və TRIPP kimi yeni bağlantı layihələrinin inkişafı ölkələri və bazarları daha sıx birləşdirərək regional ticarət, investisiya və enerji əməkdaşlığı üçün əlavə imkanlar yarada bilər.

# Fransa Azərbaycana Martin Ryanın əfv olunmasına görə təşəkkür edib

**Fransa Azərbaycan Prezidenti İlham Əliyevin 2023-cü ilin dekabrından Azərbaycanda saxlanılan Fransa vətəndaşı Martin Ryanın əfv olunması ilə bağlı qərarını yüksək qiymətləndirib.**

Adalet.az xəbər verir ki, bu barədə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin bəyanatında qeyd edilib.

"Fransa 2023-cü ilin dekabrından Azərbaycanda həbsdə saxlanılan vətəndaşımız Martin Rianın Azərbaycan Prezidenti tərəfindən əfv edilməsi qərarını rahatlıq hissi ilə qarşılayır. Fransa bu humanitar jesti yüksək qiymətləndirir", - deyə bəyanatda bildirilib.

Nazirlik qeyd edib ki, sözügedən qərar Azərbaycan hakimiyyəti ilə aparılan dialoqun nəticəsində qəbul olunub və Fransa bu dialoqu davam etdirmək niyyətindədir.

Açıqlamada vurğulanıb ki, bu dialoq "münasibətlərin normallaşması istiqamətində bir addım"dır.

Fransa, həmçinin bu müsbət nəticənin əldə olunması üçün Parisdə və Bakıda çalışan komandalara təşəkkür edib.

Qeyd edək ki, bu gün Fransaya casusluqda ittiham olunan Martin Ryan əfv edilib. Bu barədə məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamda qeyd olunub.

Xatırladaq ki, Fransa Respublikasının vətəndaşı Ryan Martin Riçard Bakı Ağır Cinayətlər Məhkəməsinin 2026-cı il 16 mart tarixli hökmü ilə 10 il azadlıqdan məhrum edilib. İttiham aktına görə, Martin Ryanın Azərbaycan Respublikasında istehsal edilən silah-sursatlar, 2020-ci il 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun komplektləşdirilməsi, Azərbaycan Silahlı Qüvvələrində hərbi xidmətdə olan və ya ehtiyata buraxılmış əlaqəyə cəlb edilməsi mümkün olan şəxslər, xaricdə fransız dilində təhsil almış şəxslər, Azərbaycanda fəaliyyət göstərən xarici ölkə vətəndaşları və hüquqi şəxslər, Fransa xüsusi xidmət orqanının tapşırığı ilə Azərbaycan üzərindən digər ölkələrə gizli pul köçürülməsinin təşkili imkanları, Böyük Britaniya, Əlcəzair, Türkiyə, Pakistan, İran, Çin, Somali, Mərkəzi Asiya dövlətləri və digər dövlətlərlə Azərbaycan arasında münasibət və əlaqələr, hərbi əməkdaşlıq planları, Azərbaycana idxal olunan silah-sursat barədə məlumatların əldə edilməsinə dair tapşırıqlar almasına və bu istiqamətlərdə fəaliyyətinə əsaslı şübhələr müəyyən edilib.

Qeyd edək ki, təqsirləndirilən şəxslər DTX tərəfindən 2023-cü il dekabrın 4-də həbs olunublar. "Merkorama" MMC-nin baş direktoru olan Martin Ryana qarşı casusluq ittihamı irəli sürülüb. İttihama görə, Martin Ryan onu məxfi əməkdaşlığa cəlb edən, sonradan Bakıdan "persona non-grata" elan edilərək qovulmuş Fransanın DGSE (Xarici Təhlükəsizlik Baş İdarəsi) əməkdaşları tərəfindən agent-casus kimi istifadə edilib. Həmin cinayət işi üzrə Martin Ryana AR Cinayət Məcəlləsinin 276-cı (casusluq) maddəsi, AR vətəndaşı Azad Məmmədliyə AR Cinayət Məcəlləsinin 274-cü maddəsi (dövlətə xəyanət) ilə ittiham irəli sürülüb.

# IV Bakı Təhlükəsizlik Forumu keçirilib

**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) təşkilatçılığı və beynəlxalq təşkilatların, eləcə də 100-dən artıq ölkənin xüsusi xidmət orqanlarının rəhbərlərinin və yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə "Qlobal təhlükəsizlik arxitekturasında yeni çağırışlar və terrorçuluğa qarşı effektiv əməkdaşlıq mexanizmlərinin formalaşdırılması" mövzusunda IV Bakı Təhlükəsizlik Forumu (BTF) keçirilib.**

Bu barədə Adalet.az-a xidmətdən məlumat verilib.

Bildirilib ki, tədbir açıq elan edildikdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin forum iştirakçılarına müraciəti oxunub, ardınca konfransın mövzusu ilə bağlı videomaterial nümayiş etdirilib.

İclasda çıxış edən DTX-nin rəisi general-polkovnik Əli Nağıyev Prezident İlham Əliyevin təşəbbüsü ilə əsası qoyulan və ildən-ilə əhatəsi genişlənən forumun iştirakçılarını növbəti dəfə Bakı şəhərində salamlamaqdan məmnunluğunu bildirib.



Xidmət rəhbəri belə mötəbər tədbirlərin aktual çağırışların peşəkar müzakirəsi üçün geniş imkanlar yaratdığını, xüsusi xidmət və təhlükəsizlik orqanları arasında mühüm dialoq platformasına çevrildiyini vurğulayıb.

General-polkovnik Əli Nağıyev beynəlxalq təhlükəsizlik sisteminin dərin keçid dövrü yaşadığını, ənənəvi mexanizmlərin yeni təhdidlərə çevik cavab verə bilmədiyini və etibarlı tərəfdaşlığın zəruriliyini qeyd edib.

Təhlükəsizliyin artıq yalnız sərhədlərin qorunmasından ibarət olmadığını açıqlayan DTX rəhbəri davam edən münaqişələrin regional proseslərə, enerji bazarlarına və ərzaq təhlükəsizliyinə təsir etdiyini nəzərə çatdırıb.

BTF çərçivəsində həmçinin DTX və Birləşmiş Millətlər Təşkilatının (BMT) Terrorçuluğa Qarşı Mübarizə Ofisinin birgə təşkilatçılığı ilə "Operativ tərəfdaşlıqlar vasitəsilə milli terrorçuluqla mübarizə imkanlarının gücləndirilməsi" mövzusunda yan tədbir də keçirilib. Müzakirələrdə müasir texnologiyaların doğurduğu terror təhdidlərinə qarşı effektiv milli, eləcə də beynəlxalq əlaqələndirmə mexanizmləri, habelə BTF-in platforması olan Antiterror Məlumat Mübadiləsi Sistemi (CTIES) kimi qabaqcıl alətlərin inkişaf etdirilməsinin zəruriliyinə toxunulub.

## "Bu gün Azərbaycan küçələrində "Kurtlar Vadisi" replikaları ilə danışan bütöv bir nəsil var"



**"Milyonlarla azərbaycanlını bu hala saldılar - Kurtlar Vadisidə Azərbaycan cinayətləri dosyesi. Bu gün Azərbaycan küçələrində Polat Alemdar papağı taxan, "Kurtlar Vadisi" replikaları ilə danışan bütöv bir nəsil var. Bu mənzərə iyirmi illik sistemli mədəniyyət mühəndisliyinin və ideoloji təsirin acı nəticəsidir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

""Kurtlar Vadisi" Türkiyədən sonra ən çox Azərbaycanda izlənən və şüuraltında ən dərin izlər buraxan ideoloji silaha çevrildi.Serialın kütlələrə çatması üç əsas mərhələdən keçdi. İlk olaraq 2003-2005-ci illərdə peyk antenaları vasitəsilə "Kanal D" və "Show TV" üzərindən evlərə daxil oldu və cəmiyyətdə Türkiyə serialı anlayışının əsasını qoydu.2005-2007-ci illərdə isə ANS TV serialı dublyajsız, orijinal səslə yayımlayaraq reytinq rekordları qırdı; məhz bu dövrdə yeni doğulan uşaqlara "Polat", "Memati" və "Süleyman Çakır" kimi adlar verilməyə başlandı.2008-2016-cı illərdə isə "Kurtlar Vadisi Pusu" artıq televiziyadan çıxıb YouTube, DVD və sosial şəbəkələrdə kütləvi vüsət aldı. Hətta "Azərbaycan Aslanı" başlığı ilə yayılan qısa epizodlar belə təkbaşına milyonlarla baxış topladı", - deyə o, bildirib.

# Politoloq: "Mövcud vəziyyət Çini də narahat edir..."

**"Amerika Birləşmiş Ştatlarının husilərlə atəşkəs razılaşmasının uzun çəkəcəyi şübhə doğurur. Husilər ABŞ gəmilərinə hücum etməyəcəklərini və Vaşinqtonla 2025-ci ildə əldə olunan atəşkəsə sadiq qalacaqlarına bəyan edibləр. Husilər Səudiyyə Ərəbistanının gəmiləri istisna olmaqla digər ölkələrin, o cümlədən ABŞ və İsrail gəmilərinə hücum etməyəcəklərini vəd veriblər. Ancaq bu vədin yerinə yetiriləcəyi də şübhə doğurur. Çünki, husiləri silahlandıran və maliyyələşdirən SEPAH generallarından əmr gələrsə, qiyamçılar amerikalılara verdikləri vədi unuda bilərlər".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloqun sözlərinə görə, Səudiyyə Ərəbistanı da husilərlə atəşkəsə nail olmağa çalışır: "ABŞ ilə husilər arasında vasitəçi olan Omanın imkanlarından Səudiyyə Ərəbistanı da faydalanmaq istəyir. Husilər Səudiyyə Ərəbistanı ilə razılaşmanın əleyhinə deyillər, sadəcə bunun reallaşması üçün Ər-Riyaddan Yəmənin hava, quru və dəniz yolu ilə blokadasına tam son qoyulmasını tələb edirlər. Husilərin bir başqa tələbi Səudiyyə Ərəbistanının Yəməndən hərbi, təhlükəsizlik və siyasi qüvvələrini çıxarması və təzminat ödəməsi üçün fondun yaradılmasıdır. Ər-Riyad bu tələbləri



qəbul etməyə hazır deyil. Bu səbəbdən bölgədə toqquşmaların davam edəcəyini proqnozlaşdırmaq olar".

O, bildirib ki, husilərin Səudiyyə Ərəbistanına hücumlarını davam etdirməsi Ər-Riyadın strateji müttəfiqi olan ABŞ-yə çətin vəziyyətə salıb: "Belə çıxacaq ki, husilərlə atəşkəsə nail olan Vaşinqton Yəmən qiyamçılarının Səudiyyə Ərəbistanına hücumlarına seyrçi qalacaq. Mövcud vəziyyət avqustun 7-də Məkkədə Səudiyyə Ərəbistanının Türkiyə və Pakistanla imzaladığı ittifaq sazişi üçün ciddi sınaqdır. Pakistan və Türkiyə "Məkkə paktı"na görə bir tərəfdən Səudiyyə Ərəbistanına real dəstək verməli, o biri tərəfdən müharibənin alovlanmasının qarşısını almalıdırlar. Pakistanla Səudiyyə Ərəbistanı arasında müttəfiqlik uzun illəri əhatə edir. Ona görə Ər-Riyadın əsas dəstək gözləntisi İslamabaddandır.

İslamabad Ər-Riyadı inandırmalıdır ki, onun müdafiə öhdəliyi real çəkiyə malikdir. Ancaq Pakistan eyni zamanda özünü başqa bir Yaxın Şərq müharibəsinə cəlb etməməli və husiləri dəstəkləyən Tehranla münasibətlərini pozmamalıdır. İslamabad Tehranla əlaqə kanallarını açıq saxlamağa üstünlük verir. Bu vəziyyətdə bir qrup "Məkkə paktı"nda dərhal müdafiə məqsədilə cavab tədbirlərinin əks olunmadığını, digərləri isə əksinə təcavüzə qarşı birgə mübarizə mexanizminin işə düşməsi qənaətindədir. Bu qeyri-müəyyənlik "Məkkə paktı" ilə bağlı sualların sayını artırıb. Hadisələrin inkişafı göstərir ki, "Məkkə paktı"nın qəbulu daha çox Səudiyyə Ərəbistanına lazım idi. Ancaq əgər həmin pakt Səudiyyə Ərəbistanını husilərin hücumlarından qoruya bilməyəcəksə, sazişin dəyəri azalacaq".

E.Şahinoğlu deyib ki, mövcud vəziyyət Çini də narahat edir:

**"Pekin İslamabadın ən mühüm strateji və hərbi tərəfdaşlarından biridir və eyni zamanda Səudiyyə Ərəbistanı ilə getdikcə daha sıx münasibətlər qurub. Ancaq Pekin də Səudiyyə Ərəbistanını husilərdən qorumaq fikrində deyil. Pekinin yeganə təklifi Yaxın Şərq üçün yeni təhlükəsizlik arxitekturasının qurulmasıdır. Hazırki şərtlər altında Yaxın Şərqdə belə bir arxitekturanın qurulması praktik baxımdan mümkün deyil. Avropa ölkələri isə Səudiyyə Ərəbistanı ilə sadəcə həmrəylik nümayiş etdiriblər. Avropa İttifaqı bölgədə baş verənlərdən narahat olsa da, prosesə qarışmaq istəmir".**

Vasif

## "Rusiya seçkilərdən sonra yeni hərbi kampaniya başlaya bilər"



**"Rusiyada keçirilən Dövlət Duması seçkilərində hakim partiyanın qalib gəlmək şanslarının yüksək olduğu görünür. Seçki prosesi faktiki olaraq ciddi siyasi alternativlərin məhdud olduğu şəraitdə keçirilir və hakimiyyətin əsas rəqiblərindən biri olan "Yabloko" partiyasının da seçkilərdə mən kənarlaşdırılıb".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Politoloqun sözlərinə görə, bununla yanaşı, Rusiya-Ukrayna müharibəsinin davam etməsi, Rusiyaya qarşı tətbiq olunan iqtisadi sanksiyalar və sosial-iqtisadi problemlərin əhali arasında narazılıqları artırması Kremlin qarşısında müəyyən çağırışlar yaradır:

"Buna baxmayaraq, Vladimir Putin hərbi əməliyyatları davam etdirəcək. Xüsusilə seçkilərdən sonra Rusiyada yeni hərbi səfərbərliyin keçirilməsi gözlənilir. Moskvanın məqsədi Ukraynaya qarşı hərbi təzyiqi artırmaqla yanaşı, NATO ölkələrinə, xüsusilə Polşaya qarşı siyasi və hərbi təzyiq imkanlarını genişləndirməyi planlaşdırır. Qarşıdakı qış aylarında Rusiyanın Donbas istiqamətində hərbi əməliyyatları intensivləşdirməsi və ərazinin tam nəzarətə götürülməyə çalışacaq.

Moskvanın Donbasla bağlı strateji məqsədlərinə nail olmayacağı təqdirdə hərbi əməliyyatları dayandırmağa hazır olub-olmayacağı isə əsas suallardan biri olaraq qalır. Bu baxımdan, Rusiya-Ukrayna müharibəsində yaxın dövrdə daha sərt hərbi və siyasi mərhələnin başlanacaq".

Sübhan

# "Kreml belə bir addım atarsa, bu müharibənin daha geniş məkana yayılmasına..."

**"Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəni dayandırmasına dair heç bir işarə yoxdur. ABŞ Prezidenti Donald Trampın nümayəndələrinin Moskvaya səfərləri də nəticə vermədi. Rusiya Prezidenti Vladimir Putin Trampın nümayəndələrinə hər dəfə təkrarladığı fikri bildirib: "Donbası almayana qədər müharibəni dayandırılmayacaq".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloq bildirib ki, ancaq Rusiyanın Donbasın tamamının işğalını həyata keçirməsi hazırki şərtlər altında mümkünsüz görünür:

"Rusiya cəbhədə verdiyi itkilərin yerini doldurmaqda çətinlik çəkir. Bu arada, Rusiyanın Ukrayna ilə yanaşı NATO ölkələrindən birinə raket və dron hücumu həyata keçirəcəyinə dair müzakirələr genişlənib. Kreml belə bir addım atarsa, bu müharibənin daha geniş məkana yayılmasına səbəb olacaq. NATO ölkələri Rusiyanın nüvə silahından istifadə edə biləcəyi ehtimalını da hesablamağa çalışırlar. Finlandiya Prezidenti Aleksandr Stubb bir müddət əvvəl verdiyi açıqlamada, Çinin Finlandiyaya Rusiyanın nüvə silahından istifadəsinin qarşısını alacağına dair zəmanət verdiyini bildirib. "Bu yay Çin xarici işlər naziri Van Yi ilə görüşdə Rusiyanın nüvə silahından istifadə məsələsini qaldırdım.

O bildirdi ki, Çin buna heç vaxt icazə verməyəcəyik. Fikrimcə, bu, kifayət qədər yaxşı maneədir" - deyən Aleksandr Stubb Pekinin mövqeyindən razı qaldığına işarə edib.Finlandiya Prezidentinin sözlərinə görə, Rusiya avropalıları gərginlik içində saxlamaqdan, onları nüvə eskalasiyası və ya NATO-ya birbaşa hücum ehtimalı barədə düşünməyə məcbur etməkdən faydalanır. Stubb Avropanın sakit və təmkinli qalmalı olduğunu vurğulayıb:

"Rusiya istəyir ki, biz - avropalılar burada oturub Rusiyanın müharibəni genişləndirib-genişləndirməyəcəyini, nüvə silahından istifadə edib-etməyəcəyini və NATO-ya, yaxud Avropaya hücum edib-etməyəcəyini düşünək".Finlyandiya Prezidenti haqlıdır. Kreml Avropa İttifaqını və NATO-nu test etməyə çalışır". E.Şahinoğlunun sözlərinə görə, Rusiya-Ukrayna müharibəsi dövründə dronların Avropa ölkələrinin hava məkanına daxil olması halları az deyil:"Rusiyanın Ukrayna-Polşa qatarını hədəf alması da Kremlin gələcək panlarından xəbər verir. Bu vəziyyət NATO ölkələri ilə yanaşı Rusiyanın tərəfdaşları olan Belarus və Çini də narahat etməmiş deyil. Ancaq Minsk və Pekin Kremlin qərarlarına təsir etmək gücünə malik deyillər. Bu baxımdan Çin xarici işlər nazirinin Filyandiya Prezidentinə "Rusiya nüvə silahından istifadə etməyəcək" açıqlamasından rahat olmağa dəyməz".

Sübhan

# "Trampın çıxışının başqa bir hissəsi məsələni daha maraqlı edir"

**"Siyasətçilərin seçkiqabağı təşviqat kampaniyasında müəyyən vədlər, o cümlədən xarakterli vədlər iqtisadi vədlər verməsində qeyri-adi heç nə yoxdur. Siyasi partiyanın gələcəkdə həyata keçirəcəyi və vətəndaşlara maddi fayda verəcək proqramı vəd etməsi demokratik siyasətin normal elementidir. Qalib gələcəyi təqdirdə vergilərin azaldılması, pensiyaların artırılması, sosial proqramların genişləndirilməsi, səhiyyə xərclərinin azaldılması və sair bu kimi vədlər demokratik ölkələrdə adi seçki platformalarının tərkib hissəsidir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Qulamhüseyn Əlibəyli deyib.

Politoloq bildirib ki, ABŞ-də fəaliyyətdə olan prezidentin Konqresə aralıq seçkilərdə öz partiyasının namizədləri üçün təşviqat kampaniyasında iştirak etməsi də normal siyasi ənənə kimi qiymətləndirilir prezidentlər təşviqat kampaniyası çərçivəsində, ayrı-ayrı ştatlara səfərlər edir, partiyasının mitinqlərdə çıxış edir, partiya namizədləri üçün səs istəyir, seçkini öz administrasiyasının siyasətinə dəstək məsələsinə çevirirlər:

"Əsas yanaşma da bundan ibarət olub ki, bizim partiyanın namizədlərinə səs verin, Konqresdə üstünlük qazanaq, müəyyən sosial, iqtisadi və digər proqramlar qəbul edib həyata keçirək. Lakin Konqresə bu ilin noyabr ayında keçiriləcək aralıq seçkiləri ilə əlaqədar Trampın verdiyi vəd adi seçkiqabağı təşviqat kampaniyasında verilən ənənəvi vədlərdən kəskin şəkildə fərqlənir: Tramp Texasda Respublikaçılar Partiyasının seçki kampaniyası qurultayında çıxışı zamanı bildirib ki, Konqresə noyabr ayında keçiriləcək aralıq seçkilərdə Respublikaçılar hər iki palatada qalib gəlsələr, ABŞ-ın hər bir yetkin vətəndaşına 5000 dollar dividend ödəyəcəyək. Demokratlar qalib gələrsə, ABŞ "kommunist ölkəsi"nə çevriləcək və amerikalılar "cəhənnəm" gözləyəcək.Tramp bu "divident"in necə - nəğd pul şəklində, yoxsa iqtisadi və sosial proqramların icrası, o cümlədən vergilərin azaldılması nəticəsində ödəyəcəyini açıqlamır. Lakin bir məsələ aydındır ki, Tramp bu vədi seçicilərin konkret siyasi seçimi ilə onların şəxsi maddi qazancı arasında birbaşa əlaqə yaradılması deməkdir. İlk baxışdan bunu hüquqi baxımdan seçicinin satın alınması və ya rüşvət kimi qiymətləndirmək mübahisəli olsa da, mümkün görünür. Yəqin ki, demokratlar da respublikaçılara qarşı belə siyasi ittiham irəli sürəcəklər. ABŞ qanunvericiliyində hər hansı şəxsə səs verməsi, səs verməməsi, müəyyən namizədin lehinə və ya əleyhinə səs verməsi müqabilində maddi mükafat təklif etməyi cinayət hesab edir; federal vəsait hesabına mümkün olan iş, kompensasiya, müqavilə və ya başqa faydanın siyasi fəaliyyət və siyasi dəstək müqabilində vəd edilməsini qadağan edir".



Onun sözlərinə görə, lakin burada bir hüquqi incəlik var: "Tramp "dividend"i yalnız respublikaçılara səs verənlərə deyil, bütün yetkin vətəndaşlara, o cümlədən seçkilərdə iştirak etməyən, demokratlara səs verən seçicilərə vəd edir. Digər tərəfdən, Tramp həmin ödənişi özünün şəxsi və ya Respublikaçılar Partiyasının vəsaiti hesabına deyil, ABŞ dövlət büdcəsinin hesabına ödəməyi vəd edir. Bu isə klassik mənada seçicilərin satın alınması və ya rüşvət ittihamlarını mübahisəli edir. Lakin demokratik seçki baxımından təhlükəli bir məqamı ortaya çıxarır. Bu da seçicinin konkret maddi qazancını hakim partiyanın seçkidə qələbəsi ilə əlaqələndirmək azad və demokratik seçkinin mahiyyətinə nə dərəcədə uyğunluğundan ibarətdir. Dövlət büdcəsi hakim partiyanın seçki fondu deyil. Dövlətin maliyyə resursları bütün cəmiyyətə məxsusdur. Hakim siyasi qüvvə vətəndaşın həmin resurslardan əldə ediləcək konkret şəxsi faydanı özünün seçkidə qələbəsi ilə əlaqələndirməyə başlayırsa, dövlətlə hakim partiya arasındakı sərhəd tədricən aradan qalxır. Həm də belə metod uğur gətirərsə, onun gələcək seçkilərdə təkrarlanmayacağına heç bir təminat yoxdur.Seçkiqabağı təşviqatın belə aparılması siyasi proqramların rəqabətini tədricən dövlət xəzinəsindən seçiciyə kimin daha çox vəd edə bilməsi yarışına çevirə bilər. Təbii ki, belə yarışda hakim siyasi qüvvənin müxalifət qarşısında təbii üstünlüyü də yaranır. Müxalifət yalnız gələcəkdə nə edəcəyini vəd edə bilər".

Q.Əlibəyli deyib ki, hakimiyyət isə dövlətin mövcud maliyyə resurslarını öz siyasi kampaniyasının arqumentinə çevirmək imkanına malikdir:

"Bu baxımdan, dövlət resurslarından veriləcək konkret maddi faydanı hakim partiyanın seçkidə qələbəsi ilə əlaqələndirmək sadəcə sosial-iqtisadi vəd olmaqdan çıxaraq seçicinin iradəsinə maddi təsir vasitəsinə çevrilir. Trampın çıxışının başqa bir hissəsi məsələni daha maraqlı edir. Prezident respublikaçıların qələbəsini 5000 dollarlıq "dividend"lə əlaqələndirməklə yanaşı, demokratların qalib gələcəyi halda ABŞ-nin "kommunist ölkəsi"nə çevriləcəyini və amerikalıları "cəhənnəm" gözlədiyini bildirib. Yəni seçiciyə bir tərəfdən mükafat vəd edilir, digər tərəfdən isə qorxu - rəqibin gəlib gəlməsinin təhlükəli olduğu aşılanır. Bu, siyasi kommunikasiya baxımından son dərəcə təsirli formul ola bilər. Çünki mürəkkəb siyasi seçimi sadə "qazanc və itki" dilemmasına çevirir.Burada isə demokratik seçki baxımından başqa bir mübahisəli məqam meydana çıxır. Demokratik seçkinin ayrılmaz hissəsindən biri də seçicinin öz iradəsini azad şəkildə formalaşdırmasıdır. Mükafat vədi və qorxu təlqini seçicinin öz iradəsini azad şəkildə deyil maddi maraq və psixoloji təzyiqlə formalaşdırmasına gətirib çıxara bilər.Məhz buna görə Trampın respublikaçılar qalib gələrsə bütün seçicilərə 5000 dollarlıq "divident" vədinə, demokratlar qalib gələrsə isə amerikalıları "cəhənnəm"lə qorxutmasına yalnız Amerika seçki kampaniyasının növbəti qeyri-adi epizodu kimi baxmaq doğru olmazdı. Bu Amerika demokratiyası üçün və bütün dünyada demokratik proseslər üçün təhlükəli bir presidentə çevrilə bilər".

**Sübhan**

# «Bunun üçün milyardlarla dollar investisiya və illər lazımdır»

**"İran-ABŞ və Rusiya-Ukrayna münaqişəsi bitməyənə qədər dünyanın enerji böhranı tam həll olunmayacaq. Bu münaqişələrin yaxın perspektivdə bitməsi də real görünmür. Deməli, "Bu xəmir hələ çox su aparacaq".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. O, bildirib ki, Avropa İttifaqında öz seçkicilərini sakitləşdirmək üçün enerji təchizatının diversifikasiyasından danışırlar: "Amma hardan, enerji mənbəyi haradadır, bu diversifikasiyanın? Hazırda nefti çox olub amma bazara az çıxaran əsas 3 ölkə var. İran, Venesuela və Rusiya. Bunlar istisna olmaqla, dünyanın əsas neft istehsalçılarının qısa müddətdə bazara böyük həcmdə



əlavə neft çıxarmaq imkanları məhduddur. Rusiyanın və İranın sanksiyaları məlumdur". İqtisadçının sözlərinə görə, Venesuelanın isə nəhəng neft ehtiyatları var, amma böyük ehtiyat böyük hasilat demək deyil:

"Mövcud infrastruktur və texnoloji imkanlarla hasilatı qısa müddətdə bir neçə dəfə artırmaq mümkün deyil. Bunun üçün milyardlarla dollar investisiya və illər lazımdır. Alternativ enerji də neft və qazı qısa müddətdə əvəz edə bilmir. Avropa onilliklərdir bu istiqamətə böyük vəsait yatırır, amma neft və qazdan asılılıq hələ də yüksəkdir.Başqa sözlə, həm ələvə neft təklifi məhduddur, həm əsas nəqliyyat marşrutları risk altındadır, həm də alternativ enerji tələb olunan həcmi əvəz edə bilmir. Bu səbəbdən növbəti ildə neftin 60-65 dollara düşməsi indiki şəraitdə çətin görünür.Buna görə də 2027-ci ilin dövlət büdcəsində neftin qiymətinin 65 dollardan 70 dollara qaldırmaq məsələsinə də baxıla bilər. Çünki mövcud geosiyasi vəziyyətdə 70 dollar ciddi əlavə risk yaratmadan büdcənin gəlir imkanlarını genişləndirə və iqtisadi aktivliyin dəstəklənməsi üçün əlavə maliyyə imkanları yarada bilər.

Yeri gəlmişkən, ABŞ Enerji İnformasiya Administrasiyası (EİA) 2026-cı ilin fevralında 2027-ci il üçün Brent neftinin orta qiymətini 53 dollar proqnozlaşdırırdısa, sentyabrda bu rəqəmi 74 dollara qaldırıb. UBS-in hazırkı proqnozu da 75 dollardır. Bir daha qeyd edim ki, faktiki qiymətin daha yüksək ola biləcəyini düşünürəm. EİA və UBS-in daha yüksək rəqəmləri indidən proqnozlaşdırmamasının səbəblərindən biri belə proqnozların bazarda əlavə təzyiq yaradaraq neftin qiymətini daha da yüksəldə bilməsi ola bilər ki, bu da ABŞ-ın maraqlarına uyğun olmazdı.Deməli, mövcud mənzərə dəyişməzsə, Azərbaycan gələn il də yüksək neft qiymətlərindən faydalanaraq valyuta ehtiyatlarını artırmaq üçün əlverişli imkan əldə edə bilər".

**Vasif**

# "İslam coğrafiyasında böyük bir anti-Qərb nifrəti..."



**"1991-ci ilin Birinci, 2003-cü ilin İkinci Körfəz savaşları Yaxın Şərqdə - İslam coğrafiyasında ABŞ və İsrailin hərbi-siyasi üstünlüyünü və regiona nəzarətini nə qədər gücləndirsə də, 2026-cı ildəki İran müharibəsi situasiyanı köklü şəkildə dəyişdi.İran müharibəsi göstərdi ki, artıq nə İsrail, nə də onu qorumağa mükəlləf ABŞ bazaları, eləcə də bu bazaların yerləşdiyi ölkələr təhlükəsiz deyillər".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şükürlü deyib.

O, bildirib ki, bir tərəfdən, ABŞ-İsrail tandeminin Qəzzada törətdikləri hərbi cinayətlər, o biri tərəfdən də İrana qarşı hərbi əməliyyatların uğursuzluğu və qarşıya qoyulan məqsədlərin heç birinə nail olunmaması regionun müsəlman ölkələrinin həm hakimiyyətlərində, həm də cəmiyyətlərində əhəmiyyətli düşüncə və siyasət dəyişikliyinə gətirib çıxarıb:

"İslam coğrafiyasında böyük bir anti-Qərb nifrəti yaranıb və belə bir ərəfədə Qərblə əməkdaşlığa can atan, öz təhlükəsizliyini ABŞ-İsrail tandemiylə birgə təmin etmək istəyən, onlarla yenidən ittifaqa meyl edən istənilən hakimiyyətin sütunları laxlayacaq, istənilən məzhəbin ideoloji-siyasi təməlləri sarsılıb çökəcək. Üstəlik, bu durum müsəlman həmrəyliyi ideyasını da çox sürətlə coğrafiyamızda genişləndirəcək. Yəmən husilərinin Bab əl-Məndəb boğazını qısa müddətdə ələ keçirməsi, uzun illər bir-birinə qarşı vuruşan islamçı silahlı dəstələrin bircə anda öz aralarında razılığa gələ bilmələri bu durumun gerçək mənzərəsidir.Yəmən husiləriylə Səudiyyə Ərəbistanı arasındakı hazırkı vəziyyət onu göstərir ki, müsəlman dövlətlər arasında ədalətli hakim statusunda çıxış edə biləcək dövlət, lider və ya təşkilat yoxdur.İslamın Kitabı "Qurani-Kərim"in hökmüylə, müsəlmanlar məsələni öz aralarında və dialoq yoluyla çözməli, günahsız müsəlmanların qanının axıdılmasına rəvac verməməlidirlər! Əgər yenicə formalaşan və İslam adıyla qurulan "Məkkə İttifaqı" bu missiyanı öz üzərin götürə bilsə - savaşan iki tərəfdən birini dəstəkləmək yox, hər iki tərəfi danışıqlar masası arxasına gətirmək mövqeyi tutsa və buna da nail olsa, bu, gələcəkdə İslam ölkləri arasında həmrəyliyi gücləndirməklə, Sülhməramlı Missiyanın formalaşdırılmasına və müsəlmanlar arasındakı digər münaqişələrin də sülh yoluyla həllinə gətirib çıxara bilər.Bir daha xatırladırıq ki, hazırda "Məkkə İttifaqı"nda birləşən Türkiyə və Pakistan İslamın sünni məzhəbinin hənəfi, Səudiyyə Ərəbistanı isə hənbəli fiqhinə əsaslanır. Yəmən əhalisinin yarısı isə sünni məzhəbinin şafeyi fiqhinə, digər yarısı - husilər isə şiə məzhəbinin Zeydiyyə qoluna aiddir. Beləliklə, "Məkkə İttifaqı"nın imkanı var ki, hənəfi, hənbəli, şafeyi və şiələri tezliklə eyni masa arxasında əyləşdirə, müsəlmanlar arasında dialoq mühiti və vəhdət yarada bilsin!Məkkədə doğulan və dünyaya nur saçan Həzrəti Peyğəmbərimiz (s.ə.s.) necə demişdi? "Sizə Yəmən əhli gəldi. Onlar qəlbləri ən incə və ürəkləri ən yumşaq insanlardır. İman Yəməndədir, hikmət də Yəməndədir".İndi görək, özünü müsəlman lider sayan neçə dövlət başçısı bu hikməti anlayaraq, yeni bir məzhəb toqquşmasına yox, vəhdətə can atacaq?".

**Vasif ƏLİHÜSEYN**

# "Kreml sahibi bütün hallarda istədiyi nəticəni əldə edəcək"

**"Kremlə bağlı siyasi ekspertlər gün ərzində Ukraynanın Moskvanın yanacaq və neftayırma zavodlarına raket və dron hücumlarını iki səbəblə izah ediblər. Birincisi, guya Kiyevin məqsədi Rusiyada Dövlət Dumasına keçirilən seçkiləri pozmaq olub. İkincisi, Kiyev guya bu hücumlarla Qərbdən daha çox maliyyə almağa çalışır".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

"Avropa İttifaqı onsuz da Ukraynaya maliyyə yardımını kəsmir, çünki Brüssel Ukraynanın Rusiyaya məğlub olmasını istəmir. O ki qaldı, Dövlət Dumasına seçkilərə, SSRİ diktatoru Stalinin məşhur kəlamı Kreml üçün bu gün də keçərlidir:

"Vətəndaşların necə səs vermələrinin əhəmiyyəti yoxdur, əsas bu səslərin necə sayılmasıdır". Yəni Ukraynanın gün ərzində Moskvanı raket və dron atəşinə tutmasının Rusiyada parlament seçkilərinin nəticələrinə zərrə qədər təsiri yoxdur.

Kreml sahibi bütün hallarda istədiyi nəticəni əldə edəcək. Bu isə o deməkdir ki, Rusiya cəmiyyətinin önəmli hissəsi hələ də Putinin Ukraynaya qarşı savaşını dəstəkləyir. Bu həmin kəsimdir ki, sorğularda milyonlarla insanın qətlinə səbəb olan Stalini "böyük lider" adlandırır".

**Sübhan**



Natəvan ƏSƏDOVA,
Riyaziyyat üzrə fəlsəfə doktoru

# Dövlət Suverenliyi Günü - Azərbaycanın mövcudluğunun və institusional davamlılığının əsasıdır

**20 sentyabr Azərbaycanın son 200 illik tarixinin şərəfli səhifəsidir. Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2024-cü il tarixli Sərəncamı ilə hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd ediləcək. Bu əlamətdar günün təsis olunması Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən hərbi və siyasi strategiyasının nəticəsi olaraq, Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni silahlı dəstələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması ilə bağlıdır. Belə ki, bu gün - sentyabrın 20-də Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərinin erməni sepratçılarından təmizlənməsindən bir il ötür.**

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat 43 dəqiqə davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir.

Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Dövlət suverenliyi anlayışı hər bir dövlətin müstəqil mövcudluğunun fundamental əsaslarından biridir. Suverenlik dövlətin öz ərazisində ali hakimiyyətə malik olması, daxili və xarici siyasətini müstəqil şəkildə müəyyənləşdirməsi və milli maraqlarını beynəlxalq münasibətlər sistemində sərbəst müdafiə etməsi deməkdir. Azərbaycan Respublikasının Konstitusiyasında da dövlət müstəqilliyinin, suverenliyin və ərazi bütövlüyünün qorunması dövlətin əsas məqsədləri sırasında təsbit olunmuşdur. Konstitusiyanın 2-ci maddəsinə əsasən, Azərbaycan xalqının sərbəst və müstəqil şəkildə öz müqəddəratını həll etmək və idarəetmə formasını müəyyən etmək suveren hüququdur.

Azərbaycanın dövlət suverenliyinin bərpası uzun və mürəkkəb tarixi prosesin nəticəsi olmuşdur. 1990-cı illərin əvvəllərində Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğal olunması dövlət suverenliyinin həmin ərazilərdə faktiki olaraq həyata keçirilməsinə imkan verməmişdi. İşğal dövründə yaşayış məntəqələri dağıdılmış, yüz minlərlə insan öz doğma torpaqlarından məcburi köçkün vəziyyətinə düşmüşdü.

Bu vəziyyət Azərbaycan dövlətinin qarşısında ərazi bütövlüyünün və suverenliyinin bərpasını fundamental milli məqsəd kimi müəyyənləşdirmişdi. 2020-ci ildə baş vermiş Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində həlledici mərhələ oldu. 44 günlük müharibənin nəticəsində Azərbaycanın bir sıra işğal altında olan əraziləri azad edildi və ərazi bütövlüyünün bərpası prosesində mühüm nəticələr əldə olundu. Lakin dövlət suverenliyinin bütün ölkə ərazisində tam təmin olunması üçün proses qeyd etdiyim kimi 2023-cü ilin sentyabrında başa çatdı. Artıq Azərbaycan Respublikasının dövlət bayrağı ölkənin bütün ərazilərində dalğalanır və dövlət hakimiyyətinin hüquqi-siyasi təsir dairəsi ölkənin bütün ərazisini əhatə edir. Dövlət suverenliyinin tam təmin olunması Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi baxımından mühüm tarixi hadisə kimi qiymətləndirilir.

Bu baxımdan Dövlət Suverenliyi Günü yalnız hərbi nailiyyətin ildönümü deyil, həm də dövlətçilik, milli birlik, hüquqi dövlət və konstitusiya prinsiplərinin əhəmiyyətini xatırladan bir tarixdir. Suverenliyin qorunması yalnız hərbi gücdən deyil, eyni zamanda güclü dövlət institutlarından, qanunun aliliyindən, iqtisadi inkişafdan, milli həmrəylikdən və vətəndaş məsuliyyətindən asılıdır.

Dövlət Suverenliyi Gününün təsis edilməsi həm də gələcək nəsillərin tarixi yaddaşının formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu tarix gənc nəslə dövlət müstəqilliyinin və suverenliyin necə böyük tarixi dəyər olduğunu aşılamaq üçün mühüm imkan yaradır. 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi də bu baxımdan xüsusi əhəmiyyət kəsb etmiş, dövlət suverenliyi və Konstitusiya ilə bağlı müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

**Bu gün Azərbaycan tam suveren dövlət kimi beynəlxalq aləmdə öz sözünü deyir. Ərazilərimizin bütövlüyü təmin olunub, sərhədlərimiz toxunulmazdır, daxili sabitlik və iqtisadi inkişaf yüksələn xətlə davam edir. Dövlət Suverenliyi Günü Azərbaycan xalqının əsrlərlə davam edən mübarizəsinin, şəhidlərimizin qanı, qəhrəman Ordumuzun rəşadəti və müdrik liderliyin bəhrəsi kimi tariximizdə əbədi yaşayacaq.**

Vüqar ABBASOV,
Avropa Xəbər Agentliyinin
(European News Agency)
əməkdaşı



# Vətən təəssüratları 2026

*(Birinci yazı)*

**Bu yazımı bir qədər gecikmiş yazı hesab edirəm. Çünki yazmağa başladığım gün, 18 sentyabr 2026-cı il, artıq iki həftə idi ki, yenidən Niderlanda qayıtmışdıq. Amma bir tərəfdən yol yorğunluğundan, bir tərəfdən işlərin çoxluğundan yazı yazmağa imkan tapa bilmirdim. Amma təəssüratlarımı bölüşmək istəyim nəhayət məni kompüterimin arxasına keçməyə vadar etdi.Həm də ona görə ki, bu dəfəki səfərimiz ailəmiz üçün əlamətdar olan başqa bir hadisə ilə bağlı idi.**

## Fərqli səfər

**Qeyd etdiyim kimi, bu dəfə başqa bir səbəblə də gəlirdik: övladımın xeyir işi, toyu olacaqdı. Artıq xeyli müddət idi ki, toya hazırlıqlar uzaqdan da olsa davam edirdi. Məhz bu toy üçün Niderlanddan xeyli qonağımız gələcəkdi. Onların arasında milli kimlik baxımından niderlandlılar və Niderlanddan xüsusi olaraq bu toy üçün Azərbaycana gələn soydaşlarımız da var idi.**

**Odur ki, bu yazımda məmləkətimizə, onun paytaxtına həm də niderlandlı qonaqlarımızın gözü ilə baxmağa, onların fikirlərinə də, ad çəkmədən, yer verməyə çalışacağam.**

## Hava limanı

**Elə buradan başlayaq. Artıq hava limanından çıxmışıq. Hər zaman məmləkətə gələndə kirayə maşın götürürəm, bu dəfə də fərqli olmadı. Şirkətin əməkdaşı ilə zəngləşirik. "İçəri gəlməyin, maşını harada saxlamısınızsa deyin, ora gələk", - deyirəm. Cavabında isə: "Müəllim, narahat olmayın, yanınıza çatıram. Burada maşını tapmaq sizə çətin olar", - deyir.**

**Doğrudan da, çətin olardı. Çünki maşınların park edildiyi yerlər, sıralar nömrələnməyib, işarələnməyib. Kiməsə yerini bildirmək üçün "düz gəl, sonra sola dön, sonra yenə düz gəl, filan yerə dön..." kimi qeyri-adi üsulla istiqamət verməli olursan. Anlamıram ki, parklanma yerlərini nömrələmək nə çətin iş imiş.**

**Bu yerdə qeyd edim ki, yerlərin nömrələnməsi ilə bağlı aidiyyəti təşkilatlara, idarələrə bir neçə ay öncə məktub da göndərmişəm. Buradan bir daha müraciət edirəm: bu məsələyə diqqət verin. Çünki hava limanı ölkəmizə gələn xaricilərin əksəriyyətinin ilk gördüyü yerdir. Həmçinin bu, təkcə xaricilər üçün deyil, ən başlıcası, öz insanlarımızın rahatlığı üçün edilməlidir. Cənablar, müəllimlər, bəylər, xanımlar, bu məsələ sizə sadə bir şey kimi gəlməsin. Bunu həll edin.**

**Niderland**

# "Koreya Mərkəzi Asiya ilə əməkdaşlığı dərinləşdirmək istəyir"

**"Seulda sentyabrın 16 və 17-də ilk dəfə "Mərkəzi Asiya - Koreya Respublikası" sammiti keçirilib. Bu sammit Cənubi Koreyanın daha əvvəl elan etdiyi "Yeni şimal siyasəti" təşəbbüsünün gücləndirilməsinə xidmət edib. Bu strategiya Avrasiyada sülh və birgə rifah konsepsiyası çərçivəsində Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlığın inkişafına yönəlib".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloq bildirib ki, sammitdə Mərkəzi Asiya liderləri müxtəlif təkliflər səsləndiriblər: "Özbəkistan Prezidenti Şavkat Mirziyoyev sammitdən bir gün əvvəl Seula səfər edərək Cənubi Koreya Prezidenti Li Cje Myonq ilə iki ölkə arasında əməkdaşlığın inkişafı mövzularını müzakirə edib. İki ölkə arasında geniş iqtisadi əlaqələr mövcuddur. Təsadüfi deyil ki, Özbəkistanda Koreya kapitalı ilə 700-dən çox birgə müəssisə fəaliyyət göstərir. Özbəkistan iqtisadiyyatına qoyulan Koreya investisiyalarının ümumi həcmi 8 milyard dolları ötüb. Bundan başqa Özbəkistan və Cənubi Koreya ümumi məbləği təxminən 12 milyard dollar olan yeni layihələr hazırlayıblar. Şavkat Mirziyoyev sammitdə müxtəlif təkliflər irəli sürüb. Bunlar içərisində Mərkəzi Asiya Cənubi Koreya ilə



tərəfdaşlığın strateji planlaşdırılmasını hazırlanması, Özbəkistanda Koreya ilə birgə texnoloji parkın yaradılması, nadir torpaq elementlərinin birgə istismarı kimi təkliflər var".

Onun sözlərinə görə, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev sammitdə sənaye və texnologiya sahəsində təşəbbüslərə üstünlük verilməsi zərurətini vurğulayıb: "Qazaxıstan Prezidenti birgə istehsalın üçüncü ölkələrə ixracının təşkil edilməsinin də mümkünlüyünə toxunub. Tokayev Qazaxıstanın Koreya Respublikasına enerji nəql edə biləcəyini də vurğulayıb.

Qırğızıstan Prezidenti Sadır Japarov Mərkəzi Asiya ölkələri və Cənubi Koreyanın birgə investisiya fondunun yaradılmasını təklif edib. Bu təklif Koreya Respublikasının Mərkəzi Asiya bazarlarında iştirakının möhkəmlənməsinə xidmət etməlidir. Sadır Japarov bunula yanaşı birgə pilot texnoloji platformalar şəbəkəsinin formalaşdırılmasını təklif edib. Tacikistan və Türkmənistan Prezidentləri də ölkələrinin Cənubi Koreya ilə əməkdaşlıqlarını dərinləşdirmək məqsədilə müxtəlif təkliflər səsləndiriblər.

Mərkəzi Asiya liderlərinin təkliflərini dəstəkləyən Koreya Prezidenti Li Cje Myonq əməkdaşlığın 5 sütuna söykənməsi vacibliyini bildirib. Bunlar tərəfdaşlıq, sülh, qarşılıqlı faydalı əlaqə, yeni texnologiyalar və insanlar arasında əlaqələrdir". E.Şahinoğlu deyib ki, Koreya Respublikası Mərkəzi Asiya ilə əməkdaşlığı dərinləşdirmək istəyir: "Öz növbəsində Mərkəzi Asiya ölkələri güclü iqtisadiyyatı olan və yüksək texnologiyalara malik Cənubi Koreya ilə əməkdaşlıqdan faydalanmağa çalışırlar. Cənubi Koreya və Mərkəzi Asiya ölkələri hər iki ildən bir sammit keçirməyi qərarlaşıblar. Növbəti sammit 2028-ci ildə Qazaxıstanda keçiriləcək. Həmin sammitdə Azərbaycanın da iştirakını proznozlaşdırmaq olar. Birincisi, Azərbaycan ilə Mərkəzi Asiya ölkələri (Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistan) arasında əməkdaşlığı və inteqrasiyanı gücləndirən yeni 5+1 strateji əməkdaşlıq modeli formalaşıb. Mərkəzi Asiya liderlərinin iştirak etdikləri sammitlərdə Azərbaycanın da iştirakı əhəmiyyətlidir. İkincisi, Azərbaycan da Mərkəzi Asiya ölkələri kimi Koreya Respublikasıyla müxtəlif sahələrdə əməkdaşlığı dərinləşdirməkdə maraqlıdır".

**Vasif ƏLİHÜSEYN**

# "Kaş ki, heç olmasa, bu yanlışlıqların davamı olmaya..."

**"İllərdir yollardakı tıxaclara nə vaxt çarə qılınacağı barədə danışanda yarızarafat-yarıciddi deyirdik ki, bu işdə ciddi dönüş o vaxt başlayacaq ki, tıxaclar onlara əncam çəkməli olanların və bu şəxslərə və ya qurumlara təsir etmək səlahiyyəti olanların darvazalarına qədər gəlib çıxsın".**

Adalet.az xəbər verir ki, bunu yol hərəkəti üzrə ekspert Ərşad Hüseynov deyib.

"Deyəsən, həmin vaxt gəlib çatıb. Bu həftənin əvvəlində Milli Məclisdə Bakı tıxacları barədə danışılanlar bunu yadıma saldı. Özü də yəqin ki, tıxac mözusundakı belə emosional söhbətlər təkcə parlamentdə yox, icra hakimiyyəti orqanlarında da gedir. Sadəcə parlamentdən fərqli olaraq, icra hakimiyyəti orqanlarındakı söhbətlər mediaya çıxmır. Bunları eşidəndə adamın ağlına maraqlı suallar gəlir: Cənablar, bəs indiyə qədər haradaydınız? Yaxud başınız nəyə qarışmışdı ki, bu tıxacların darvazalarınıza çatacağını görmürdünüz? Bakının və Abşeron aqlomerasiyasının beton cəngəlliyə döndərildiyini, tramvay xətlərinin söküldüyünü, yollarda bəyənmədiyiniz digər işləri görmürdünüz?.. Kaş ki, heç olmasa, bu yanlışlıqların davamı olmaya.

Rəhmətlik Mirzə Ələkbərin hələ uşaq vaxtı oxuduğum misraları tez-tez yadıma düşür:

Tərpənmə, amandır, bala, qəflətdən ayılma!
Açma gözünü, xabi-cəhalətdən ayılma!
Laylay, bala, laylay!
Yat, qal dala, laylay!".

**Vasif**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Hardasız, hardasız, mələk adamlar?..

**... Adam yaşa dolduqca yaman darıxır... Allah üçün darıxır, yaxşı dostlar üçün darıxır... Balaları, əzizləri üçün darıxır... Və bu darıxmaq da elə-belə deyil... Çünki onlar sənin ürəyini, qəlbini fəth ediblər... Onlar sənin iç dünyanda günəş kimi, ay kimi, ulduzlar kimi işıq saçırlar və hər zaman, hər an sənin yanındadırlar!**

**Allaha and olsun, onları bir həftə, bir ay görməyəndə elə bil ki, nəsə itirmisən, nəyinsə çatışmır! Və o dəqiqə mobil telefona əl atırsan, həmin o mələk, o çiçək dostunla bir ürək söhbəti eləyirsən, qəlbini boşaldırsan, yenidən iç dünyana bir həyat eşqi, bir sevgi, bir işıq gəlir. O işıq sənə bir müddət bəs eləyir, səni böhtan insanlardan, mərdimazar insanlardan, tıkan insanlardan qoruyur!!! Belə dostlarımdan, darıxdığım və eləcə də çox istədiyim mələk insanlardan biri də oktyabrın 3-də 80 yaşı tamam olacaq tibb elmləri üzrə fəlsəfə doktoru, məşhur həkim-kardioloq Rafiq Yusiflidir.**

**Onu 50 ildən çoxdur ki, tanıyıram. Birincisi onun anası Bəhmənlidəndir və mənim anamla qohumdurlar! Allah hər ikisinə rəhmət eləsin! İkincisi də Rafiq həkimi Füzulidə məmə deyəndən, pəpə yeyənədək hamı tanıyır. Həkim kimi, insan kimi bənzəri yoxdur. Mənim rəhmətlik atamı, rəhmətlik qardaşımı da o müalicə edib! Özü də yaxşı müalicə edib ha! Türkiyənin çox məşhur klinikasında onun yazdığı reseptə professor baxıb dedi ki, bu həkim savadlı adamdır, bütün dərmanları düz yazıb və müalicəni düz aparıb. Ona görə də bizə çətin olmayacaq!**



**Ən çox darıxdığım adamlardan biridir Rafiq həkim! On-on beş gün səsini eşitməyəndə elə bil ki, nəyimsə çatışmır. O dəqiqə hiss edirəm ki, yeganə çatışmayan əlamət onunla hal-əhval tutmamağımdır! Və ona zəng edirəm! O dəqiqə bal kimi, məlhəm kimi şirin səsini eşidirəm: "Qağa, eşidirəm, nə var, nə yox?" Beləcə söhətimiz uzanır və o bal kimi şirin söhbətin nə vaxt başa çatdığını hiss eləmirəm! Hiss elədiyim o olur ki, içim, ürəyim və qəlbim işıqla dolur, özümü gözəl bir aurada, ovqatda duyuram!!! Belə bir deyim var: "Özü üçün yaşayan insan dünyanın ən bədbəxt adamıdır". Rafiq həmişə el-oba üçün, tanıdığı və tanımadığı insanlar üçün yaşayıb və yaşayır! 1993-cü ilin avqustunda Füzuli ermənilər tərəfindən işğal olunanda o da doğma yurdundan ayrı düşdü. Bakıya gəlib bir yerdə sığınacaq tapdı. Hamı kimi ağır günlər yaşadı və yaxşı insanların, dostların hesabına ayağa durdu və ümidini üzmədi! Elmi-Tədqiqat Kardiologiya İnstitutunda həkim-kardioloq kimi işə başladı.**

**Başqa həkim kabinetlərinin qarşısı boş olduğu halda onun otağının qabağında növbələr vardı! Hamısı da Qarabağın, o cümlədən Füzulinin məcburi köçkünləri! Onların hamısına kömək elədi. Birinə alnını turşutmadı. Və hamısına öz doğması qədər diqqət göstərdi. Ona görə də bu gün nəinki Qarabağ camaatı, eləcə də bütün pasiyentlər ondan razılıq eləyir və doğmaları qədər çox istəyir. Mən özüm dəfələrlə yaxın dost-tanışımı Rafiq həkimin yanına göndərmişəm! Onlar da mənə təşəkkür edərək deyiblər ki, onun kimi səmimi, təmənnasız həkim görməmişik! Rafiq Yisifli doğrudan da gözütox, dünya malında gözü olmayan böyük ziyalıdır! Nəinki Füzulinin, respublikamızın böyük ziyalısıdır! Rafiq Yusiflini həm də digər həkimlərdən fərqləndirən bir cəhəti də var: şairliyi! O, həkim olmasaydı, bəlkə də şair, yazıçı, jurnalist olardı!**

**Çünki yaradıcı adam kimi çox istedadlıdır. Hətta onun hər hansı bir yazını gözəl redaktə etmə qabiliyyəti də var. Bal kimi şirin söhbətlərindən doymaq olmur. Onu da deyim ki, Rafiq həkimin çox güclü mütaliəsi də var. Klassik və çağdaş ədəbiyyatımızı, hətta dünya, eləcə də rus ədəbiyyatını dərindən bilir! Üstəlik, onun çox şirin, dadlı, duzlu yumoru da var. Bax adam ona görə də onun bal kimi söhbətlərindən doymur! O, beynəlxalq konfranslarda, simpoziumlarda iştirak edir, vətənimizi bir həkim kimi xarici ölkələrdə şərəflə təmsil edir, öyrəndiklərini öz məmləkətimizdə uğurla tətbiq edir. Rafiq qardaşım, 80 yaşın mübarək! Allah sənə can sağlığı versin və həmişə ucalıqda olasan!**

**Səni hamı çox istəyir! Amma mən səni lapppp... çox istəyirəm... Çünki sənin dünya boyda ürəyin var! Yaşın səksənə çatsa da, ürəyin, qəlbin çox cavandır. Çünki sən insan deyilsən... Sən MƏLƏKSƏN!!! Elə sənin kimi insanlar haqqında Xalq şairi Musa Yaqub çox gözəl deyib:**

***Hardasız, hardasız, mələk adamlar?***
***Hardasız, hardasız, çiçək adamlar?***
***Bu şeytan adamlar, böhtan adamlar,***
***Bu tikan adamlar öldürər bizi...***

## *Hara gedirsən tıxacdır...*



**Yeni dərs ilinin başlanması ilə əlaqədar olaraq Bakıda əksər küçə və prospektlərdə avtomobil sıxlığı yaranır, tıxaclat baş verir. Xüsusilə də Ziya Bünyadov, Azadlıq, Babek, Zığ şossesi, Mətbuat prospekti .**

Xırdalan şəhəri istiqamətində demək olar ki, səhər və axşam saatlarında tıxaclar yaranır! Düzdür, yol polisi həmin istiqamətlərdə bir çox təhlükəsizlik tədbirləri görür, qabaqlayıcı addımlar atır, hətta ali və təhsil ocaqlarının yanına əlavə naryadlar göndərilir. Eləcə də yağışlı havalarda, işıqforlar işləməyəndə belə yol polisi əməkdaşları hərəkəti tənzimləyir və sürücülərə lazımı kömək göstərirlər. Təbii ki, onlar hadisələrə operativ şəkildə müdaxilisi tıxacların qarşısını xeyli alır. Amma buna baxmayaraq, yenə yollarda tıxaclar var! Bu gün, yəni sentyabrın 22-də səhər saatlarında adını çəkdiyimiz küçə və prospektlərdə tıxaclar vardı.



Tıxacda qalmış sürücülərin bir neçəsi ilə söbət elədik! Asif Axundov dedi ki, hər gün Bakıda səhə və axşam saatlarında bax gərgin , əsəbi anlar yaşayırıq. Bu gün Xırdalanda Bakıdakı 20 nömrəli məktəbin yanına bir saat yarıma çatmışam. Hansı ki, tıxac olmayanda həmin yol 20 dəqiqəyə gedirəm. Nə isə... İndi şəxsi avtomobillə Bakıda hərəkət etmək çox çətindir. Belə çıxır ki, gərək biz ictimai nəqliyyatdan istifadə edək. Bakıda tıxacların qarşısını bilmirik kim almalıdır? Bakı Şəhəri Dövlət Yol Polisi İdarəsi Yol Patrul Xidməti Alayının 5- ci tağımının komandiri polis mayoru, Nurlan Əliyev deyir ki, yol polisi öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Səhər və axşam saatlarında biz gücləndirilmiş iş rejimində çalışırıq. Tıxaclar zamanı bir də görürsən ki, hansısa səbrsiz sürücü yolun əks istiqamətinə çıxıb hərəkət edir və nəticədə qarşı yolda da tıxac yaradır. Bax yol polisi belə sürücüyə qarşı nə etsin! Bu ,özü kobud qanun pozuntusudur! Elə bir çox halda tıxaclara belə məsuliyyətsiz sürücülər şərait yaradırlar. Əlbəttə, şəhərimizdə tıxac problemi var və bu, dünyanın çox şəhərlərində belədir. Amma dünyanın çox şəhərlərində sürücülər qanunu bizimkilər kimi pozmurlar. Ona görə də hərəkət iştirakçıları Avropanın qabaqcıl təcrübəsindən bəhrələnməlidir!Bir sözlə, şəhərimizdə yol hərəkəti qaydalarına əməl etməli, tıxaclara şərəit yaratmamalıdır!

## *Yola asfalt örtük döşənir...*



**Bir aydan çoxdur ki, Yeni Günəşlinin Mürəsəl Kazımlı küçəsində yol qaşınmış və nəticədə həmin yerlərdə çala- çuxur yaranmışdır. Həmin məsələ ilə əlaqədar Günəşli sakinləri böyük narazılıq etmişdilər.**

Hətta bu barədə müxtəlif televiziya kanallarında və çap mediasında tənqidi süjetlər göstərilmiş və məqalələr dərc olunmuşdur. Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli bu tənqidi çıxılara cavab olaraq bildirmişdir ki, bir neçə gün ərzində həmin küçəyə asfalt örtük dösənəcək.



Artıq sentyabrın 21- də asfalt örtüyün dösənməsinə başlanılıb. Bu, camaatı çox sevindirir, ancaq işlər bir qədər ləng gedir.Hec kim zəmanət verə bilməz ki, intensiv yağışlar yağmayacaq. Ona görə də leysan yağışlar yağmayana qədər kücənin asfaltlama işləri başa çatdırılmalıdır!!!

**Emil FAİQOĞLU**



# Bu dəfə Yaxın Şərqi tarixin ən böyük savaşı gözləyir: İranla müharibəyə az qaldı

**"Hazırda İranla bağlı beynəlxalq münasibətlərdə çox ciddi proseslər yaşanır və müşahidələr də göstərir ki, yenidən İran üzərində buludlar sıxlaşmaqdadır. Hətta qeyd olunur ki, Amerika Birləşmiş Ştatları İranla sərhəd bəzi ölkələrə müraciət eləyib ki, hərbi əməliyyatların növbəti dalğasına coğrafi olaraq icazə ala bilsin. Proses ondan ibarətdir ki, Amerika Birləşmiş Ştatlarına məxsus olan ağır artilleriyanın, silahların, o cümlədən hərbi yüklərin İran sahillərinə daşınması baş verir və görünür ki, son on gündə təxminən dörd istiqamətdə İran ətrafında proseslərdə ciddi dinamika var".**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib. Politoloq bildirib ki, hazırda daha çox hərbi eskalasiya, yəni Hörmüzün açılmasına yönəlik hərbi əməliyyatların bərpa olunmasına dair gündəm yaranmaqdadır: "Görünən odur ki, sentyabrın əvvəlində ABŞ-İran qarşıdurmasında yenidən bir pik yaşandı. ABŞ sentyabrın biri, ikisi İranın cənub sahillərinə zərbələr endirməklə yanaşı, İran da onun bölgədəki proksilərinə, yeni müttəfiq ölkələrinə zərbə vurdu və bu, iyuldan bəri ilk ən böyük toqquşma idi. Şübhəsiz ki, bundan dərhal sonra İran Hörmüz boğazını bağladı. İndi Baş Assambleyada İran xarici işlər naziri Araqçi ilə ABŞ nümayəndəsi Stiv Vitkofun danışıqlar prosesi baş tutdu və Araqçi burada İranın şərtlərini təqdim eləyibdir: ABŞ-a Vaşinqton hərbi təzyiqi azaltsa və limanın blokadasını qaldırsa, İran yeddi gün içində boğazı aça bilər. Amma görünən odur ki, Tramp bir neçə gün öncə bəyan elədi ki, yeni mərhələyə qədəm qoymuşuq və bu dəfə İran mütləq şəkildə, yekun olaraq cəzalandırılacaq. İran ordusu isə ABŞ-ın zərbələrə başlamağını bərpa etməyə hazırlaşdığını bildirdi. Bu da məlumdur ki, təxminən belə bir açıqlama verdilər: İranda təxminən otuz milyondan artıq şəxs könüllü olaraq Amerika ilə müharibə hərəkatına qoşulub və silah götürməyə hazır olduğunu bəyan eləyib. Bunun da kontekstində İran ordu və yarımhərbi qruplaşmaları ölkənin sərhədlərinə yığıb". Onun sözlərinə görə, ikinci istiqamət iqtisadi çöküşlə bağlıdır:

"Rejim daxilində 2019-cu ilin ssenarisini təkrarlamağa çalışır; yəni hökumət ayda 110 litrdən çox benzin istifadə eləyənlərlə bağlı qiymətləri qaldıracağını açıqlayıb, səbəb kimi də, əlbəttə, ABŞ-ın sanksiyasını və müharibəni bildiribdir. Təbii ki, bu çox ağır bir rəqəmdir, çünki gündəlik 300-500 milyon dollarlıq neft gəliri blokada səbəbindən faktiki olaraq kəsilib, heç bir ölkə İran neftini almaq istəmir. Bu baxımdan sosial şəbəkələrdə sızan məlumatlar var ki, İranın hakimiyyətinə yaxın beyin mərkəzində - Fərhəng Müəssiseyi Raci yeni etiraz dalğasının başlana bilməsinə yönəlik çox ciddi narahatlığını açıqlayıb və bildirib ki, məscidlərin, inqilab qüvvələrinin 24 saat növbəyə keçməsi lazımdır təcili şəkildə. Başqa bir video materialda bildirilir ki, Ali Milli Təhlükəsizlik Şurası illik ordu paradını ləğv eləyib, yerinə daxili etirazlara qarşı motosikletli və piyada manevrləri edə biləcək bir alternativ hərbi qüvvə hazırlamış. Qalibaf da bildirib ki: "Raketlərimiz düşməni gördü, indi sıra qisasçıların - bizim dəyənəyimiz, silahımız və motosikletimizin görməsinə növbə çatır". Üçüncüsü, daxili etirazlardan çox danışılır və görünən odur ki, iqtisadi problemlər ucbatından - yəni İran xalqı faktiki olaraq pulsuz qalıb, ac qalıb - çox ciddi iqtisadi partlama ərəfəsindədir. BMT-nin Müstəqil Araşdırma Missiyası sentyabrın 17-də açıqlayıb ki, 2025-ci il dekabrın 28-dən başlayan repressiyalar insanlığa qarşı cinayət kimi yadda qalıb və ölü sayı, hər halda, 2022-ci illə müqayisədə beş dəfə çox olubdur; ümumi məlumata görə, 31 əyalətdə 221 uşaq öldürülüb, internet 8 yanvardan etibarən isə beş aydan artıq müddətə kəsilib. Yəni hazırda 20-22 sentyabr tarixi arasında küçələrdən görüntülər yayılır; müəlliflər bütövlükdə etiraz kimi böyük kütlələrin görüntülərini görməkdəyik. Proses bundan ibarətdir ki, dövlət də təxminən 300 min nəfərlik çadralı qadını meydana çıxardıb, hakimiyyətin müdafiəsi ilə bağlı mitinq təşkil elətdirib; digər tərəfdə isə hicabsız qadınların böyük aksiyaları keçirilir və təxminən İran hakimiyyəti Avropada, dünyada yaşayan, mühacirətdə yaşayan məşhur iranlıların ölkəyə qaytarıb hakimiyyətə dəstək tərbirləri gördürsə də, 2022-də gözündən vurulub kor edilən, Almaniyadan qayıtdıqdan sonra həbs edilən etirazçı Ali Zareiyə "yer üzündə fəsad" ittihamı ilə ölüm hökmü verilib və Qezel Hesar həbsxanasında təkadamlıq kameraya köçürülüb. Bu da diasporanı İran dövləti əleyhinə səfərbər edib".

**V. ƏLİHÜSEYN**

# FHN onlara müraciət etdi

**Fövqəladə Hallar Nazirliyi yanğın təhlükəsizliyi ilə bağlı kənd yerlərində yaşayan əhaliyə müraciət edib.**

Nazirlikdən Adalet.az-a verilən məlumata görə, FHN səlahiyyətlərinə uyğun olaraq, ölkədə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə zəruri tədbirlərin görülməsini davam etdirir. Bu çərçivədə, baş vermiş yanğın hadisələrinin təhlili göstərir ki, qeydiyyata alınan yanğınların bir hissəsi də kənd və qəsəbələrdə fərdi yaşayış evlərinin həyətyanı sahələrində yığılmış ot tayalarının payına düşür:




"Fövqəladə Hallar Nazirliyi tərəfindən aparılan kütləvi maarifləndirmə işlərinə baxmayaraq, təəssüflə qeyd edilməlidir ki, bəzi vətəndaşlar tərəfindən tədarük edilən otun yaşayış evləri və yardımçı tikililərin çardağına, eləcə də tikililərin bilavasitə yaxınlığına, hava elektrik xətlərinin altına yığılması hallarına rast gəlinir. Bununla da yanğın təhlükəsizliyi qaydalarının tələbləri kobud şəkildə pozulur ki, nəticədə ağır fəsadlara səbəb olan yanğın hadisələri baş verir. Belə ki, kənd yerlərində geniş istifadə olunan təndirdən, habelə sobaların tüstü bacasından çıxan ani qığılcım, elektrik naqillərində baş verən qısaqapanma, odla ehtiyatsız davranma, o cümlədən ətrafa atılan sönməmiş siqaret kötükləri, nəzarətsiz qalan uşaqların odla oynaması və digər səbəblər tez alışma xassəsinə malik olan ot tayasının asanlıqla yanmasına və sonda acı nəticələrə gətirib çıxarır".

Bildirilib ki, təkcə bir faktı demək kifayət edər ki, yalnız cari ilin sentyabr ayının geridə qalan günləri ərzində bu qəbildən olan 22 yanğın faktı qeydə alınıb. Qeyd olunanlarla bağlı Fövqəladə Hallar Nazirliyi kənd yerlərində yaşayan, o cümlədən ot tədarükü ilə məşğul olan vətəndaşlara müraciət edərək, yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etməyə çağırır. Xüsusilə nəzərə alınmalıdır ki, mövcud normalara əsasən, ot tayası ilə tikililər arasında ən azı 50 metr, elektrik xətlərindən 15 metr, avtomobil yollarından isə 20 metr yanğına qarşı ara məsafələri gözlənilməlidir.

Unutmayın, qaydalara biganəlik həyatımıza təhlükədir"

FHN təhlükə zamanı 112-yə zəng etməyi tövsiyə edib.

# Bakının real əhalisi nə qədərdir, 2,3 milyon, yoxsa 4 milyon?

**"Bakının real əhalisini hesablamaq üçün kommunal xidmətlər, səhiyyə və mənzil fondu kimi göstəricilərdən istifadə etmək olar. Amma burada xəta payı yüksək olur. Nisbətən daha real mənzərəni mobil operatorların məlumatları və ya şagird sayı verə bilər. Mobil operatorların məlumatları açıq deyil, şagird sayı isə rəsmi mənbələrdə var. Buna görə hesablamanı şagird sayı üzərindən apardım və maraqlı nəticə alındı".**



Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, bildirib ki, hazırda Bakıda 354 dövlət ümumtəhsil məktəbində 543 mindən çox şagird təhsil alır:

"Özəl məktəbləri də nəzərə aldıqda bu say 560 min nəfəri keçir. Bu məsələdə Abşeron rayonunu Bakıdan ayırmaq olmaz. O, faktiki olaraq Bakı aqlomerasiyasının tərkibidir. Burada isə 62,5 mindən çox şagird təhsil alır. Beləliklə, Bakı və Abşeronda məktəblilərin sayı təxminən 623 min nəfərə çatır.Müqayisə üçün hazırda ölkədə təxminən 1,6 milyon şagird təhsil alır. Yəni ölkədə şağirdlərin 39%-i Bakı və Abşeronun payına düşür. Hazırda ölkədə əhalin sayı təxminən 10,2 milyon nəfərdir və 39%-lik nisbəti əhaliyə tətbiq etdikdə Bakı və Abşeronda faktiki yaşayan əhalinin sayı təxminən 4 milyon nəfər alınır. Bir daha qeyd edim ki, bu siyahıyaalma deyil, şagirdlərin sayı əsasında aparılan proporsional hesablamadır".

İqtisadçının sözlərinə görə, son 10 ilin dinamikası daha ciddidir:

"2015-2016-cı ildə Bakı və Abşeronda təxminən 410 min şagird var idisə, hazırda bu rəqəm 623 minə çatıb. Artım 52%-dir. Eyni dövrdə ölkə üzrə şagird sayı cəmi 18% artıb. Yəni Bakı və Abşeronda artım ölkə üzrə göstəricidən təxminən 3 dəfə yüksəkdir. Bu da əhalinin Bakı aqlomerasiyasında sürətlə cəmləşdiyini göstərir.Məsələ bununla da bitmir. Son 10 ildə ölkədə tələbə sayı 161,2 mindən 261,6 minə, yəni 62,3% və ya 100 min artıb. Ali məktəblərin əsas hissəsinin Bakıda yerləşdiyini nəzərə alsaq, bu artımın təxminən 80 min nəfəri Bakının payına düşür. Bununla yanaşı, regionlardan təbii miqrasiya, remiqrasiya, təhsil üçün gəlib, tələbəlikdən sonra Bakıda qalanlar və son illərdə tələbələrin ardınca ailələrin də Bakıya köçməsi halının artması əhalinin paytaxtda cəmləşməsini artırıb. Bu proseslər üzrə dəqiq statistika olmasa da, şagird sayı əsasında aparılan proporsional hesablama Bakı və Abşeronda faktiki əhalinin 4 milyona yaxın ola biləcəyini göstərir. Üstəlik, Sumqayıtdan hər gün işləmək və təhsil üçün Bakıya gələnlər də şəhərin nəqliyyat və infrastrukturundan istifadə edir. Yəni Bakının gündəlik əhali yükü burada faktiki yaşayanların sayından da yüksəkdir.Digər problem əhalinin məhdud ərazidə cəmləşməsidir.

Bakının inzibati ərazisi 2,2 min kv. km olsa da, sıx məskunlaşma daha kiçik ərazidə və əsas nəqliyyat dəhlizləri boyunca formalaşıb. Bu isə yüksək əhali yükünün nəqliyyat sisteminə təsirini daha da artırır. O ki, qaldı, problemin həllinə, bununla bağlı fikirlərimi əvvəlki publik çıxışlarımda və yazılarımda dəfələrlə bildirmişəm. Bakının tıxac probleminin həlli Bakıda deyil. Bu yazıda məqsədim problemin sadə olmadığını, daha mürəkkəb demoqrafik və urbanizasiya amilləri ilə formalaşdığını rəqəmlər əsasında göstərmək idi.Təklif edirəm ki, hökumət mobil operatorların anonimləşdirilmiş və aqreqasiya olunmuş məlumatları əsasında Bakı və ətrafında faktiki yaşayan əhalinin sayını dəqiqliyə yaxın müəyyənləşdirsin. Bu məlumat ictimaiyyətə açıqlanmasa belə, regional inkişaf proqramlarının hazırlanması və şəhər infrastrukturunun düzgün planlaşdırılması baxımından olduqca vacib datadır".

**Vasif ƏLİHÜSEYN**

# «Tramp İranı boğmaq üçün sanksiyaları sərtləşdirir»

**"ABŞ-nin İranı iqtisadi cəhətdən tamamilə təcrid etməyə yönəlmiş siyasəti səbəbindən Orta Asiya ölkələri çətin bir dilemma ilə üzləşirlər: ya Vaşinqtonun təzyiqi altında Tehranla ticarət və logistika əlaqələrini kəsməli, ya da ikinci dərəcəli sanksiyalarla üzləşməlidirlər".**



Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib.

"24 avqustda ABŞ Maliyyə Naziri Skott Bessent İrana qarşı "İqtisadi Bir Yaramaz Əməliyyat"ın başladığını elan etdi. Bu kampaniyanın məqsədi İranın qonşu ölkələr də daxil olmaqla, iqtisadi, ticarət və maliyyə əlaqələrinin kəsilməsidir. ABŞ hazırda bu siyasətin bir hissəsi olaraq İran aviaşirkətlərinə sanksiyalar tətbiq edib və 23 sentyabrdan etibarən İran aviaşirkətlərinə xidmət göstərən aviaşirkətlərin, bankların və yerüstü xidmət şirkətlərinin dollar hesabları dondurulacaq. 9 sentyabrda ABŞ Dövlət Katibi Marko Rubio Amerika səfirliklərinə bir neçə xarici hökumətə İranla ticarətin dərhal dayandırılmasını, onunla əlaqəli şirkətlərin müəyyən edilməsini və ABŞ-ın məlumatına görə, İslam İnqilabı Keşikçiləri Korpusu (İİKK) ilə əlaqəli olan İran bankları Melli və Saderatın bütün filiallarının bağlanmasını tələb edən rəsmi məktublar göndərməyi tapşırıb. Qanunu pozanlar ikinci dərəcəli sanksiyalarla və dollar sistemindən ayrılmaqla hədələnirlər. ABŞ-nin Əbu-Dabi, Məsqət, Honkonq, Doha, London, Berlin və bir neçə Orta Asiya paytaxtındakı səfirliklərinə xüsusi təlimatlar verilib. Türkiyə və Azərbaycan İran aviaşirkətlərinə tətbiq edilən sanksiyalara qoşulub.İranın ABŞ sanksiyalarına adekvat cavab vermək şansı yoxdur", - deyə o, bildirib.

**Sübhan**

## "Boşalan kəndlərimizə qayıdış proqramı lazımdır"

**"Sərhəd kəndlərimiz məskunlaşmanı ən yüksək səviyyədə qoruyub saxlamılıyıq. Bakının əhalisinin dəqiq monitorinqlərini aparın, onun çox mühüm hissəsi kirayələrdə yaşayan, xüsusilə, kənd rayonlarından gələn insanlardır. O deməkdir ki, Bakıda tunellərə, yol qovşaqlarına, mənzil bazarına, əmək bazarına edilən basqını artırırıq və hökumət büdcə maliyyələşməsində paytaxtı öndə tutduğu halda, sanki daxili miqrasiyanı da maliyyələşdirmiş olur".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin İnsan hüquqları komitəsinin iclasında komitə sədri Zahid Oruc deyib. Komitə sədri bunun sadə olmadığını, amma buna cəhd etməyin 5-7 il sonra nəticələrini verəcək:

"Biz həmişə bunu söyləyirik ki, elektrik enerjisinin tarifini üç dəfə azaldacaqsan. Kənddə qaz mövcuddursa, onu üç dəfə azaldacaqsan. Bu, büdcə üçün böyük bir itki yaratmır, əksinə Bakıda tunelə və yaxud da o əhalinin məskunluğuna çəkilən xərclər bundan bir neçə dəfə artıqdır. İpotekanı bölgələrdə verəcəksən, emal müəssisələrinə sıfır vergi siyasəti aparacaqsan, müəllimlərin, həkimlərin ödənişlərini bir neçə əmsal artıq verəcəksən. Vətəndaş kənddə yaşamağın üstünlüyünü, cazibəsini hiss edəcək, bu dünyada keçirilmiş yoldur. Əgər poçtu, tibb məntəqəsini bağlayırıqsa, məktəb də bu gedişatla bağlanmaq vəziyyətində qalırsa, o halda kəndin özünün varlığı sual altına düşür. Bizim boşalan kəndlərimizə qayıdış proqramı lazımdır. Həqiqətən insanlar o bölgələrdə yaşasınlar və ekoloji təmiz məhsul istehsal olunsun. Kəndə gedəndə kəndli insanı görəsən, kənd turizmi inkişaf etsin".

## "Bu, qeyri-neft sektorunun inkişafına xüsusi töhvə verəcək"

**"Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən dağmədən və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramına həsr olunmuş müşavirədə qeyri neft-qaz sektorunun əsas prioritet sahələri üzrə vacib hədəflər qeyd olundu. Azad edilmiş ərazilərdə qızıl, mis, molibden yataqlarının istismara hazırlanması ilə bağlı konkret mexanizmlərin tətbiq olunması mədənçıxarma sənayesinin ishtehsal həcmini daha da artıracaq".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

O, bildirib ki, Dövlət Proqramının qəbul olunması ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun inkişafına xüsusi töhvə verəcək:

"Proqramın icrası nəticəsində 5 mindən çox yeni iş yerlərinin yaradılması nəzərdə tutulur. Bu isə məşğulluğa xüsusi töhvə deməkdir. Yeni iş yerlərinin əksəriyyəti bölgələrimizin payına düşəcək. Mədənçıxarma sənayesində istehsal həcmi ilə bağlı göstəricilərə gəldikdə isə, 2025-ci ildə sözügedən sektorda 37 milyard manatlıq məhsul ishtehsal olunub. Azalma tendensiyası isə xam neft və qaz üzrə qeydə alınıb. Belə ki, bu sektor üzrə ishtehsal 2025-ci ildə əvvəlki ilə nisbətən 38.2 milyard manatdan 33.3 milyard manatadək azalıb".

V.Bayramov metal filizlərinin hasilatının isə ötən il 2 dəfə artdığını bildirib: "2024-cü ildə 383 milyon manatlıq metal filizləri hasil edilmişdirsə, bu göstərici 2025-ci ildə 730 milyon manatadək yüksəlib. Mədənçıxarma sənayesi sahəsinə göstərilən xidmətlərin həcmi 2025-ci ildə artaraq 2.7 milyard manata çatıb. 2024-cü ildə bu göstərici 2.5 milyard manat idi.Dövlət Proqramının icrasının bu sahə üzrə göstəriciləri əhəmiyyətli dərəcədə dəyişəcəyi gözlənilir. Belə ki, yeni Proqam nəticəsində illik 1 milyard manatdan çox əlavə dəyərin yaradılması proqnozlaşdırılır".

## Ukraynada seçki skandalı

**Ukraynanın sabiq müdafiə naziri Mixail Fedorov iyun ayında ölkə prezidenti Volodimir Zelenskiyə seçkilərin keçirilməsini təklif etdiyini, lakin dövlət başçısının keçmiş baş komandan Valeri Zalujnının namizəd olacağı qorxusu ilə bundan imtina etdiyini bildirib.**

Adalet.az xəbər verir ki, sabiq nazir bu barədə "Ukrayinska pravda" nəşrinə verdiyi müsahibəsində deyib.

"Hələ iyun ayında mən seçkilərin keçirilməsini təklif etmişdim. Zelenski əvvəlcə razı idi, lakin Zalujnının da seçkilərə qatılacağını bildikdən sonra fikrindən daşındı", - deyə Fedorov vurğulayıb.

Qeyd edək ki, avqustun 23-də Volodimir Zelenski hazırkı şəraitdə Ukraynada seçkilərin keçirilməsinin ölkənin dağılmasına gətirib çıxara biləcəyini bəyan etmişdi. Avqustun 19-da isə Fedorov ölkədə idarəetmə sistemində dərin böhranın olduğunu bildirərək prezident seçkilərinin keçirilməsinə çağırış etmişdi. Sabiq rəsmi diqqətə çatdırmışdı ki, hakimiyyət özünə deyil, xalqa xidmət etmək üçün mövcuddur və demokratik prosesin bərpası üçün dövlətə təcili seçki kampaniyası lazımdır.

Xatırladaq ki, Zelenskinin prezidentlik səlahiyyətlərinin müddəti 2024-cü il mayın 20-də başa çatıb. Ukraynada növbəti prezident seçkiləri həmin ilin martın 31-də keçirilməli olsa da, təxirə salınmışdı. Ukrayna rəhbərliyi buna səbəb kimi ölkədə qüvvədə olan hərbi vəziyyəti və ümumi səfərbərliyi göstərmişdi.



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Əvvəl düşünürdüm bitib bu kitab

## Gördüm ki, çox mövzu yarımçıq qalıb...

**Bütün hallarda insanı yönəldən, onun məramını, məqsədini diri tutan, ayaqda saxlayan daxili inamdı, yəni Ümiddi. Bu mənada səninlə üz-üzə dayanan, səni bərkə-boşa çəkən, bəzən haqlı, bəzən haqsız qınayan hər kəsin içində həmin o Ümid onun öz istəyinə, öz daxili aurasına görə formalaşır. Yəni kim necədirsə, əxlaqı, dünyagörüşü, mənəviyyatı hansı nüanslarla cilalanıbsa elə Ümidi də ona bab gəlir, onun oxşarı, lap bir az da kobud desəm tayı olur. Çox təəssüf ki, bəzən bu ölçülər bir-birinə elə sarmaşıq kimi sarılır ki, dayanıb təəccüb etməkdən, təəssüf etməkdən başqa əlindən heç nə gəlmir. Deməli, Allahın yaratdığı bəndə özünün içində yaratdığı ilə bir harmoniya təşkil edir və sonda da əlini dizinə çırpıb gileylənməyə üzü də qalmır. Nə isə...**

Gerçək olan budur ki, normal, müsbət auralı Allah bəndəsi hər yerdə və hər zaman işıq kimi, nur kimi görünür, duyulur, hiss edilir. Ona görə də həmin adamların alnı qırışanda, gözlərinə bulud gələndə çevrədəkilər dərhal duyurlar, hiss edirlər. Ona təsəlli verməyə can atırlar. Hətta yol göstərib məsləhətlərini də əsirgəmirlər. Burda da bir səbəb var. O da həmin insanın haqq etdiyi və Allahın da ona mükafat olaraq alın yazısında işarələdiyi işıq olmaq qismətidi. Məhz həmin o qismət onun Ümidə doğru gedən yoluna da işıq salır. Nəticədə tarazlıq yaranır. ,.

Mən bu fikirləri bilgisayara bir az qarmaqarışıq, xaotik şəkildə diktə elədim. Çünki yazımı başqa aurada yazmağa köklənmişdim özümü. Lakin bir an içimdə elə bilgisayar yazarının özünün də əhvalında qanqaraçılıq yarandı. Necə deyərlər, bir milçək bir könül bulandırdı. Nəticədə fikir haçalandı. Sözlər pərən-pərən düşdü. Elə o zaman kəsiyində dilimin ucundan "nə isə"... fikiri uçub getdi. Demək səbrimi cilovlamaq, sözümün əvvəlinə qayıtmaq üçün bir pauza etmək istəyi özünü büruzə verdi. Mən də həmin istəkdən sonra yenidən qayıtdım fikirlərimin başlanğıcına...

Bu, bir həqiqətdir ki, insan ümidlə yaşayır. Ona görə də min illərin bir deyimi hər zaman təkrarlanır. O fikiri kimin ifadə etdiyini, kimin ilk dəfə dediyini bilmirəm. Amma bu gün bildiyim odur ki, "Sonuncu ölən ümiddi!".

Bax, elə mənim də istəyim, məramım, lap açığı can atdığım həmin o pir bildiyim, and yeri bildiyim Ümid yeridi, Ümid evidi, Ümid ocağıdı. Bütün varlığımla o yerə, o evə, o ocağa pərvanəyəm. Bilirəm ki, qanadları güclü, qaməti şax olan sevginin Ümidi də dəyanətlidi, güclüdü və o, insanın ruhunu da, ürəyini də özü ilə çəkib aparır, götürüb gedir öz evinə, öz yerinə, öz ocağına.

Bax, bu məqamda özün də hiss etmədən bütün yaşantılarını gözünün önündən keçirirsən. Ağrıların da, intihar cəhdini da, sevindiyin məqamı da, hətta gördüyün yuxunu da təkrar çözürsən. Düşünürsən ki, bütün bunlar sənin Ümidlə arandakı məsafəni qısaldacaq. Sənin dözümün, inadın, Ümidin əlini sənə tərəf bir az da uzadacaq. Nəhayətdə sən rolunu tamaşaçısız oynayan aktyor kimi çətin duruma düşməyəcəksən. Sənin tamaşaçın Ümid olacaq...səni səsləyən Ümid.

Bəli, heç bir alqışa ehtiyac duymasan da, gerçəklik özü səni o alqışlara bükəcək, kipriklərini yaşa bükdüyü kimi, yanaqlarını təbəssümə bükdüyü kimi. Bir də görəcəksən ki, sənin dünyan öz rəngarəngliyi ilə, öz istisi ilə nə qədər doğmadı və sənin dünyanda sənin qonağın da, sığındığın da, oxşadığın, baxışlarınla öpdüyün o varlıq həm də sənin Ümidindi. Sən onun külək dağıdan saçını küləyin əlindən almaq üçün az qala təbiətə, yəni küləyə üsyan etməyə də hazır olursan. İstəmirsən ki, sənin baxışından, sənin nəfəsindən başqa ona toxunan, onu seyr edən, onu oxşayan başqa bir nəfəs, başqa bir nəsə olsun. Bu, nə qısqanclıqdı, nə xudbəsənlik, nə də özündən razılıq. Bu heç bədgümanlıq da deyil. Yəni Ümidə güvənin, inamın yerdən göyə qədərdir.

Onun barəsində yalnız yaxşı, gözəl nə varsa onları düşünüb və onları Ümidə aid edirsən. Ancaq nə edəsən ki, bir aşiq dəliliyi də var. Bax, küləklə vuruşmaq istəyən də, gözləri ilə saçını sığallayan da, baxışları ilə üz-gözündən öpən də həmin o dəli aşiqdi. Deməli, bu dəliliyi də hər gün alovlandıran, onu hər gün yenidən dünyaya gətirən, mənim inancıma və məntiqimə görə təbii ki, Ümiddi. Deyə bilərsiniz ki, Ümid elə belə yaranmır. Onu kimsə nə iləsə, necəsə ortaya qoyur, ona stimul verir. Müəyyən mənada sizinlə razıyam. Çünki hətta qarşılıqsız sevgi də ümid yaradır. Çünki sevdiyin var. Onun yerişi, duruşu, varlığı, lap deyək dönüb sənə ötəri baxmağı da Ümiddi. Elə bu qarşılıqlı və qarşılıqsız məqamların bəhrəsi olan Ümid də özü-özlüyündə yeni xəyalların, yeni düşüncələrin, yeni pıçıltıların rüşeyminə çevrilərək həmin o dəli aşiqi yerlə, göylə, dörd divarla, ağacla, güllə, bir sözlə, hamı ilə və hər kəs ilə elə özünü özünlə də həmsöhbət edir. O məqama, o ana qədər ki, sən Ümid qığılcımı görürsən və onda:

*Bir ocaq közərir, bir tüstü qalxır*
*Köklənib diqqətim baş verənlərə...*
*Ürəyim susaraq kənardan baxır -*
*Qəmin divarına, daş verənlərə!..*

*Titrədir ruhumu həzin bir avaz,*
*Gözümün kökündə sular lillənir...*
*Kədərim dərindi, ümidim dayaz -*
*Dilim tərpənməmiş ağrı dillənir...*

*Baxıb, vərəq- vərəq yaddaş dəftərin,*
*Kiprik ucu ilə sığallayıram...*
*Üzümə oxunan ömrün səhflərin-*
*Qəbul eləmirəm - cığallayıram...*

*Nədənsə bənzətdim dar ağacına -*
*Közərən ocağın tüstü dirəyin....*
*Səni and verirəm, gülüm, saçına -*
*Ovut, səni sevən şair ürəyin!*

İnsanın iç dünyasının bir istəyi də olub həmişə. Bu istək isə umacaq deyil, tələb deyil... Sadəcə bir ülfət, bir səmimiyyət, bir diqqət, lap elə bir iynə ucu boyda təbəssümdü.

Bunu ona görə xüsusi vurğulayıram ki, dünyada elə adam yoxdur ki, onun ovunmağa, onun təsəlliyə ehtiyacı olmasın. Şəxsən mən az qala bütün gecə və gündüzü həmin o məni ovudacaq anı gözləyirəm, arzulayıram. Ona ehtiyacımı gizlədə bilmirəm.

Çünki ovunanda hiss edirəm ki, yaşamaq həvəsim, yaşamaq istəyim Ümidə çevrilir, olan Ümidimi artırır. Deməli, məni ovudacaq həmin o nəsnə, yəni söz, hərəkət, kimlər üçünsə mənasız, gərəksiz ola bilər. Heç ağıllarının ucundan da gəlib keçməz. Mən səsini eşidəndə, addımlarının yaratdığı səsi duyanda, baxışını görəndə, lap elə şəkilinlə göz-gözə gələndə ovunuram. Həmin an mənə elə gəlir ki, o səsi də sən özün göndərdin, o şəkildə də mənimlə birbaşa danışdın. Özünəməxsus addım səsinlə özün içimdən, ürəyimdən, olduğun məkandan gəlib getdin. Və bütün bunları ona görə etdin ki, ayaqda qalım, yıxılmayım. Məncə bu, xoşbəxtlik dərmanıdı. Məncə bu xilaskarlıq missiyasıdı.

Mən bütün bu dediklərimə və verilən qiymətlərə baxmayaraq, hər kəsin bildiyi kimi , yalnız Allahdan və Səndən yazıram. Və yalnız Allahın və Sənin mənim həyatımda Ümid olmanızı təkrar-təkrar vurğuladığımı bilənlər bilir, bilməyənlərin də nə zamansa biləcəyinə şübhəm yoxdur. Ən azından ona görə ki, istəyimin adı Ümidli Sevgidi. Həmin sevgi ovutmağa da, yaşatmağa da qadirdi. Yəqin ki, bununla bağlı kimsə mübahisə etməyəcək. Çünki hər kəsin qəlbində öz sevgisi, öz ümidi var və mən də hər kəsə öz sevgisi, öz Ümidi ilə baş-başa qalmağı, əl-ələ tutub könülləri rahat olan, ruhları sevinən Ümid evinə doğru yol getməyi arzu edirəm. Və nəhayət:

*Gecikdim bu axşam, deyəsən bir az*
*Bəlkə də yubandım, ya da ləngidim...*
*Amma düşünməki edib sənə naz -*
*Dalğalı dəniz tək indi səngidim!..*

*Fikrim də, ruhum da həmişəki tək,*
*Qoşa izimizlə gəzib bu gün də!..*
*Yaddaşında canlat - xəlvət şəklin çək -*
*Məni o şəkildə göstər bu gündə!*

*Bir az da yorulmuş, bir az da küsgün -*
*Üzünə təbəssüm mehi dəyməyən...*
*Sənin dediyin tək, şükürsüz, üzgün -*
*Elə həmənkiyəm - özün təkləyən!..*

*Tanrı sərhəddin də aşıbdı sevgim-*
*Çünki inadım da ölçüsüz olub.!*
*Düşünmə, mən dünən səni az sevdim -*
*Bu gün Yer kürəsi sevgimlə dolub!*

Və bir məqamıda xatırladım ki, zaman keçdikcə, yaşananları təkrar -təkrar çözəndə adam hiss edir, daha doğrusu açıq-aydın dərk edir ki , hələ görüləsi nə qədər işlər onu gözləyir!!! Və bir özü-özü üçün pışıldayır , yox bəyan edir:

*Qağayı səsidi, bir də ləpələr*
*Qoşulur arada bu həzinliyə...*
*Xəyalım sahildə girib qoluna -*
*Səninlə çıxıbdı, bu gəzintiyə!..*

*Çəkir diqqətimi uzaq bir nöqtə*
*Kim isə oturub daşın üstündə....*
*Onun kimliyini bilənə qədər -*
*Sol əlim qalacaq qaşın üstündə!..*

*Çatacaq hayıma yaddaş Xızır tək -*
*Səni görəcəyəm həmin o yerdə...*
*Elə çırpınacaq sevincdən ürək -*
*Onu yazmaq olmur üç bənd şeirdə!*

*... Sahildə yaşanan xatirə- həyat*
*Məni bu günümün əlindən alıb...*
*Əvvəl düşünürdüm bitib bu kitab -*
*Gördüm ki, çox mövzu yarımçıq qalıb*

Hə, mən yazımın sonuna gəlib çıxana qədər yəqin ki, sizlərə nə demək istədiyimi çatdıra bildim. Və çatdıra bilmədiklərimin də fərqinə vardım. Amma gəlin birlikdə etiraf edək ki, mən Sevgidən və Ümiddən yazdım. İstədim ki, gözümün önündə olan və ürəyimdə yaşayan, ruhumda mənimlə hər yeri dolaşan O mənə ÜMİD olduğunu bilsin!..

## "Qafqazda qədim olan nə varsa, hamısı bizimdir"



**"Bakıdakı xarici diplomatların Qarabağ bölgəsinə səfəri, Alban taeixi abidələri ilə tanışlıqları, xüsusən Hikmət Hacıyevin bu abidələr və ümumən ermənilərin tarixi saxtalaşdıran "kitablar"ı nümayiş etdirməsi Ermənistan mediasında və sosial şəbəkələrində yeni "vətənpərvərlik" dalğası yaradıb. Yazılan hər statusda bir isterika, "biz qədimik" şüarı var. Tarixi saxtakarlığın və böyük yalanın əsiri olan bu bu adamlar Azərbaycan ərazisindəki alban-xristian abidələrinin XIX əsrdən başlayaraq rusların köməyi ilə Erməni kilsəsi tərəfindən "özəlləşdirildiyini" qəbul etmək istəmirlər".**

Adalet.az xəbər verir ki, bunu professor Qulu Məhərrəmli deyib.

"Halbuki Qarabağın xristian əhalisinin avtoxton alban mənşəli olması haqqında erməni tədqiqatçılarının özləri də yazıb. Bundan başqa hələ XVIII əsrə aid "Alban ölkəsinin qısa tarixi" əsərində Gəncəsər alban katolikosu Yesai Həsən Cəlal Eçmiədzinin alban inancını, mədəniyyətini və torpaqlarını mənimsəmək üçün davamlı cəhdlərinə birbaşa işarələr edir. Gəncəsərdəki əsas yazıya əsasən, XIII əsr alban hökmdarı Həsən Cəlal Dövlənin titulu "atabəy" kimi göstərilmişdir ki, bu da digər faktlarla yanaşı, onun türk köklərindən olmasından xəbər verir. Yazılarda əyanların adları çəkilir: Ulubəy, Mina Xatun, Mama Xatun, Vəlican, Əmirhəsən, Atabəy, Qocubəy, Canıbəy, Cəlalbəy, Aruz və s. Bu yazılarda heç bir erməni adı yoxdur. Amma nə olsun!? Yalanların və qədimlik mərəzinin qurbanı olan ermənilər dirəşib ki, Qafqazda qədim olan nə varsa, hamısı bizimdir", - deyə o, bildirib.

## Daimi pul çatışmazlığının beyin üçün təhlükəsi sübut edildi



**Daimi maliyyə çətinlikləri beyin sağlamlığına mənfi təsir göstərə və onun qocalmasını sürətləndirə bilər.**

Adalet.az-ın məlumatına görə, britaniyalı alimlər təxminən 3000 nəfərin məlumatlarını təhlil etdikdən sonra bu məyusedici nəticəyə gəliblər. Tədqiqatçılar həyatları boyu maliyyə çatışmazlığı yaşayan və əsas ehtiyaclarını ödəyə bilməyən insanların 50 yaşından sonra idrak geriləməsi göstərmə ehtimalının daha yüksək olduğunu aşkar ediblər. Həmçinin, qocalıqda beyin atrofiyası əlamətləri göstərmə ehtimalı daha yüksəkdir. Bu təsir xüsusilə kişilər, aşağı gəlirli ailələrdə böyüyən insanlar və Alzheimer xəstəliyinin inkişaf riskinin artması ilə əlaqəli olan APOE-?4 geninin daşıyıcıları arasında nəzərə çarpır. Ekspertlərin fikrincə, uzunmüddətli yoxsulluq 53 yaşa qədər yaddaşın azalması ilə birbaşa əlaqəlidir.

Bundan əlavə, neyrogörüntüləmə nəticələri göstərib ki, aşağı gəlir yaşla əlaqəli atrofiyanın əlaməti olan beyin mədəciklərinin həcminin artması ilə əlaqələndirilir.

Bu maraqlı tədqiqatın müəllifləri hesab edirlər ki, iş illərində maddi çətinlik çəkən insanlara dəstək olmaq demensiya və digər yaşla əlaqəli beyin xəstəliklərinin qarşısının alınması üçün bir tədbir ola bilər.

### *Tıxacda avtomobillərin üstündən keçə bilən cip*

**Tıxaclar sürücülük zamanı baş verə biləcək ən qıcıqlandırıcı şeylərdən biri olaraq qalır. Lakin, bu problemdən sürücüləri xilas edəcək bir avtomobil var.**

Adalet.az bildirir ki, tıxacda olan avtomobillərin hərəkət edəcəyini gözləmək əvəzinə, sadəcə onların "üstündən keçə" bilərsiniz. Bu məqsədlə, Jeep Grand Cherokee əsasında hazırlanmış Hum Rider SUV 2017-ci ildə yaradılıb.

Avtomobil hidravlik asqıya malikdir və bu asqı avtomobili təxminən 2,7 metr hündürlüyə qaldırır və eyni zamanda təkər bazasının genişləndirilməsinə imkan verir.



Maraqlıdır ki, Hum Rider 2017-ci ildə Verizon-un Hum connected avtomobil xidməti üçün reklam çarxı vasitəsi kimi yaradılıb.

Bir düyməyə basıldıqda, "Jeep Grand Cherokee"nin altından hidravlik qollar uzanır, təkərləri bir-birindən aralayır və kuzovu havaya qaldırır. Bu, nəqliyyat vasitəsinin tıxacda qalmış bir çox nəqliyyat vasitəsinin qarşısına keçməyə imkan verir. Normal konfiqurasiyasında Hum Rider təkər bazası və yerdən təmizlənməni azaldır. Bu sistem 90 metrdən çox hidravlik xətlərlə təchiz olunub və Honda benzin generatoru hidravlik nasosları işlətmək üçün lazım olan enerjini təmin edir.

Modifikasiyalar həmçinin avtomobilin çəkisini təxminən 3850 kiloqrama qədər artırır ki, bu da standart "Jeep Grand Cherokee" nin çəkisindən ikiqat çoxdur. Nəqliyyat vasitəsi hidravlik sistem tərəfindən yaradılan əlavə çəkiyə və qeyri-adi yüklərə tab gətirmək üçün ağır yük maşını təkərləri ilə təchiz olunub.

Bundan əlavə, modifikasiyadan sonra bir problem yaranıb: sürücü sadəcə pəncərədən aşağıda nə baş verdiyini görə bilmir. Bu problemi həll etmək üçün avtomobilin altına dörd kamera quraşdırılıb. Bu kameralar görüntüləri kabindəki ekranlara ötürür və sürücünün ətrafı izləməsinə imkan verir. Lakin, Hum Rider seriyalı avtomobil kimi hazırlanmayıb. Bu, bir avtomobildir.

---

**Oruc QULİYEV**



# "SÖZÜN SƏSİ" - SÖZÜN, MUSİQİNİN VƏ KİNO SƏNƏTİNİN VƏHDƏTİ

## *Zəka Vilayətoğlunun yaradıcılıq dünyasından yeni ekran əsəri*

**Azərbaycan sənət mühitində ədəbi söz, musiqi və kino yaradıcılığını özündə birləşdirən sənətkarlar xüsusi maraq doğurur. Şair, yazıçı, bəstəkar, müğənni, ssenarist və aktyor kimi fəaliyyət göstərən Zəka Vilayətoğlu da yaradıcılığını müxtəlif sənət sahələrinin qovuşuğunda inkişaf etdirən sənətkarlardandır. Onun yaradıcılıq yolu ədəbiyyatdan musiqiyə, musiqidən isə kino sənətinə uzanan ardıcıl və axtarışlarla zəngin bir istiqamət təşkil edir.**

Zəka Vilayətoğlunun kino yaradıcılığında mühüm yer tutan "SÖZÜN SƏSİ" filmi şair Səməndər Nəsirovun ömür və sənət yoluna həsr olunmuş bədii-sənədli və musiqili ekran əsəridir. Filmin ərsəyə gəlməsi yalnız bir sənətkarın həyatının ekrana gətirilməsi deyil, həm də poeziyanın, bəstənin və ifanın vahid kino dili ilə təqdim olunması baxımından diqqətəlayiq yaradıcılıq təşəbbüsüdür.

"SÖZÜN SƏSİ" adının özündə filmin əsas ideya istiqaməti duyulur. Söz burada yalnız yazılı mətn deyil, insan duyğularını, həyat təcrübəsini və sənət düşüncəsini ifadə edən mənəvi qüvvədir. Musiqi isə həmin sözün emosional dərinliyini tamamlayan, onu tamaşaçıya daha təsirli şəkildə çatdıran sənət vasitəsidir.

Filmin mərkəzində şair Səməndər Nəsirovun yaradıcılıq irsi dayanır. Onun şeirlərinin musiqi ilə əlaqələndirilməsi ekran əsərinə həm poetik, həm də musiqili xarakter qazandırır. Bu baxımdan film tamaşaçıya yalnız bioqrafik məlumatlar təqdim etmir, həm də şairin sənət dünyasına musiqi və kino vasitəsilə yaxınlaşmaq imkanı yaradır.

Zəka Vilayətoğlunun bəstəkar və ifaçı kimi təcrübəsi bu layihənin musiqi qatında xüsusi əhəmiyyət daşıyır. Şair sözünün melodiyaya çevrilməsi, ifa ilə canlandırılması və görüntü ilə tamamlanması müxtəlif yaradıcılıq sahələrinin bir araya gəlməsini tələb edir. "SÖZÜN SƏSİ" bu sintezin nümunəsi kimi təqdim olunur.

Filmin yaradıcı heyətində ssenari müəllifi və rəhbər kimi Zəka Vilayətoğlu, rejissor Əliağa Əliyev, operator Fərmayıl İsmayılov, səs rejissoru və montaj üzrə CavidArifoğlu, prodüser və filmin direktoru kimi isə Zəka Vilayətoğlu çıxış edir. Bu yaradıcı əməkdaşlıq ekran əsərinin ərsəyə gəlməsində müxtəlif peşə sahiblərinin rolunu göstərir.

Zəka Vilayətoğlunun yaradıcılıq dünyasını yalnız bir sənət sahəsi ilə məhdudlaşdırmaq mümkün deyil. O, uzun illərdir ədəbi fəaliyyətlə yanaşı, musiqi və səhnə sənəti ilə də məşğul olur. Şair və yazıçı kimi sözün imkanlarını araşdıran sənətkar bəstəkar və müğənni kimi həmin sözləri musiqi vasitəsilə ifadə edir. Kino isə onun üçün bu yaradıcılıq istiqamətlərini bir araya gətirən daha geniş sənət məkanıdır.Onun ədəbi irsinə "Şah ölüm", "Güllələnmiş qaranlıqlar", "Küsmüş Ay", "Milena" və digər əsərləri daxildir. "Milena" əsərində insan taleyi, sevgi, mənəvi seçimlər və mürəkkəb münasibətlər kimi mövzular ön plana çıxır. Bu cür mövzuların ədəbi müstəvidə işlənməsi Zəka Vilayətoğlunun insan xarakterinə və daxili aləminə marağını göstərən yaradıcılıq istiqamətlərindəndir.

Kino yaradıcılığına keçid də bu ədəbi təcrübədən ayrı deyil. Ssenari yazmaq hadisələri, obrazları və ideyaları görüntü vasitəsilə ifadə etməyi tələb edir. Yazıçı üçün bu, sözün yeni bir sənət formasında davam etdirilməsidir. Zəka Vilayətoğlunun ssenarist kimi fəaliyyəti onun ədəbi düşüncəsini ekran dilinə uyğunlaşdırmaq cəhdi kimi qiymətləndirilə bilər. Zəka Vilayətoğlunun kino yaradıcılığında "ŞAH ÖLÜM" filmi xüsusi yer tutur. 2025-ci ildə istehsal olunan bu tarixi-bədii-sənədli ekran əsəri Gədəbəyin tanınmış tarixi şəxsiyyəti Məcid ağa Şəkibəyovun həyat yoluna həsr edilib.




Filmin ssenari müəllifi və baş rol ifaçısı Zəka Vilayətoğludur. O, Məcid ağa obrazını canlandırmaqla yalnız ssenari müəllifi kimi deyil, aktyor kimi də layihənin əsas yaradıcı simalarından birinə çevrilib. Ekran əsərində Əjdər Zeynalov, Elçin İmanov, Hüseyn Nurillahi, Anar Hüseynli və digər aktyorlar da rol alıblar.

"ŞAH ÖLÜM" filminin mövzusu tarixi yaddaş, mərdlik, ləyaqət və insanın öz taleyi qarşısında seçimi kimi məsələlərlə bağlıdır. Məcid ağanın həyatının ekranlaşdırılması vasitəsilə Gədəbəyin və bütövlükdə Azərbaycanın tarixi-mənəvi mühitinə diqqət yönəldilir.

Filmin Mədəniyyət Nazirliyində qeydə alınaraq, Filmlərin Dövlət reyestrinə salınması, "Park Cinema" kinoteatrlar şəbəkəsində nümayiş olunması müstəqil film istehsalçısının öz əsərini geniş tamaşaçı auditoriyasına təqdim etmək imkanını nümayiş etdirdi. Ekran əsərinin kinoteatr repertuarında 14 gün nümayiş olunması barədə məlumat da mətbuatda dərc edilib.

"ŞAH ÖLÜM" Zəka Vilayətoğlunun kino sahəsindəki fəaliyyətinin mühüm mərhələsi olmaqla yanaşı, onun tarixi mövzulara, milli yaddaşa və insan xarakterinə olan marağını da əks etdirir.

Zəka Vilayətoğlunun sənət fəaliyyətində diqqət çəkən məqamlardan biri müxtəlif yaradıcı vəzifələri bir arada yerinə yetirməsidir. Ssenarist olaraq hadisələrin dramaturji quruluşunu formalaşdırır, bəstəkar kimi musiqi yaradır, müğənni kimi həmin musiqini səsləndirir, aktyor kimi isə obrazın daxili dünyasını ekranda canlandırır.

Bu sahələrin hər biri fərqli peşə vərdişləri tələb edir. Ssenari müəllifi hadisələrin məntiqini və obrazların inkişafını düşünür. Bəstəkar sözün musiqi ilə necə ifadə olunacağınımüəyyənləşdirir. Aktyor isə obrazın duyğularını mimika, səs, davranış və hərəkət vasitəsilə tamaşaçıya çatdırır.

Zəka Vilayətoğlunun yaradıcılığında bu istiqamətlərin paralel inkişafı onun sənət dünyasının çoxşaxəli xarakterini göstərir. "ŞAH ÖLÜM" filmində aktyor və ssenari müəllifi kimi fəaliyyəti, "SÖZÜN SƏSİ" layihəsində isə söz, musiqi və kino əlaqəsinə yönəlməsi bu yaradıcılıq bütövlüyünün fərqli nümunələridir.

Onun bəstəkarlıq fəaliyyətində Azərbaycan poeziyasının musiqi ilə əlaqələndirilməsi mühüm yer tutur. Şairlərin sözlərinə yazılan mahnılar, romantik və vətənpərvər mövzulu əsərlər, səhnə ifaları və musiqi layihələri bu istiqamətin müxtəlif təzahürləridir. Zəka Vilayətoğlu həm öz ifaları, həm də bəstələri ilə musiqi yaradıcılığını davam etdirir. Zəka Vilayətoğlunun kino fəaliyyətinin təşkilati və istehsal bazasını "ZVS" PRODAKŞN təşkil edir. 2025-ci ildə yaradılan bu müstəqil film istehsalı istiqaməti onun kino layihələrinin həyata keçirilməsində mühüm rol oynayır.

"ZVS" PRODAKŞN-ın fəaliyyəti müstəqil kino istehsalının imkanlarını nümayiş etdirən nümunələrdən biri kimi diqqət çəkir. Belə istehsal qurumları yaradıcı ideyanın formalaşdırılmasından tutmuş çəkiliş, montaj və tamaşaçıya təqdimat mərhələsinə qədər müxtəlif prosesləri bir araya gətirir. Zəka Vilayətoğlunun rəhbərliyi ilə həyata keçirilən film layihələri arasında "ŞAH ÖLÜM" və "SÖZÜN SƏSİ" xüsusi yer tutur. Bu ekran əsərləri mövzu və janr baxımından fərqlənsə də, hər ikisində milli-mənəvi dəyərlərə, insan taleyinə və sənətin ifadə imkanlarına maraq müşahidə olunur.

"ZVS" PRODAKŞN-ın qarşısında duran əsas istiqamətlərdən biri yeni film layihələrinin hazırlanması, müstəqil kino istehsalının inkişaf etdirilməsi və fərqli mövzuların ekran vasitəsilə tamaşaçıya çatdırılmasıdır. Bu fəaliyyət Zəka Vilayətoğlunun yaradıcılıq planlarının davamlı xarakter daşıdığını göstərir.

Zəka Vilayətoğlunun kino yaradıcılığında maraq doğuran növbəti layihələrdən biri "MİLENA" filmidir. Eyni adlı ədəbi əsərə bağlı olan bu layihə psixoloji-fəlsəfi melodram istiqamətində hazırlanır.

"MİLENA"nın mövzusu insan münasibətləri, sevgi, zaman, yaddaş və daxili mənəvi axtarışlar kimi məsələlərlə əlaqələnir. Bu cür mövzuların kino dili ilə işlənməsi həm ssenari, həm aktyor oyunu, həm də rejissor yanaşması baxımından xüsusi yaradıcılıq tələb edir.

Filmin ərsəyə gəlməsi Zəka Vilayətoğlunun ədəbi yaradıcılıq təcrübəsi ilə kino sahəsindəki fəaliyyətinin daha bir qovuşma nöqtəsi olacaq. Tamaşaçılar üçün "MİLENA"nın maraqlı cəhətlərindən biri də onun müəllifin insan taleyinə və mənəvi münasibətlərə yanaşmasını ekranda necə təqdim edəcəyidir.

Azərbaycan tamaşaçısı yeni ekran əsərlərinə həmişə maraq göstərir. Zəka Vilayətoğlunun yaradıcılıq yolunu izləyənlər isə "MİLENA" filmini səbirsizliklə gözləyirlər. Ümid edirik ki, bu layihə də öz mövzusu, obrazları və sənət dili ilə tamaşaçıda maraqlı təəssüratlar yaradacaq.

Zəka Vilayətoğlunun yaradıcılıq fəaliyyəti ədəbiyyat, musiqi və kinonun qarşılıqlı əlaqəsi üzərində inkişaf edir. Onun ssenarist, bəstəkar, müğənni və aktyor kimi fəaliyyəti müxtəlif sənət sahələrini bir araya gətirir. "ZVS" PRODAKŞN isə bu yaradıcılıq istiqamətlərinin kino istehsalı müstəvisində davam etdirilməsinə şərait yaradır.

"SÖZÜN SƏSİ" filmi şair Səməndər Nəsirovun sənət dünyasını musiqi və görüntü ilə tamaşaçıya çatdıran ekran əsəri kimi bu yolun mühüm dayanacaqlarından biridir. "ŞAH ÖLÜM" tarixi mövzusu ilə diqqət çəkirsə, "MİLENA" insanın daxili aləminə və mənəvi münasibətlərinə yönələn yeni kino axtarışlarını təmsil edir.

Sənət yolunda əsas olan yaradıcılığın davamlılığı, yeni mövzulara müraciət və tamaşaçı ilə əlaqə qurmaqdır. Zəka Vilayətoğlunun müxtəlif sahələrdəki fəaliyyəti bu axtarışların davam etdiyini göstərir.

Azərbaycan kinosunda yeni müstəqil layihələrin ərsəyə gəlməsi sənət mühitinin zənginləşməsinə töhfə verir. "ZVS" PRODAKŞN-ın istehsal etdiyi və hazırladığı filmlər də bu prosesin bir hissəsi kimi maraq doğurur.

"SÖZÜN SƏSİ" filminin tamaşaçılarla görüşü, Zəka Vilayətoğlunun yaradıcılıq yolunun təqdimatı və "MİLENA" layihəsinin gözləntisi bir daha göstərir ki, kino sənətində sözün, musiqinin və insan hekayəsinin özünəməxsus yeri var.

**2026-cı ildə istehsal olunan, Mədəniyyət Nazirliyində qeydiyyata alınaraq yayım vəsiqəsi qazanan və Filmlərin Dövlət Reyestrinə salınan, "PARK CİNEMA" kinoteatrlar şəbəkəsində uğurla nümayiş olunan və nəhayət Dünya TV vasitəsi ilə yayımlanan (15.09.2026) "SÖZÜN SƏSİ" filmi - sözün yaddaşdan ekrana, poeziyadan musiqiyə, musiqidən tamaşaçı qəlbinə uzanan sənət yoludur.**

# YAŞAYAN ƏFSANƏ

**Mən Şəhidəm!**
**Ölməmişəm!**
**Şəhidlər ölməzdir axı!..**

Sizə qəhrəmanlığı əfsanəyə çevirənlərdən, ölümü ilə ölməz olanlardan,

Vətənin əbədi sevgisində, tarixin Şərəf səhifəsində heykəlləşənlərdən danışacam.

Sizə öz müqəddəs qanları ilə torpağını suvaranlardan, son nəfəsi ilə Zəfərimizə imza atanlardan, Anaların ağ saçıda ilğıma dönən, Ataların ürəyində düyünə dönən Şəhid ömürlərindən danışacam.

Sizə Məğlubedilməz Azərbaycan Ordusunun Əsanəvi Kəşfiyyatçısı, torpaq sevgili Bayraq sevdalı, Vətən Fədayisi "Azərbaycan Aslanı" (R.T.Ərdoğan), Kəşfiyyatın Mixayilosu -Mühid Orucovdan danışacam.

Bəşər tarixinin 1984-cü il astanasında Qazax Mahalının bənövşəlinərgizli Fərəhli kəndində Orucovlar ailəsində bir körpə dünyaya göz açdı.Gözaydınlığı verənlər, muştuluq alanlar saya-hesaba gəlmədi. Dünyaya oğul gəlmişdi axı! Gəlmişdi ki, ataya-anaya oğul olsun, Torpağa məlhəm olsun,Vətəninə gərək olsun, dayaq olsun.

Mühüd bu dünyaya qəhrəman olmağa gəlmişdi. Mən Türkəm deməyə gəlmişdi.Türkün məğlubedilməzliyini göstərməyə gəlmişdi.

Mühüd elə bir torpaqda dünyaya göz açmışdı ki, hər daşı, hər qayası bir igid səngəri,bir qəhrəman oylağı olmuşdu. Qazax mahalı dünyanın hərb tarixinə kimləri bəxş etmişdi:

Azərbaycanın ilk hərbi təyyarəçisi - Fərrux ağa Qayıbov- Qazaxın qəhrəmanlıq qalasından 1-ci dünya müharibəsinə uçuş etmiş Zabit, "Artilleriya Allahı" adlandırılan Əliağa Şıxlinski, Azərbaycanın ilk Generalları-Vəkilovlar, El arasında mərdlikləri kişilikləri ilə dastana çevrilən İsrafil ağalar ,Qaçaq Kərəmlər və daha kimlər, kimlər. Qazax mahalının fəxarətləri. Bu qəhrəmanların hamısı gələcəkdə Mühüdün idealına çevriləcəkdi.

Mənim Qəhrəmanımın səfalı Fərəhli kəndi erməni kəndləri ilə qonşu idi.Mühüd dünyaya gələndə hər şey zahirən yaxşı idi. Onda sakitlik idi. Hələ bənövşələr, nərgizlər atəş səsindən diksinmirdilər. Mənim Qəhrəmanım əzəmətli Göyəzənin, Odun dağının ətəyində, yurd sevgisi ilə torpaq laylası ilə böyüyürdü. O vaxtacan ki, mənfur düşmənimiz torpaq idiasına düşdü.

Birinci Qarabağ savaşı başladı.

Beləcə Mühüdün uşaqlıq illəri barıt qoxulu oldu. O, sönən ümidlərin, donan arzuların şahidi oldu.Şəhid analarının naləsini, fəryadını duydu,məcburi qaçqın-köçkün harayını eşitdi.Mühüdün uşaqlıq illəri beləcə göz yaşları içində keçdi. Qarabağ savaşı isə təkcə Qarabağda getmirdi. Bədxah erməni yalquzaq kimi qəflətən qonşularına hücüm edirdi. Fərəhli kəndi də erməni basqınlarına məruz qalan kəndlərdən biri idi. Qəhrəmanım ermənilərin törətdiyi ən dəhşətli faciələrdən biri olan Bağanıs Ayrım faciəsini də uşaqkən yaşamışdı. Cammatla birlikdə hönkürərək ağlamışdı: Beşikdəki, korpəni necə öldürə bilərlər? İnsanları diri-diri ot tayasında necə yandıra bilərlər, axı??? Bütün bu suallar onun körpə qəlbini sıxırdı, parçalayırdı. Elə həmin andan Mühüdün balaca yumruğu düyünlənmişdi və anda çevrilmişdi. Hələ dəhşəti ilə yer üzünü titrədən, Azərbaycan xalqını göz yaşında boğan Xocalı faciəsini ermənilər törədən zaman qəhrəmanımın cəmi səkkiz yaşı var idi.O,körpəcə qəlbində ağladı, zalımlara üsyan etdi: Bizdən nə istəyirlər axı! Bu nida onun ürəyində özünə yuva saldı.

Mühüdün qəlbinə sancılan oxlardan biri də, həmin il Novruz tonqallarının qalanmaması oldu. Faciə içində Novruzu necə qeyd etmək olardı ki...

İgidimin qəlbinin atəşini Fərəhli kəndinin ilk Şəhidlərindən olan Kamran Kərimovun şəhadətə qovuşması daha da alovlandırdı. Hələ qonşu kəndlərdən gələn Şəhid xəbərləri onun qəlbində tufana çevrilirdi. Kövrələ-kövrələ öz özünə söz verdi:" Bu günləri unutmayacam torpağımı qoruyacam, məzarımı Vətənimə səngər edəcəm!"

Elə həmin istək, yurd sevgisi, qəhrəmanlıq amalı onu Cəmşid Naxçivanski adına Hərbi Litseyə gətirdi.Daha sonra Ali Hərbi məktəbi bitirərək Mühüd Vətənin Zabiti-Əsgəri oldu. Və onun neçə illər öncə sıxdığı yumruq- İntiqam düyünüuğurla həyata keçirdiyi hərbi əməliyyatlarda açılırdı. Bu səssiz Qəhrəman əvvəlcə kəşfiyyat bölüyünün Tağım Komandiri, daha sonra XTQdə Kəşfiyyat Tabor Kamandiri olur. Mühüd iştirak etdiyi bütün əməliyyatlarda savaşlarda, qorxmazlığı, cəsurluğu, igidliyi ilə fəqlənirdi. O, ölümün gözünə dik baxmağı bacaran bir döyüşçü idi.Əsgərlərinə sücayəti ilə ilə ruh verərək, həmişə öndə özü gedirdi. Onunla əməliyyata getməyi hər bir əsgər arzulayırmış. Qəhrəmanımın qorxmazlığına, cəsurluğuna, hərbi məntiqinə, döyüş taktikasına görə silahdaşları onu Mixayilo adlandırırlar.




Mixayilo ermənilərə ölüm saçan bir vahiməyə çevrilir.Kəşfiyyatda canlı əfsanəyə dönür.

Gerçəklikdən, igidlikdən yoğrulan bir Əfsanə!

Mühüdün qəhrəmanlıq ömrünə şərəflə yazılmış bir tarix: 2014-ci il Avqustun 1-dən 2-sinə keçən gecə erməni xüsusi təyinatlıları Azərbaycanın yaşayayış məntəqələrini artilleriya atəşinə tutur. Düşmən susdurulmalı idi. Mənim qəhrəmanım döyüşə atılır. Əfsanəyə bənzəyən igidliklər göstərir. Düşmən susdurulur. Göstərdiyi igidliyə görə, düşmənə, sarsıdıcı zərbə vurduğuna görə Mühüd Orucovu şəxsən Cənab Prezident -İlham Əliyev mükafatlandırır. Cəngavərimin qəhrəmanıq səhifəsində daha bir parlaq gün: Türkiyədə kursda olarkən onların təlim məşqlərini Türk dünyasının Sultanı R.T.Ərdoğan izləyib. Mühüdün heyratəmiz çıxışlarını dəyərləndirərək onu "Azərbaycan Aslanı" adlandırır.

"Azərbaycan Aslanı" haqqında ehtiyyatda olan Polkovnik, Qarabağ Fatehi, 44 günlük müharibədə özünün dəstixətti olan Zəfər tariximizə Qəhrəmanlığı ilə imza atan Eldəniz Namazov deyir: "Mühüd Qəhrəmanlığın adı, igidliyin səssiz, amma sarıdıcı nümunəsidir. O, ölümün üstünə addımladı ki, Vətən yaşasın. Cəsarəti döyüş meydanında tarix yazdı, Şücayəti torpağa can verdi."

Bəli! Mühüdlər torpağa can verib, Torpağı Vətən etdilər.

Mühüdün insanlığı, vicdanı, mərhəməti rütbəsindən böyük idi. Döyüş yoldaşı Sərxan Məmmədov deyir:" Bütün əməliyyatlarda, vuruşlarda Mühüd öndə gedirdi.O, bizə qorxmazlığı ilə ruh verirdi."Tarixin 2016-cı il 3 aprel atasanası- Qəhrəmanımın Azərbaycanın hərb tarixinə öz qanı ilə tarix yazdığı gün, Vətən bayrağına sarıldığı gün və yüksək Məqama-Şəhadətə qovuşduğu gün! Anasının ümidlərinin, arzularının söndüyü gün"

Yox, yox ...Komandir ölə bilməz... yəqin yenə düşmən arxasına sızıb... qayıdacaq...hökmən qayıdacaq! Hər kəsin qəlbindən bu nidalar keçirdi: Kaş ki, belə olaydı... Mühid isə Talış yüksəkliyi uğrunda gedən döyüşdə Qəhrəmancasına Şəhid oldu. Düşmən Mühüdün ölüsünə belə yaxın gedə bilmirdi. Düşünürdülər ki, Mixayilo onlara aldadıcı həmlə edər.Aprelin 8-də Mühüdün nəşi götürülür.

9 aprel 2016-cı il ! Mixayilonun "Azərbaycan Aslanının" Kəşfiyyatın Əfsanəsinin izdihamı.Vətənin dağ vüqarlı oğlunun doğma Fərəhli kəndində əzəmətli vida mərasimi ...

...Minlərlə insan axını... hər kəs ağlayırdı... acısını laylaya çevirirdi, anda çevirirdi.

Şəhid Anar Nağıyev:" Mən Mühüdün -Komandirin qisasını almayınca ölməyəcəm söyləmişdi və o anı gözləmişdi ki, Mixyilonun qisasını alsın. Nəhayət 44 günlük müharibədə Anar son damla qanınadək vuruşur və Mühüdün qisasını alaraq Şəhid olur.

Dərd-kədər insanı bürüyəndə sazdan-sözdən yapışır. Mən də Səhlədar Hidayətoğlunun bu ölməz Qəhrəmanımıza həsr etdiyi şeirə üz tutdum:

***Hünər dənizinə dalan millətin,***
***Boz Qurdun himnini çalan millətin***
***Mühüd kimi oğlu olan millətin,***
***Torpağı basılmaz, yurdu basılmaz.***

Müqqədəs Şəhidim! Sizin kimi igidlərin, mərdlərin qanı ilə suvarılan torpaq əsla basılmaz! Siz Zəfər Himnimizi yazdınız! Şərəf tariximizə möhr vurdunuz! Torpağı Vətən etdiniz! 44 günlük müharibənin Zəfər meyarı sizin şücayətiniz oldu.

Qarabağda siz də vuruşdunuz! Şuşanın sıldırımından yol açanlar siz idiniz.Şuşanı azad edənlərin yanında idiniz!

Dəmir Yumruqlu Qalib Sərkərdəmiz- İlham Əliyev Şuşada Novruz tonqalı-Qələbə tonqalı alovlandırır. Sizlərdə tonqal ətrafındasız. Axı bu sizin ən böyük arzunuz idi.Arzunuz çin olsun həmişə!Elə bu an bir Şəhid türküsü eşidirəm:

**Mən Şəhidəm!**
**Ölməmişəm!**
**Şəhidlər ölməzdir axı!**
**Bu ölməzlik qarşısında etiramla, böyük məhəbbətlə baş əyirəm.**
**Nur içində yatın, Müqəddəs Şəhidlər!**

**Gülnar Osmanova**
**Qazax rayonu**

---

# Payız gəldi, saçlar tökülməyə başladı

**Payız gələn kimi bir çox insan saç darağında, yastıqda və duşdan sonra əvvəlkindən daha çox saç görməyə başlayır. Bəziləri bunu havaların soyuması, bəziləri isə vitamin çatışmazlığı ilə əlaqələndirir. Bəs həqiqətən payız saç tökülməsini artırırmı?**

Adalet.az xəbər verir ki, elmi araşdırmalar insan saçının böyümə və tökülmə prosesində mövsümi dəyişikliklərin olduğunu göstərir. Saç follikulları il ərzində eyni ritmdə fəaliyyət göstərmir və bəzi dövrlərdə daha çox saç "istirahət" mərhələsinə keçir.

Saçın həyat dövrü əsasən üç mərhələdən ibarətdir: böyümə, keçid və istirahət. İstirahət mərhələsi başa çatdıqda saç tökülür və follikul yeni saçın böyüməsinə hazırlaşır.

1991-ci ildə aparılan araşdırmada sağlam kişilərin saç dövrü 18 ay ərzində izlənilib. Tədqiqat zamanı saçların böyümə mərhələsində olan follikulların payının sentyabr ayında ən aşağı səviyyəyə düşdüyü, tökülən saçların sayının isə avqust-sentyabr aylarında artdığı müşahidə edilib. Araşdırmada həmin dövrdə gündəlik orta saç tökülməsinin qış ayları ilə müqayisədə iki dəfədən çox olduğu bildirilib.

Daha geniş araşdırmalardan biri isə 823 sağlam qadının altı il ərzində aparılmış trixoqram məlumatlarını əhatə edib. Nəticələrdə saçların "telogen", yəni istirahət mərhələsində olma faizinin yay aylarında yüksəldiyi, daha sonra isə mövsümi tökülmənin artdığı müəyyənləşdirilib. Yaz aylarında da ikinci, lakin daha zəif mövsümi dəyişiklik müşahidə olunub.



Bəs bunun səbəbi nədir?

Mütəxəssislərdən biri olan dermatologiya üzrə ədəbiyyatda mümkün izahlardan biri yay aylarında ultrabənövşəyi şüalara daha çox məruz qalmanın saç follikullarına təsiri və bunun bir neçə ay sonra tökülmə kimi özünü göstərməsidir. Bu mexanizm tam olaraq sübut edilmiş yekun izah kimi qəbul edilmir, lakin mövsümi saç tökülməsinin mümkün səbəblərindən biri kimi araşdırılıb.

Başqa sözlə, sentyabrda gördüyümüz saç tökülməsinin səbəbi mütləq sentyabrda baş verən hadisə olmaya bilər. Saç follikulunun dövrü gecikmə ilə işlədiyindən yay aylarında baş verən dəyişikliklərin təsiri sonrakı aylarda nəzərə çarpa bilər. Amma burada vacib bir məqam var: hər mövsümi saç tökülməsini normal hesab etmək olmaz.

Amerika Dermatologiya Akademiyasına görə, sağlam insanlarda gündə təxminən 50-100 saç telinin tökülməsi normal hesab olunur. Bundan xeyli artıq və davamlı tökülmə isə artıq həddindən artıq saç tökülməsi ola bilər.

Xüsusilə son aylarda yüksək hərarətlə müşayiət olunan xəstəlik, güclü stress, sürətli çəki itkisi, ciddi pəhriz, doğuş və ya əməliyyat kimi hallar yaşanıbsa, saç tökülməsinin səbəbi yalnız mövsüm olmaya bilər. Belə vəziyyətlər "telogen effluvium" adlanan müvəqqəti, diffuz saç tökülməsinə səbəb ola bilər. Dermatoloji mənbələrdə bu vəziyyətin tetikleyici hadisədən bir neçə ay sonra ortaya çıxa bildiyi qeyd olunur.

Qidalanma da burada mühüm rol oynaya bilər. Elmi ədəbiyyatda ciddi zülal çatışmazlığı, kəskin kalori məhdudiyyəti və bəzi qida çatışmazlıqları ilə telogen effluvium arasında əlaqə göstərilib. Buna görə saç tökülməsini görən kimi özbaşına vitamin və mineral qəbul etmək əvəzinə səbəbin müəyyənləşdirilməsi daha məqsədəuyğundur.

Saç tökülməsinin başqa səbəbləri də ola bilər. Məsələn, irsi tipli saç seyrəlməsi, qalxanabənzər vəzlə bağlı problemlər, bəzi dərmanlar, dəmir ehtiyatlarının azalması, autoimmun xəstəliklər və digər dermatoloji vəziyyətlər saç tökülməsinə səbəb ola bilər. Diffuz saç tökülməsində əsas səbəbi müəyyənləşdirmək üçün həkim anamnezə və lazım gəldikdə müayinələrə baxır. Maraqlısı isə odur ki, saç tökülməsi ilə bağlı narahatlıq insanın psixoloji vəziyyətinə də təsir edə bilər. Buna görə saçın daraqda əvvəlkindən çox görünməsi avtomatik olaraq "keçəlləşirəm" demək deyil. Mövsümi tökülmə ilə davamlı saç itkisini bir-birindən ayırmaq vacibdir.

Əgər saç tökülməsi qısa müddətli və mövsümi xarakterlidirsə, adətən proses zamanla azalır. Amerika Dermatologiya Akademiyası həddindən artıq tökülmənin səbəbi aradan qalxdıqdan sonra saçların əvvəlki sıxlığına qayıtmasının aylar çəkə biləcəyini bildirir.

**Ona görə də payızda saç darağında bir qədər artıq saç görmək dərhal panikaya səbəb olmamalıdır. Ancaq tökülmə nəzərəçarpacaq dərəcədə artıbsa, uzun müddət davam edirsə, saçın müəyyən nahiyələrində seyrəlmə və ya keçəlləşmə ocaqları yaranırsa, baş dərisində qaşınma, ağrı və ya qabıqlanma varsa, bunu sadəcə "payız tökülməsi" kimi qiymətləndirmək düzgün deyil. Belə hallarda dermatoloq müayinəsi vacibdir.**



**Sevil AZADQIZI**
**Ədəbi təhlil-tənqidçi**

# DÖRD ŞEİR BARƏDƏ BƏDİİ ŞƏRH

**Əbülfət Mədətoğlunun "ÜRƏYİM"-inin YOZUMU**

***Bir az ağıl dəlisidi,***
***Bir az nağıl dəlisidi...***
***Öz- özünün zəlisidi -***
***Ürəyim!***
***Bir az gecə ovqatlıdı***
***Bir az sabah sovqatlıdı***
***Göydən uca - on qatlıdı -***
***Ürəyim!***
***Bir az gülüş istəklidi***
***Bir az kədər dəstəklidi ...***
***Böyük sevgi məsləklidi-***
***Ürəyim!***
***Bir az Allah ətəyində,***
***Bir az ümid pətəyində...***
***Vurur, bir qız ürəyində -***
***Ürəyim***

**Şeirin bədii təhlili:**

Əbülfət Mədətoğlunun "Ürəyim" şeiri, lirik qəhrəmanın öz daxili dünyası, hissləri və mənəvi təlatümləri ilə baş-başa qaldığı, səmimiyyəti ilə seçilən bədii bir etirafdır.

Müəllif bu əsərdə ürəyi sadəcə bir insan orqanı kimi deyil, hisslərin, ziddiyyətlərin və ilahi sevginin kəsişmə nöqtəsi kimi təsvir edir. Şeirin əsas mövzusu insanın daxili dünyası və duyğularının mürəkkəbliyidir. İdeya isə ürəyin hər cür çətinliyə, kədərə və ziddiyyətə rəğmən, yaşamaq gücünü məhz sevgidən və ümiddən alması fikridir. Müəllif göstərir ki, ürək həm real dünyadan (ağıldan), həm də xəyallardan (nağıllardan) bəhrələnən canlı bir aləmdir.

Şeirin bədii təsir gücünü artıran ən mühüm məqam təzadlar üzərində qurulmasıdır. Müəllif insanın daxili aləmindəki ziddiyyətləri paralel şəkildə təqdim edir: "Bir az ağıl dəlisidi, Bir az nağıl dəlisidi..." - Burada realizmlə (ağıl) romantizm (nağıl) qarşı-qarşıya qoyulur. Ürək həm həyatın real qanunlarına tabedir, həm də nağıllara inanacaq qədər uşaq saflığındadır. "Bir az gülüş istəklidi, Bir az kədər dəstəklidi..." - Sevinc və kədərin ürəkdə eyni anda mövcudluğu, insanın emosional zənginliyini göstərir. Müəllif şeirin emosional yükünü artırmaq üçün orijinal metafora və epitetlərdən istifadə etmişdir: "Öz-özünün zəlisidi" ifadəsi ürəyin özünü bitirən, öz hissləri ilə özünü yeyib-bitirən bir varlıq olduğunu bədii şəkildə ifadə edir. "Ümid pətəyi" və "Allah ətəyi" metaforaları mənəvi saflığı və inamı simvolizə edir. Gecə ovqatlıdı", "sabah sovqatlıdı", "böyük sevgi məsləklidi" kimi ifadələr şeirə bənzərsiz lirik boyalar qatır.

Ürəyin gah qaranlığa (gecəyə) bürünməsi, gah da gələcəyə (sabaha) ümidlə baxması bu bədii təyinlərlə canlandırılır. "Göydən uca - on qatlıdı" misrasında ürəyin mənəvi aləminin, duyğularının miqyası kainat qədər böyüdülür.

Şeir dördlük şəklində, heca vəznində yazılmışdır. Hər bəndin sonunda təkrar olunan "Ürəyim!" nidası əsərdə nəqarət funksiyasını yerinə yetirir. Bu təkrar şeirə daxili bir ritm və musiqililik bəxş edir. Oxucunun diqqətini daim ana obyektə (ürəyə) yönəldir. Hər bənddə açılan fərqli emosional qatları vahid bir mərkəzdə birləşdirir.

Şeirin son bəndi əsərin ideya tamamlanmasıdır: "Bir az Allah ətəyində, Bir az ümid pətəyində... Vurur, bir qız ürəyində Ürəyim!" Müəllif sonluqda ürəyi ilahi məqama (Allah ətəyinə) ucaldır, onu ümidlə bəsləyir və ən nəhayət, onun əsl yaşamaq səbəbini tapır: Sevgi. Lirik qəhrəmanın ürəyinin "bir qız ürəyində vurması" onun fədakarlığını, öz eqosundan keçib başqa bir varlıqda yox olmaq, onunla bütövləşmək bacarığını nümayiş etdirir. Əsər saf, ülvi və bəşəri bir məhəbbətin təsdiqi ilə yekunlaşır.

**"Duyğu qığılcımları"-nın eşidilməyən səsi**

***Səslərin içindəki***
***Səssizliyi duyuram...***
***Sən olan hər yerdəki -***
***Mənsizliyi duyuram...***

***Bu bir günün əsili***
***Bir tərəfi kəsili...***
***Göndərdiyin şəkili -***
***Üzü üstə qoyuram...***

***Etirafın yeridi -***
***Ruhum bir az kür idi...***
***Ürəyimdən ümidi -***
***Çıqqım, çıqqım soyuram...***

***Kirimir, hər gün ahım***
***Yerdən göyə günahım***
***Bu gecəm, bu sabahım***
***Təkliyimdən doyuram!***

**Şeirin bədii təhlili:**

Əbülfət Mədətoğlunun "Duyğu qığılcımları" silsiləsindən olan bu şeirinin əsas mövzusu həsrət, tənhalıq və reallaşmayan ümidlərdir. Müəllif ilk misralardan etibarən ziddiyyətli tapıntılarla oxucunu cəlb edir.

"Səslərin içindəki səssizlik" və "Sən olan hər yerdəki mənsizlik" ifadələri sadəcə fiziki yoxluğu deyil, mənəvi boşluğu vizuallaşdırır. İnsan izdihamın, səslərin içində də tənha ola bilər və lirik qəhrəman məhz bu mənəvi tənhalığın fəlsəfəsini açır. Şeirin ideyası insanın tale ilə barışmaq məcburiyyəti, sevgidən doğan ağrını etiraf etmək cəsarətidir.

Göndərilən şəklin üzüüstə qoyulması vizual bir imtina, lakin eyni zamanda unuda bilməməyin gətirdiyi çarəsiz bir müdafiə reaksiyasıdır. Əsər qısa, çevik və olduqca dinamik misralardan qurulub. Şair duyğularını ağır fəlsəfi cümlələrlə deyil, xalq dilinə yaxın, lakonik bədii vasitələrlə ötürür: Ürəyimdən ümidi çıqqım-çıqqım soyuram" misrası poeziyamız üçün olduqca orijinal və güclü bir bədii tapıntıdır. Ümidin "soyulması" (tədricən, qat-qat yox edilməsi) ağrının zamana yayılmasını və qəhrəmanın daxilən necə tükəndiyini göstərir. "Kür ruh" ifadəsi qəhrəmanın vaxtilə çılğın, itaət etməyən, barışmaz olduğunu, lakin bu ayrılıq qarşısında tabe olduğunu xarakterizə edir.

"Bu gecəm, bu sabahım", "yerdən göyə" kimi ifadələr zaman və məkan daxilində lirik qəhrəmanı mühasirəyə alan sonsuz təkliyin miqyasını böyüdür. Şeir 7 hecalı (bəzi misralarda heca sayında sərbəstlik və intonasiya vurğusu ön plandadır) və daxili qafiyələrlə zəngin bir quruluşa malikdir. Ritmdəki qırıqlıq lirik qəhrəmanın hıçqırıqlarını və daxili həyəcanını imitasiya edir.

Müəllifin "çıqqım-çıqqım" (az-az, zərrə-zərrə) və "kirimir" (sakitləşmir, susmur) kimi sırf canlı xalq dilinə məxsus ifadələrdən istifadə etməsi şeirə xüsusi bir səmimiyyət və xəlqilik qatır. Bu, süni poetiklikdən uzaq, yaşanmış hisslərin dilidir.

Şeirin sonluğu bir növ daxili üsyandır. " Təkliyimdən doyuram!" nidası həm bezginliyi, həm də artıq bu aqibəti tamamilə qəbul edib içində əritməyi ifadə edən güclü bir akkorddur. Əbülfət Mədətoğlu



bu kiçikhəcmli şeirdə minimal sözlə maksimal hissi ifadə etməyə nail olmuşdur. Əsər ayrılığın insan psixologiyasında buraxdığı dərin izləri poetik şəkildə arxivləşdirən uğurlu bir bədii nümunədir.

**"Görmədiyim yuxular"-ının YOZUMU**

***Mənim yaşadıqlarım***
***Sehirli yuxulardı ...***
***Başdan başladıqlarım-***
***Elə bu yuxulardı!***

***Arı küsməz pətəkdən***
***Nigaranam vətəkdən!***
***Əlim qopsa ətəkdən-***
***Sol yanım , yıxılardı!***

***Mən sözdən söz dərəndə***
***Misra, misra hörəndə!***
***Gözündə şeh görəndə -***
***Ürəyim sıxılardı!***

***Nə qaldı yazmadığın,***
***Oxuyub pozmadığın ?!.***
***Bəxtində yozmadığın -***
***Mənim tək yuxu vardı...***

**Şeirin bədii təhlili:**

Əbülfət Mədətoğlunun "Görmədiyim yuxular" şeiri insanın daxili aləmini, vətən sevgisini və tale axtarışlarını lirik bir dillə ifadə edən professional bir sənət nümunəsidir.

Şeirin əsas mövzusu insanın keçmişi, taleyi və yaradıcılıq ağrılarıdır. Müəllif real həyatla xəyallar (yuxular) arasında bir körpü qurur. Onun üçün yaşanmış hər bir an həm sehrli bir yuxu, həm də həyata yenidən başlamaq üçün bir ümiddir. Şeirdə eyni zamanda gizli bir vətən və torpaq nisgili, insani bağlılıq duyğusu hakimdir.

"Sehrli yuxular" insanın ümidlərini və təmiz duyğularını simvolizə edir. "Arı küsməz pətəkdən, nigaranam vətəkdən" misralarında xalq yaradıcılığından gələn bir bağlılıq, kökə və yurda sadiqlik gizlənib. buradakı "vətək" (arı pətəyinin içi, doğma yer) bədbinlikdən uzaq, narahat bir sevginin ifadəsidir.

Şairin "sol yanım yıxılardı" deməsi insanın mənəvi dayaqlarını itirmək qorxusunu göstərir. Sözdən misra hörmək isə yaradıcılıq prosesinin çətinliyini və şairin bu prosesə verdiyi yüksək dəyəri bədii şəkildə vurğulayır. Lirik qəhrəman həssas, hər bir kədərə qarşı kövrək ("Gözündə şeh görəndə, ürəyim sıxılardı") və taleyin yazdıqları ilə barışmağa çalışan bir insandır.

Şeir heca vəznində, axıcı və xalq dilinə yaxın bir üslubda yazılmışdır. Qafiyə sistemi və ritm daxili musiqini gücləndirir. "Yuxu" obrazı həm şeirin əvvəlində, həm də sonunda bir yaradaraq bəxtin və taleyin bitməyən bir sirri kimi oxucuya çatdırılır.

**"Güvəndiyim vurdu məni" şeirinə TƏNQİDÇİ BAXIŞI**

*Ümidliydim ümidlərim çiçəklər*
*Ümidsizlik ümidimi qaraltdı...*
*Mən ümidlə göyərtdiyim diləklər-*
*Ümidsizlik sizi sıxtı, saraltdı...*

*Həm gecəni, həm gündüzü tən tutdum*
*Hətta qəmi , iki əlli - şən tutdum!*
*Ömrüm boyu, göz yaşından dən tutdum -*
*O da mənə bu səhranı yaratdı!..*

*Əlim cibdə kasıblıqdan donanda*
*Tumurcuqlar, kipriyimə qonanda...*
*Hamı mənə daş atanda- son anda -*
*Gülü mənə, gülə gülə , yar atdı!*

*Ahı hördüm ötən çənə, buluda*
*İstədim ki, nəm yanağı quruda!*
*Ay Əbülfət, iş ki qaldı umuda -*
*Umud özü ,iç dünyamı daraltdı!*

**Şeirin bədii təhlili:**

Əbülfət Mədətoğlunun bu şeiri insanın daxili sarsıntılarını, ümidin çiçəkləyib sonradan ümidsizliyə çevrilməsini və ən güvəndiyi kəsdən aldığı mənəvi zərbəni əks etdirir.

Əsərdə qəm ilə şənin, ümid ilə xəyanətin təzadı güclü metaforalar və obrazlı dillə verilir, xüsusən də ən ağır məqamda yaxının atdığı gülün daşdan daha çox incitməsi ironik və faciəvi bir ovqat yaradır. Əbülfət Mədətoğlunun bu poetik nümunəsi insanın daxili aləminin, ümidlərinin qırılmasının və ən yaxınından gələn mənəvi zərbənin dərin psixoloji mənzərəsini yaradır.

Şeir həm fəlsəfi tutumu, həm də emosional təsir gücü ilə seçilir. Şeirin ana xəttini inandığı dəyərlərdən məhrum olmaq və mənəvi tənhalıq təşkil edir. Müəllif ömrü boyu bəslədiyi ümidlərin necə puç olduğunu poetik şəkildə ifadə edir. Burada "ümid" sadəcə bir məfhum deyil, insanın yaşamaq, mübarizə aparmaq gücüdür. Lirik qəhrəmanın ən böyük faciəsi odur ki, onu yıxan kənar qüvvələr yox, daxilən güvəndiyi və sığındığı duyğuların özüdür ("Umud özü, iç dünyamı daraltdı!").

Şair hisslərin gərginliyini oxucuya çatdırmaq üçün zəngin bədii vasitələrdən və təzadlardan məharətlə istifadə edib: "Qəm" və "Şən" təzadı: "Həm gecəni, həm gündüzü tən tutdum, Hətta qəmi, iki əlli - şən tutdum!" misralarında qəhrəmanın taleyin çətinliklərinə qarşı göstərdiyi dözüm, acını belə şadlıq kimi qəbul etmək fədakarlığı görünür.

Ümidlərin "çiçəkləməsi" və ümidsizliyin onları "saraltması", göz yaşlarının "dən" (toxum) olub bir "səhra" yaratması insanın daxili quraqlığını və mənəvi boşluğunu vizuallaşdırır. "Daş" və "Gül" simvolizmi: Şeirin ən pik nöqtəsi "Hamı mənə daş atanda - son anda - Gülü mənə, gülə-gülə, yar atdı!" hissəsidir. Burada yadların atdığı daş yox, doğmanın (yarın) ironiya ilə atdığı gül lirik qəhrəmanı yaralayır. Gül sevdiyindən gəldiyi üçün daşdan daha ağır zərbəyə çevrilir.

Lirik qəhrəman taleyin ağır sınaqlarından, maddi və mənəvi yoxsulluqdan ("kasıblıqdan donanda") keçib. O, kənardan gələn hər cür çətinliyə tab gətirə bilir. Lakin ən çətin anda güvəndiyi insanın laqeydliyi və ya gizli xəyanəti onun daxili dünyasını darmadağın edir.

Şair özünə müraciətlə ("Ay Əbülfət...") yekun vuraraq göstərir ki, son ümid yeri də tükənəndə insanın iç dünyası daralır və dözülməz olur. Şeir klassik aşıq və xalq yaradıcılığı ənənələrinə uyğun olaraq heca vəznində yazılıb. Dili olduqca axıcı, səmimi və xalq ifadələrinə yaxındır ("iki əlli tutmaq", "əlim cibdə donmaq").

Qafiyə quruluşu və daxili ritm **oxucunu yormur, əksinə, misralardakı kədəri və musiqililiyi ön plana çıxarır. Mətndəki "gülə-gülə" və "gülü" sözlərinin eyni misrada işlədilməsi emosional effekti daha da gücləndirir. Bu şeir sadəcə fərdi bir şikayət deyil, insanın güvən axtarışının, xəyanətlə qarşılaşdığı an yaşadığı mənəvi böhranın ümumiləşdirilmiş poetik ifadəsidir.**

# QIRILMIŞ GÜVƏN



Səlbi BAXIŞ

Hekayə

Bəzi hekayələr var ki, onu ucadan danışmaq olmur. Onlar sakitcə yaşanır, sakitcə bitir və ən dərin izləri də səssizcə qoyur. Bu hekayə də sadə bir mesajla başladı. "Vaxtın olan kimi mənə zəng et, sənə vacib sözüm var".

İlhamə ilə Sevda yaxın rəfiqə idilər. Demək olardı ki, günləri bir-birinə qarışmışdı-səhərlər zəngləşib hal-əhval tutar, axşamlar uzun-uzadı söhbət edərdilər. Bir gün İlhamə Sevdaya mesaj yazır: "Əzizim, vaxtın olan kimi məni yığ. Sənə vacib sözüm var". Sevda şəhərdən evə gələn kimi çantasından telefonu çıxardıb açdı. Gördü ki, rəfiqəsindən ona mesaj gəlib.

Dərhal rəfiqəsinə zəng etdi:

-Salam, hər vaxtın xeyirli olsun. Eşidirəm səni. Nə olub?

-Xeyirdi, bacı. Səninlə birlikdə şəkil çəkdirmişdim ha.. o gün parkda. Həmin şəkili statusumda paylaşmışdım.

-Hə, nə olsun ki, nə olub? - deyə Sevda bir az həyacanlı soruşdu.

-Ay qız, bir imkan ver sözümü bitirim. Bir dəfə sən dedin ki, qonşumuzun oğlunun toyunda bir müğənni var idi gözəl oxuyurdu. Sənə demişdim ki, o müğənni bizim qohumdu. İndi həmin qohumumuz var ha.. statusda sənin şəkilini görüb mənə zəng edib səni soruşdu. Dedi :" sən onu hardan tanıyırsan" Dedim ki, yaxın rəfiqəmdi. Sonra dedi ki: "o qızı mən çoxdan sevirəm. Amma bilmirdim ki, necə yaxınlaşım. Allah göydən səni mənə yetirdi. O qızın dərdindən mən lap dəliyə dönmüşəm." Dedim o hara, sən hara. Dəlisən. Aranızda da yaş fərqiniz var. Dedi: "nə yaş İlhamə. Sevgi yaşa baxmır. Onsuz mənim həyatım zindana dönüb"

-Yox, yox, ay bacı, elə şey mümkün deyil. Ola bilməz. Mənlik deyil, - Qəti fikrini bildirdi Sevda.

-Ay bacı, mən səni başa düşürəm. Amma onun danışığından hiss etdim ki, səni yaman sevir. Düzü əvvəl elə bildim başqasını deyir. Sonra səni deyəndə mən də təəcübləndim vallah.

-Yox, bacı, mənlik deyil. Mən onu bircə dəfə görmüşəm. O da ki, o toyda. Bir, iki mahnı oxuyub getdi. Mən onunla tanış deyiləm. İlk dəfə orada görmüşəm, vəssalam. O hara, mən hara, bu söhbəti bağla.

-Yaxşı, bacı. Onun dediyini dedim sənə.

Aradan bir neçə gün keçəndən sonra İlhamə yenə Sevdaya zəng etdi:

-Alo, bacı, necəsən? Haralardasan? Niyə bir zəng etmirsən? Yoxsa məndən incimisən?

-Yox, ay bacı. Niyə inciyim?

-Dedim, bəlkə o günkü sözə görə məndən inciyərsən.

-Yox, yox, burda sənlik bir iş yoxdur.

-Ay bacı, o, yenə zəng etmişdi. Əl çəkmir. Deyir onsuz ölürəm. O, mənim ürəyimdi, nəfəsimdi. Onsuz dözə bilmirəm. Onu ağlımdan heç cürə çıxarda bilmirəm.

-Ay bacı, mən o adama inanmıram. O, məni harda gördü, harda vuruldu. Mən heç onunla heç yerdə rastlaşmamışam.

-Bacı, deyir ki, mən onu çoxdan izləyirəm fb - dan. Şəkilini gördüyüm gündən bütün iradəmi əlimdən alıb. Gecəm-gündüzüm bir - birinə qarışıb. Amma ona necə ürəyimi açacağımı bilmirdim. Sən dedin ha, toyda görmüşəm onu. Gəldi bir, iki mahnı oxuyub getdi.Bax onda sənə görə gəlibmiş o toya. Səni görsün deyə.

Sevda bir anlıq susdu. Sanki eşitdiklərinə imanmaq istəmirdi. Ürəyində qəribə bir narahatçılıq yarandı.

-Mənə görə? - deyə asta səslə soruşdu. Yəni o adam məni görmək üçün toya gəlib?

-Hə, bacı. Elə özü dedi. Deyir ki, onu bir dəfə yaxından görüm, sonra nə olursa olsun.

Sevda dərin nəfəs aldı. Əlində telefon pəncərəyə yaxınlaşıb çölə baxdı. Hava sakit idi, lakin onun içində tufan qopurdu.

-Bilmirəm, bacı. Bu işdə nəsə qəribəlik var.

Mən belə şeylərə inanmıram.

-Mən də əvvəl inanmadım,-deyə İlhamə sakit səslə dedi. Amma o qədər səmimi danışır ki... ürəyim gəlmir sözlərini yalan sayam.

-Yox, - Sevda qəti səslə dedi:- Mən tanımadığım adama görə həyatımı riskə ata bilmərəm. Sevgi bu qədər asan olmur.

Telefonun o biri başında bir qədər sükut yarandı.

-Bəs... əgər o doğurdan da səni sevirsə?

-deyə İlhamə ehtiyyatla soruşdu.

Sevda gözlərini yumdu. Toydakı o qısa an yadına düşdü. Səhnədə oxuyan o oğlan, səsindəki qəribə kədər, ona zillənən baxışlar. Heç onda Sevda bunların fərqinə varmamışdı. Sakitcə dedi:

-O sadəcə bir hissdir.. keçib gedər.

O gün heç nə hiss etməmişdi. Nə həyacan, nə maraq. Sadəcə adi bir gün idi. Amma, bəzən insan bilmədən öz taleyinə cavab verir. O zəngdən sonra həyatında bir ad peyda oldu. Tanımadığı, görmədiyi, amma qəribə şəkildə həyatının içərisinə daxil olan bir ad...

Amma özü də bilmirdi ki, bu ad iki il davamlı israrla onun qapısını döyəcək. O, isə hər dəfə"yox" deyərək özünü qoruyacaq.

Günlər keçirdi. O, isə getmədi. Yazdı, gözlədi, səbir etdi. Hərdən rəfiqəsi yazırdı: -Yenə soruşdu səni. Sevda bezmiş kimi cavab verirdi: -Ay bacı, de ki, əl çəksin. Mənlik deyil.

Bir gün isə naməlum nömrədən Sevdanın telefonuna mesaj gəldi.

-Salam... Necəsiniz?

Sevda bir az tərəddüd etdi, lakin yazdı:

-Kimdi? Tanımadım.

-Siz məni tanımırsız. Amma mən sizi tanıyıram...

Sevdanın qaşları çatıldı:

-Necə yəni tanıyıram?

-Çoxdan tanıyıram.. sadəcə sizə yaxınlaşa bilmirdim. Yaxşı ki, İlhamənin statusunda sənin şəkilini gördüm. İlhamə mənim qohumumdu. Yəqin İlhamə mənim haqqda sənə danışıb.

Sevda əsəbləşdi:

-Baxın, mən belə şeyləri xoşlamıram. Xahiş edirəm bir də mənə yazmayın.

Cavab gecikmədi:

-Son dəfə yazıram... sadəcə bilin ki, sizi həqiqətən sevirəm.

Sevda telefonu kənara qoydu:-Dəli adamdı, - deyə pıçıldadı.

Amma o "son" dəfə olmadı. Günlər sonra yenə yazdı. Hər dəfə də qısa, səmimi cümlələrlə:-Necəsən? -Günün necə keçdi? - Səni narahat etmirəm ki? Sevda çox vaxt cavab vermirdi.

Bir gün İlhamə zəng etdi:

-Salam, bacı, necəsən? Hal-əhval tutandan sonra:- vallah o əl çəkməyəcək, - dedi.

-Çəkməsin, - Sevda sakitcə cavab verdi:-Mən də cavab verməərəm.

İlhamə:

-Amma pis adama oxşamır. Ay qız o səni doğurdan sevir. Hər gün mənim başımı, beynimi xarab edir. Elə deyir:"onunla danış, onu razı sal. Mənə bir şans versin. Danışım onnan" necə edim mən? Adamın ona lap ürəyi də ağrıyır. İnan səni çox sevir. Danışanda, bir sən onu görəsən, necə sevgiylə sənin adını çəkir.

-Mənə fərqi yoxdur. Mən onu tanımıram.

Aradan aylar keçdi. Bir axşam yenə yazdı:

-Sənin səsin necədir, maraqlıdır...

Sevda bu dəfə güldü. İlk dəfə idi ki, mesaj onu əsəbləşdirmədi:

-Səncə necə olar?

-Bilmirəm... Amma gözlərinə baxanda sakit insan kimi görünürsən.

Sevda bir anlıq susdu və:

-Gözlərimi harda görmüsən ki?

-Şəkillərdə...

-Çox baxmısan deməli?

-Hə... bəlkə də yüz dəfə desəm yalan olmaz.

Bu dəfə Sevda telefonu kənara qoymadı. Beləcə aralarında məsafə yavaş-yavaş qısalmağa başladı. Söhbətlər uzandı, cavablar çoxaldı, "yox" lar isə əvvəlki kimi sərt səslənmirdi.

Sevda özü də hiss etmədən onu həyatına bir az yaxın buraxdı. Ürəyində kiçik bir sevginin artıq kök saldığından xəbərsiz idi. Və bir gün ürəyi təslim oldu. O, Sevdanı görüşə çağırdı. Sevda uzun müddət tərəddüd etdi. Getsin, ya yox? Telefonun ekranında onun son mesajı açıq qalmışdı:

-Heç olmasa bir dəfə görüşək. Söz verirəm, sonra səni narahat etməyəcəm.

Sevda dərin nəfəs aldı və qısa yazdı:

-Yaxşı. Amma qısa olacaq.

Cavab dərhal gəldi:

-Mənim üçün bir dəqiqə də kifayətdir.

Görüş yeri sakit bir park idi. Sevda əvvəl gəlmişdi. Ürəyinin döyüntüsünü özü belə eşidirdi. Səbəbini özü də anlamırdı.

Birdən bir səs:

-Salam, - dedi.

Sevda dərhal çevrildi. O, idi. Toyda gördüyü adam. Yaxından baxanda səsində ki kimi üzündə də bir sakitlik var idi.

-Salam, - deyə Sevda qısa cavab verdi. Bir neçə saniyə susdular. O gülümsəyərək:

-Nəhayət...

Sevda qaşlarını çatıb:

-Nəhayət, nə...?

-Sənin gözlərini görmək...

Sevda baxışlarını yayındırdı:

-Mən çox qalmayacam. Sadəcə tanış olmaq üçün gəldim.

-Mənim üçün bu bəsdi.

Onun bu sakit danışığı Sevdanı çaşdırdı. Nə israr edirdi, nə də özünü sıramağa çalışırdı.

Onnan sonra cəmi iki dəfə görüşdülər. İki görüş...ancaq ürək üçün bəzən bu da kifayət edir. Sonra isə... O hiss gəldi. Adını qoya bilmədiyi narahatçılıq. Sevgi insana güvən gətirməlidir, lakin onun ürəyinə şübhə dolurdu. Və bir gün anladı o sevgi təmiz deyilmiş. Dediyi bütün şirin sözlər sən demə saxtaymış. Sevda səssizcə uzaqlaşdı. Zənglərə cavab vermədi. Mesajları oxuyub susdu.

Bir gün isə o yazdı:

-Məni bağışla.. Artıq günahını başa düşmüşdü. Lakin gec idi. Sevdanın ürəyi qırılmışdı. Ümidləri suya düşmüşdü. Sevgisini don vurmuşdu. Sevdanın cavabı qısa oldu: "Mənə yazma" Bu sadə söz idi. Amma içində qırılmış güvən, yarım qalmış sevgi vardı.

Amma bəzi sevgilər bitmir. Sadəcə həyatından çıxır. Sevda hələ də onu unuda bilmirdi. Bəzən gecələr köhnə mesajları açırdı, oxuyurdu ancaq silmirdi. Unutmaq istədiyi bütün xatirələrdə qoruyurdu. Çünki onu həqiqətən sevmişdi. Bəlkə də həyatında ilk dəfə bu qədər dərindən sevmişdi. Amma sevgi hər zaman qalmaq demək deyildi. Sevdanın içində hələ də onun adı yaşayırdı... Sakitcə heç kimə bildirmədən o adı yaşadırdı. lakin həyatın da yox idi. Amma geri dönmək? Xeyir... Bəzi qapılar bir dəfə bağlanır və bir daha açılmır.

Sevdanın öz diliylə: "Mən onu sevəndə onun gözlərindəki işıq başqa idi

Sonra o işıq dəyişdi. Və mən o dəyişən işıqda özümü görmədim".

# Miqren riskini artıran səbəb üzə çıxdı

## Qadınlarda 3 dəfə çoxdur



**Dünyada təxminən hər 7 nəfərdən birində, yəni 1 milyarddan çox insanda miqren müşahidə olunur. Qadınlarda bu xəstəliyə kişilərlə müqayisədə üç dəfə daha çox rast gəlinir.**

Adalet.az xəbər verir ki, Böyük Britaniyanın Milli Miqren Mərkəzinin mütəxəssisi Keti Munronun sözlərinə görə, uşaqlıq dövründə oğlan və qızlarda miqren halları təxminən eyni olur.

Fərq isə yetkinlik dövründə, menstruasiyanın başlaması ilə ortaya çıxır.

Menstruasiyadan əvvəl estrogen hormonunun kəskin azalması miqren tutmalarını tətikləyə bilər. Hormonal dəyişikliklər menopauzaya qədər davam edir. Perimenopauza dövründə hormonlardakı sürətli dəyişikliklər miqreni daha da ağırlaşdıra bilər. Menopauzadan sonra isə hormonlar sabitləşdikcə tutmalar azala bilər.

Lakin miqrenə yalnız hormonlar səbəb olmur. Yuxu pozuntusu, stress, qan şəkərinin aşağı düşməsi, hava şəraiti, dəmir çatışmazlığı və qalxanabənzər vəzin zəif fəaliyyəti də tutmaları tətikləyə bilər.

Miqren tutması dörd mərhələdə inkişaf edə bilər: ilk mərhələdə yorğunluq, əsnəmə və boyun ağrısı, daha sonra isə görmə pozuntuları ilə müşayiət olunan aura yaranır. Baş ağrısı 4-72 saat davam edə, sonrakı mərhələdə isə halsızlıq 1-2 gün sürə bilər.

Munro miqreni olanlara tutmadan əvvəlki 2-3 gündə baş verən dəyişiklikləri izləməyi, müntəzəm qidalanmağı və yuxu rejimini qorumağı tövsiyə edir. Susuzluq və kifayət qədər qidalanmamaq da fiziki fəaliyyət zamanı tutmanı tətikləyə bilər.

Miqrenin müalicəsində ağrıkəsicilər, ürəkbulanma əleyhinə dərmanlar və həkim nəzarəti ilə triptanlardan istifadə edilə bilər. Maqnezium və B2 vitamini, bəzi hallarda hormonal müalicələr, CGRP-ni hədəfləyən preparatlar və botoks da tətbiq olunur. Akupunktur, yoqa, Tai Çi və ağrı reabilitasiyası da bəzi insanlara fayda verə bilər.

Munro miqrenlə mübarizədə ümidin olduğunu vurğulayaraq xəstələrə müalicəni davam etdirməyi məsləhət görüb.

# Əməliyyatdan sonra həyatı kabusa çevrilmişdi

## Evtanaziya ilə öldü



**Fransız aktyor və rejissor Arno Denis 43 yaşında Belçikanın Namur şəhərində evtanaziya yolu ilə həyatına son qoyub.**

Adalet.az xəbər verir ki, Denisin yaşadığı ağır sağlamlıq problemlərinin 2023-cü ildə keçirdiyi sağ qasıq yırtığı əməliyyatından sonra başladığı bildirilir.

Əməliyyat zamanı bədəninə polipropilen protez yerləşdirilən aktyor daha sonra xroniki iltihab və güclü ağrılardan əziyyət çəkib.

2024-cü ilin aprelində protezi çıxarılsa da, Denisin səhhətindəki problemlər aradan qalxmayıb. Ona mialgik ensefalomielit və ASİA sindromu diaqnozu qoyulub. Aktyor müalicə imkanlarının tükəndiyini və ağrıların gündəlik həyatını ciddi şəkildə məhdudlaşdırdığını bildirib.

Denis səhhətində yaranan problemlərlə bağlı tibbi səhlənkarlıq iddiası ilə Paris Dövlət Prokurorluğuna müraciət edib.

Lakin avqustun sonunda işə xitam verilib. Qərarda sağlamlıq problemləri ilə implant arasında qəti elmi səbəb-nəticə əlaqəsinin müəyyən edilməməsi əsas göstərilib.

Ağır ağrılarla mübarizə aparan Denis evtanaziyanın qanuni olduğu Belçikaya gedib. Bildirilir ki, o, martın 18-dən etibarən palliativ yardım mərkəzində prosedurun tamamlanmasını gözləyib.

Aktyor sentyabrın 22-də Namurda üç həkimin qiymətləndirməsi və son təsdiqindən sonra evtanaziya yolu ilə həyatına son qoyub.

**Denis vida mesajında yaşadığı təcrübənin yalnız öz hekayəsi olmadığını vurğulayıb. O, oxşar problemlərlə üzləşən insanların səsi olmaq istədiyini və arxasında cavabsız tibbi suallar qoyduğunu bildirib.**



Vaqif YUSİFLİ
Filologiya elmləri doktoru

# ARZU ƏYYARQIZININ "SONUNCU KƏPƏNƏK RƏQSİ"

**Arzu Əyyarqızının şeirləri ilə lap yaxınlarda tanış oldum. ”Natəvan” klubunda keçirilən bir tədbirdə o, biri həcmcə böyük, biri isə kiçik şeirlər kitabını mənə təqdim etdi, utana-utana ”müəllim, oxuyarsınız, görün bunlar şeirdirmi?” dedi. Bir müddət keçdi, mən öncə ”Sonuncu kəpənək rəqsi” kitabındakı şeirləri oxudum. Və doğrudan da Cəlilabadda yaşayan bu şairənin yazdıqları, o kitaba cəm etdikləri ŞEİR imiş. Kitab çox yaxşı tanıdığım Şəhriyar del Geraninin ön sözü ilə açılır: ”Arzunun şeirlərini oxuduqca onun poeziyaya olan inamını gördüm. Ən vacib məqam isə, hər bir poeziya adamının öz gerçək nağılları olur ömürləri boyunca”. Təsdiq edirəm, yaxşı şeir elə nağıla bənzəyir. Arzu Əyyarqızının şeirləri elə nağıl kimidir, şirinliyi də var, kədər doğuran məqamları da,amma səni darıxmağa qoymur o nağıllar.**

Arzu Əyyarnızının şeirləri ilk növbədə, mənə həyat həqiqətlərinin əks-sədası təsirini bağışladı. Dahi V.Q. Belinski yazıb ki: ”Poeziya həyatı, bir imkan kimi, yaradıcı surətdə yenidən yaratmaqdır. Buna görə də, o şey ki, həyatda ola bilməz, o - poeziyada da yalandır; başqa sözlə, həyatda ola bilməyən şey poetik də ola bilməz”. Amma ən əsası odur ki, o poetikliyi yaratmaq üçün gərək sözlərə dirilik verəsən, onları mənalandırasan.

*Bu dünya bir çarpayıdı,*
*yuxulayıb yıxılırsan .*
*Yıxılıb düşürsən qəbrə,*
*bölünürsən atomlara,*
*muncuq- muncuq dağılırsan,*
*düzülürsən çiçək-çiçək,*
*bir məzarın sinəsindən,*
*şəkil olub asılırsan.*

”Bu dünya” adlı şeirdə Arzu Əyyarqızı dünyanı çarpayıya bənzədib. Dünya haqqında həm klassik poeziyada, həm aşıq şeirində həm də müasir şeirimizdə çox bənzətmələr işlənilib. ”Fani dünya”, ”qoca dünya”, ”vəfasız dünya”, ”etibarsız dünya” və s. Amma ”Biz gəldi gedərik, sən yaşa dünya”(Səməd Vurğun) - bu, dünyanı vəfasız, etibarsız bilənlərə deyilib. Arzu Əyyarqızı isə 8 misralıq bir şeirdə Dünya və İnsan rəsmini çəkib. İnsan dünyaya gəlir, yaşayır, bir gün dünyadan köçür və onun məzarı üstündə şəkli asılır.

Arzu Əyyarqızı ata həsrətindən-atasızlıq yanğısından bir neçə şeir yazıb. Deyim ki, elə müasir şeirimihdə bu mövzuda nə qədər nümunələr var. Doğrudan da, ata itkisi hər bir övlad üçün ağır dərddir. ”Atama məktub”da o, bir övlad kimi danışır, onsuz keçən günlərindən söz açır. ”Oyanasan o yatdığın məzardan” - təbii ki, ölənlər bir daha işıqlı dünyaya qayıtmırlar, amma o şeirin sonuncu bəndində:

*Saçlarımı dərd qanına boyayan,*
*Canım atam, sənsizlikdi , biləsən.*
*Səni Tanrı bilirdim mən özümə,*
*Tanrı ölməz, inanmazdım öləsən.*

Atanı Tanrıya bənzədir və inanmır ki, Tanrı ölə bilər. Amma ata haqqında ən poetik şeir beş misralıq şeirdir:

*Atam alan hər paltar*
*yaraşardı əynimə.*
*Bəlkə qabar əlinin,*
*soyulan dərisiydi*
*biçilmişdi çiynimə.*

Bax, bu əsl şair sözüdür.

”Ata həsrəti”, ”Atamın xatirəsinə”, ”Qayıt dizlərində yatım, ay ata” şeirlərində də eyni nisgil diqqəti cəlb edir. Amma çox istərdim ki, Arzu Əyyarqızı bundan sonra atasını yad edəcək şeirlərində ”Ay ata, bidirsən, sən ölən gündən, mən də yaşamıram, mən də ölmüşəm”, ”Mən ölsəm mənimlə ölərdin, ata. Mən ölə bilmədim, ölmədim, ata” kimi son dərəcə pessimist misralara müraciət etməsin. Yaxşı olar ki, bu qədər həsrətlə yad etdiyi atasının insani portretini yaratsın. Yəni bir Ata obrazı hasilə gəlsin.



Əlbəttə, hər bir şairin şeirlərində nikbinlik də ola bilər, pessimizm də. Gülmək də var, ağlamaq da.. Baxır onları necə mənalandırırsan. Məsələn, Arzu Əyyarqızının ”Sevgi dərsi” şeiri başdan-ayağa nikbindliklə yroğrulub.

*Pəncərədən seyr edirəm*
*həyətdə üşüyən qarı;*
*Yağış üşüyüb qar olub,*
*qar üşüyüb buz olacaq.*
*gedib, ovcuma alıb*
*öpüm, isidim barı.*

Qarı öpür və öpdükcə o qar yağışa dönür. Oğlu da baxır.

*Öyrənir ki, üşümək*
*biganəlikdən doğur.*
*Üşüyən insanları*
*sevgi belə ovudur.*
*Öyrənir-yaşatmağın*
*Sevməkdir asan yolu,*
*böyüyür sevgi dolu.*

Bir halda ki, ”sevgi” sözü gəldi ortalığa, onun 2024-cü ildə çap olunan ”Ən müqəddəs pay kəlağay” kitabında ”Ehq ilə zülməti boğan ən ali insanam mən” bölümü var.

Bu bölümdə şairənin insanlara, dünyaya, ən müqəddəs, ən ali hisslərə sevgiləri öz ifadəsini tapıb.Amma onun hər hansı şeirində insan sevgisinin necə mənalı, necə təbii olduğuna inandım.

Mən onun bir sıra şeirlərində ”ağlamaq”, ”ağlayır” və s. bu cür naləli sözlərə rast gəldim, bu da təbiidir. O, öz taleyindən söz açanda dərd-qəm nisgilləri ortaya gəlir, (”Ağlama, ruhum” şeiri sanki bütün mənəvi əzablarına qarşı ürəyinin üsyanıdır). Təbii ki, sırf sevgi şeirləri də yaşanılan hissləri, duyğuları ifadə edir.

Sevgi şeiri yazmaq İstənilən bir şairin (yaşından asılı olmayaraq) sevgidən, məhəbbətdən yazdığı şeirləri oxumuşam, bu şeirlərin içində bəzən yalan, saxta, yaşanılmayan hisslərlə üzləşmişəm. Amma əsl sevgini, duyğusal sevgini iadə edən şeirlər də az deyil.

Açığını deyim ki, Arzu Əyyarqızının sevgi şeirləri yaşanılan, duyulan hisslərin ifadəsidir. Yəni onun lirik qəhrəmanı bu hissləri yaşayıb. Mənim ən çox onun ”Yer ilə göy arasında”, ”Ürəyimdə”, ”Gecələr”, ”Sevgimiz”, ”Sanırsan” şeirlərini bəyəndim. Niyə? O səbəbdən ki, bu şeirlərdə çırpınan bir ürək var.

*Bu necə sevgidir, bu necə duyğu?*
*Sevgi gözlərimə verməyir uyğu.*
*Göstərmir bu ürək ruhuma sayğı*
*Qalmışam yer ilə göy arasında.*

*Alıbdır ruhumu bir baxışıyla,*
*Bəzəyib ömrümü öz naxışıyla.*
*Sanki ildırımdır, bir çaxışıylv*
*Qalmışam yer ilə göy arasında.*

***

*Gizləmişəm səni eşqim,*
*Çiyələk qoxusunda.*
*Dadmasam da qoxlayıram*
*Kəpənək yuxusunda.*

Arzu Əyyarqızının şeirləri mövzuca müxtəlifdir. O, həyatda, yaşadığı mühitdə, insanlar arasında və.təbiətdə hisslərinə nə təsir edirsə, dərhal ona reaksiya verir. Necə deyim, çox həssasdıra).). Və bu həssaslığını sözün rənglərinə qatır (həmişə olmasa da).

Və ən başlıcası odur ki, Arzu Əyyarqızı az-çox şeirin texnikasına riayət edir. Məsələn, mən onun ”Dağlar” şerini ən gözəl şeirlərindən biri hesab edirəm. Bu qoşmada o, ”dağlar” rədifli ən yaxşı şeirlərin sırasına öz ”Dağlar”ını qoşmaq istəyib.

*Fərhad külüng vurub yaranda səni,*
*İstərdim bir sərin yel olum, dağlar.*
*Qan-tərin içində yorulan zaman,*
*Əl-üzün yumağa göl olum, dağlar.*

*Hərdən bahar olum, hərdən də solum,*
*Dönüb bir şəraba kuzəyə dolum.*
*Neçə sevənlərin şahidi olum,*
*Məcnunun gəzdiyi çöl olum, dağlar.*

Arzuya arzum budur ki,növbəti şeirlər kitabını çapa hazırlayanda bir az səliqəli olsun, hər şeirini kitaba daxil eləməsin, təkrar mövzulardan qaçsın və şeirlərində dərddən, ağrıdan bir az uzaqlaşsın, üzünü həmişə İŞIĞA tutsun..

**Arzu Əyyarqızı Cəlilabadda yaşayır, buna baxmayaraq şeirləri Azərbaycanın müxtəlif bölgələrinə gedib çatır. Üç şeir kitabının müəllifidir. TƏbrizdə, Tehranda şeirləri çap olunub. O, rayonda ədəbi mühit yaradanlardan biridir - ”Həməşərə” ədəbi məclisinin yaradıcıs və hazırda rəhbəridir. Şər işində - həyatda, yaradıcılıqda ona uğurlar arzulayıram!**

Şahnaz ŞAHİN

# ON SƏKKİZ YAŞ...



**(Esse)**

***Oğlumun sağlamlığı ilə bağlı problemi yaranıb, axtarıb yaxşı həkim tapmalıyam, sonra ikimizə də münasib vaxtı müəyyənləşdirib randevu almalıyam..., elə qızım da bu yaxınlarda stomotoloqa baş çəkməlidi,.. ali məktəbə hazırlaşır, imtahanları necə verəcək və s.. Bu fikirlər mənim kimi bir çox anaların üzləşdiyi qayğılardı, amma bəlli yaşadək, yəni ölkəmizdə yetkinlik yaşı hesab edilən on səkkiz yaşa qədər. Sonra gənc öz başının çarəsinə baxmalıdı, işləməli, yaşamalı, həyat deyilən bir qapının açarını özü axtarıb tapmalıdır... Bu yazılan qanunlara görədi, amma gəlin görək həqiqət necədi?***

***Doğrudanmı uşaqlar məlum yaşa çatdıqda azadlıq, sərbəstlik verilib, taleyin ixtiyarına buraxıla bilər və ya buraxılmalıdı? Valideyn də öz borcunu bitirmiş hesab edərək qalan ömrünü rahatlıqla yaşamağa davam edir və ya etməlidi? Bu əjdaha kimi qorxulu həyat udmazmı onu? Onunla mücadilə edə bilərmi təkbaşına?.. Hələ bərkiməmiş dizləri tab gətirə bilərmi həyatın eniş yoxuşuna?***

***Uzaqdan tanıdığım iki gəncin həyat hekaysəni xatırladım, varlı oğlanln ailəsi oğlunun istədiyi qız kasıb ailədən olduğu üçün bu izdivaca yox dedilər. Çıxış yolunu qoşulub qaçmaqda görən iki sevgili isə həyatın burulğanında batıb getdilər.***

***Bir tərəfdə dayaq nöqtəsi olmayan, yaşamaq üçün gündəlik xərclərin qarşısında belə əliyalın qalan cavan ailə, bu yanda iddialarından əl çəkməyən, mənəmlikdən qurtula bilməyən oğlan atası və qızının hərəkətinə qəzəbi soyumayan qız tərəfi, ortada isə məhv olan iki tale..***

***Bir əli ilə uşağını, digər əli ilə dünyanı yelləyən analardan ötrü övladı həmişə körpə yaşındadır, nə qədər arxayın olsa, yenə fikri balasının yanında qalır, olduğu yer soyuqmu, istimi, yatdığı yer rahatmı, narahatmı, ətrafında olan insanların necəliyi.., onu demək olar ki, övladıyla bağlı hər şey narahat edir. İndi cəmiyyətdə bir çox dəyərlər dəyişib, hər gün bir söz eşidir qulağımız, nə qədər valideynini atan övladlar, övladından imtina edən ata-analar var, mal-mülk üstündə bir-birindən üz döndərən bacı-qardaş tanıyırıq!.. Dünyamı dəyişib, insanlarmı, demək çətindir.. Bəlkə çox zaman elə doğum evlərində ikən ana südü əvəzi təyin edilən, əsli-kökü bilinməz uşaq qidalarından başlayır laqeydlik?. Geni dəyişdirilmiş, meyvə qurdlarının da imtina etdiyi, mağaza vitrinlərin bəzəyi olan gözəl, yaraşıqlı meyvələrdənmi keçir, cürbəcür dadlı şirələr, rəngli sularlamı ötürülür insan beyninə biganəlik?..***

***Çox şey dəyişib, çox şey...***

***Anam insan doğmuşdu,***
***Məni dünya daş etdi.***
***Könlümü çilik-çilik,***
***Gözlərimi yaş etdi.***

***Ümidlərim dağıldı,***
***Yerə boyunbağıtək.***
***Atdı, tutdu, oynatdı,***
***Məni oyuncağıtək.***

***Mən tənha, o kimsəsiz,***
***Allahım, bu nə işdi?!***
***Sən belə qurmadın, yox,***
***Dünyanı kim dəyişdi?..***

***... Getdiyimiz klinikada bizi həkimn köməkçisi qarşıladı, səmimi, həlim xasiyyətli görünən xanımla qeydiyyat məsələsi ilə bağlı bütün prosedur qaydaları bitirəndən sonra tet-a-tet söhbətimiz oldu, bayaqdan bəri mənim həyəcanlı görünməyim onun diqqətindən yayınmamışdı.***

***”Siz heç gəlməyə də bilərdiniz, çünki bu yaşda valideynə nə ehtiyac..”-deyə, məni sakitləşdirmək üçün bacardıqca yumşaq şəkildə bildirməyə çalışdığı fikir bütün günü düşüncəmi məşğul etdi. Axı hər necə olsa mənim övladıma cərrahi müdaxilə ediləcəkdi, mən necə onun yanında olmaya bilərdim!?.. Nə olsun yaşı on səkkizi çoxdan keçib, hətta özü də artıq atadır, amma, axı mən anayam, o da mənim hələ də bir əlimlə yellədiyim dünyam...***

***Bəlkə düz söyləmirəm, hə!?..***



Firidun AĞAZADƏ

## Meteohəssas şeir

*Səs eşitdim... həm səs idi, həm qeyri-səs...*

*M. Araz*

Sən bir qeyri-sabit hava!
Qoymazsan ki, sevim səni.
Şeyda-şeyda günlərimi
Ayağına səpim sənin.

Sən bir qeyri-sabit hava,
Mən də bir az qeyri-adi.
Gecikmiş sevgi yaşadıq,
İradi, qeyri-iradi...

Sən bir az qeyri-səlissən,
Mənim də halım qeyridi.
Otuz il sonra qovuşan
Sevgilər qeyri-sevgidi.

Adı gizlin, gecə yarı
Bu zəngini necə yozum?
Umayra xanım nə deyir -
Nədir hava proqnozu?

Sən bir qeyri-sabit hava,
Bu halını sevirəm mən.
Qeyri-səslə bu danışan
Həm sən idin, həm qeyri-sən.

Heç bilmirəm, bu istəyin
Kim düzüdür, kim əyrisi.
Bakıdan xəbər gətirməz
"Badi-səbadan qeyri"si.

Bakıda qeyri-iş günü,
Amsterdamda gecə yarı.
Sən yatırsan indi yəqin,
Yuxuda gör məni barı.

## Yer oxu, göy oxu

Yer oxuna, göy oxuna təkərdi eşq,
Leyli yoxdu, Məcnun yoxdu - bikardı eşq,
Yeddi dağın o üzündə şikardı eşq,
Kim ona səyyad olmadı?

Yola çıxdıq, mən piyada, sənsə atlı,
"Yar ol" deyib bəxt quşuna nişan atdım,
Nə məndən bu sevdaya bir haray çatdı,
Nə səndən imdad olmadı.

Kimə yoxdan bəxt yazılır, kimə vardan,
Yazda güldən payım yoxdur, qışda qardan,
Aqil sanıb muğayat oldun əğyardan,
Məndən muğayat olmadın.

Adımıza kim atdı bu yanlış püşkü?
Öz əlinlə hicrana tapşırdın eşqi.
Məmməd qızı, sən Şirin deyilsənmiş ki,
Firidun Fərhad olmadı...

## “Əğyar” “qeyri” sözünün cəmidir

*"Əğyar" "qeyri" sözünün cəmidir, "yad, kənar, rəqib" mənasındadır, aşiqin rəqibləri çox olur...*

Mən sevməyə başlayanda
Hər tindən bir əğyar çıxdı.
Mənim sevda yolçuluğum
Düşdü dalandan-dalana,
Bir ünvana məgər çıxdı?

Əğyar birdi, ikidimi?
Heç yolumdan çəkildimi?
Gah ağır çəkili oldu,
Gah millət vəkili oldu,
Gah iribuynuzlu məmur -
Vəzifəli əğyar ilə
Məgər ayaqlaşmaq olur?

Alnına ki yazılmayıb,
Mən nə bilim kim əğyardı?
Var kim - yollarda-yollarda.
Dəvə ömrüm eşq yükünü
Çəkir yollarda-yollarda.

## Sən və dostların

Leylidi, Şirindi, Əsli, bir də sən,
Sevə də bilmirsiz əməlli-başlı.
Biz sizi sevirik, siz - kimi?
Nədən?
Bu necə tərəzi, bu necə daşdı?

Leylidi, Şirindi, Əsli, bir də sən,
Deyəsən, bir bezin qırağısınız.
Sizə kim söyləyib, kim deyib, lütfən,
Guya başımızın ağasısınız?

Surəti, məxrəci hayana çəksən,
Sevginin tənliyi elə köhnədir.
Leylidi, Şirindi, Əsli, bir də sən
Əvvəlcə vurulmaq, sevmək öyrənin.

## Sənin ağ-qara şəklin

Dünən yenə tənha idim,
sən yoxsan, mən hara gedim?
dünyanın sözünü dedim
sənin ağ-qara şəklinə.

Qoltuq cibimdə taxtı var,
hara getsəm diyar-diyar
gözlərim axtarar, baxar
sənin ağ-qara şəklinə.

Neynirəm əlvan rəngləri?
bu şəklin xoşuma gəlir.
baxdıqca gözüm dincəlir
sənin ağ-qara şəklinə.

Mən unutmam əhdi, andı
sən də unutma, amandı.
rəngli şəkillər qurbandı
sənin ağ-qara şəklinə.

## Alo, şarjım bitir...

*Biliyorum, sana giden yollar kapalı...*

*Cemal Süreya*

Alo! Üzü Dönmüş!
Həsrətimin şarjı bitir,
Bir xatirə ilə
məni şarj elə,
Məsələn, belə:
De ki, "Mən trolleybusları çox sevirdim,
Ötən günlərimizin
trolleybus kimi
buynuzları çıxıb elektrik xəttindən,
qalıb Şeyx Şamil küçəsində... yoxuşda...".
Ay nə xoşdu!
Ya da Mesencerə bir söz yaz,
Şarj yığım sözündən.
Öpüm gözündən!
Eyham ilə yaz,
Mən başa düşərəm...
Neçə illərdi
qeyri-sabit hava şəraitində yaşayıram.
Səni mən
iqlim fəsadı kimi ömrümdə daşıyıram.
Ya da şəbəkə hesabında o köhnə şəklini qoy,
ən dərdli şəklini -
Orda ki, payız küləyi sitəmlə dağıdır telini,
Orda ki, xəstə atanın çiyninə qoymusan əlini...
Qoş məni dərd-sərinə.
Ya da köhnə bir kadr kimi
televizorda görün,
Rişxəndlə baxaraq
Hətərən-pətərən danışan ərinə...
Bilirsən ki, məni şarj etməyə
kiçik bir epizod yetir.
Alo! Üzü Dönmüş!
Məni şarj elə,
Axır zamanlar tez-tez şarjım bitir...

# Dünya yeməklə sınağa çəkilir

**Qlobal ərzaq qiymətləri əlverişsiz hava şəraiti, geosiyasi gərginlik və ticarət yollarında yaranan problemlər fonunda son 4 ilə yaxın dövrün ən yüksək səviyyəsinə yüksəlib.**

Adalet.az xəbər verir ki, Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, Ərzaq Qiymət İndeksi avqust ayında aylıq müqayisədə 1,9 faiz artaraq 133,3 bəndə çatıb.

Bu, 2022-ci ilin noyabrından bəri qeydə alınan ən yüksək göstəricidir. İn-



deks ötən ilin eyni ayı ilə müqayisədə isə 2,5 faiz yüksəlib.

Qlobal ərzaq və gübrə bazarlarında qiymət artımına Yaxın Şərqdəki münaqişələr, Rusiya-Ukrayna müharibəsi fonunda Qara dəniz üzərindən daşınmalardakı qeyri-müəyyənlik, enerji qiymətlərinin yüksəlməsi və ekstremal hava şəraiti təsir göstərir.

Qırmızı dəniz və Babül-Məndəb boğazında təhlükəsizlik riskləri səbəbindən bəzi gəmiçilik şirkətləri marşrutlarını Ümid Burnu istiqamətinə dəyişib. Daha uzun marşrutlar isə yanacaq, daşınma və sığorta xərclərinin artmasına səbəb olur. Bu amillər enerji və gübrə ilə yanaşı, taxıl və digər ərzaq məhsullarının daşınma xərclərini də artırır.

FAO-nun məlumatına görə, avqust ayında ərzaq indeksinə daxil olan bütün əsas məhsul qruplarında qiymət artımı qeydə alınıb.

Şəkərin qiyməti bir ay ərzində 11,9 faiz bahalaşaraq 2025-ci ilin iyunundan bəri ən yüksək səviyyəyə çatıb. Artım Avropa İttifaqında isti və quru hava səbəbindən şəkər çuğunduru məhsuldarlığının azalacağı gözləntiləri, Asiyada güclü "El Nino"nun istehsala mümkün təsiri, Braziliyanın mərkəzi-cənub bölgəsində istehsal itkiləri və Hindistanın xam şəkərin rüsumsuz idxalına icazə verməsi ilə əlaqələndirilir.

Eyni dövrdə taxıl qiymətləri 2,2 faiz, süd məhsulları 2,3 faiz, ət qiymətləri isə 1 faiz artıb.

Qara dəniz bölgəsində ixrac problemləri və Avropada isti, quru hava şəraiti buğdanın qiymətinə də təsir göstərib. Buğda aylıq müqayisədə 2,6 faiz, illik müqayisədə isə 15 faiz bahalaşıb.

ABŞ və Avropa İttifaqında istehsalla bağlı narahatlıqlar, yem və etanola tələbat, eləcə də Ukrayna ixracındakı fasilələr fonunda qarğıdalının qiyməti 2,5 faiz artıb. Düyü isə 0,5 faiz bahalaşıb.

Bitki yağlarının qiyməti də son üç ayda artımını davam etdirərək 2022-ci ilin iyunundan bəri ən yüksək səviyyəyə yüksəlib. Buna güclü idxal tələbi və Cənub-Şərqi Asiyada istehsalın "El Nino"nun mənfi təsirinə məruz qala biləcəyi ilə bağlı narahatlıqlar səbəb olub.

FAO qlobal taxıl istehsalının 2026-cı ildə əvvəlki illə müqayisədə 2 faiz azalaraq 2,98 milyard tona düşəcəyini proqnozlaşdırır.

Proqnoza görə, dünya üzrə qarğıdalı istehsalı 1,309 milyard ton, buğda istehsalı 810,7 milyon ton, düyü istehsalı isə 553,1 milyon ton olacaq.

Qlobal taxıl ehtiyatları hələlik məqbul səviyyədə qalsa da, istehsal və ticarətdəki azalma bazarlarda təkliflə bağlı narahatlıqları artırır.

# Həftədə 25 saat hosteldə işləyib...

## Bu ölkədə pulsuz yaşamaq olar

**Pataqoniyanı görmək istəyən, amma yaşayış xərclərini azaltmağa çalışan turistlər üçün maraqlı imkan yaradılıb. Argentinanın San-Karlos-de-Bariloçe şəhərində yerləşən hostellərdən biri könüllülərə pulsuz yaşayış təklif edir.**

Adalet.az xəbər verir ki, proqram çərçivəsində iştirakçılar həftədə 25 saat hosteldə işləməli olurlar. Bunun qarşılığında onlara ümumi otaqda pulsuz qalmaq, hər gün səhər yeməyi və bir sıra əlavə imkanlar təqdim edilir. Könüllülərin vəzifələrinə yeməklərin hazırlanması və təqdim edilməsi, otaqların və ümumi sahələrin təmizlənməsi, həmçinin qonaqların yerləşdirilməsinə kömək etmək daxildir. İştirakçılara həftədə iki gün istirahət verilir. Beləliklə, onlar boş vaxtlarında şəhəri və ətraf bölgələri gəzə, ekskursiyalara qoşula və Pataqoniyanın təbiətini yaxından görə bilərlər.

Hostel dağlar və göllərlə əhatə olunan, turistlər arasında məşhur Bariloçe bölgəsində yerləşir. Könüllülər yaşayış və səhər yeməyindən əlavə, ümumi mətbəxdən, paltaryuyan maşından, internetdən və velosipedlərdən istifadə edə bilirlər.

Onlara bəzi yemək və içkilər, ekskursiyalar və səfərlər üçün də endirimlər təqdim olunur. Proqram əsasən iki-üç həftəlik müddət üçün nəzərdə tutulub. Burada həm tək səyahət edənlər, həm də cütlüklər



iştirak edə bilərlər.Əsas tələblərdən biri ingilis və ya ispan dilini ən azı orta səviyyədə bilməkdir. Çünki görülən işlər hostelin qonaqları ilə ünsiyyət qurmağı tələb edir. Lakin bu imkanı tamamilə pulsuz tətil hesab etmək olmaz. İştirakçılar Argentinaya gediş-gəliş xərclərini, sığortanı, yerli nəqliyyatı və lazım olduğu halda viza xərclərini özləri ödəməlidirlər. Bundan başqa, könüllülərə gördükləri işə görə maaş verilmir. Yaşayış və digər xidmətlər əməyin qarşılığında təqdim edilir. Bu proqram gündə bir neçə saat işləməklə Pataqoniyada yaşamaq, müxtəlif ölkələrdən olan səyahətçilərlə tanış olmaq və yaşayış xərclərini əhəmiyyətli dərəcədə azaltmaq istəyənlər üçün uyğun seçim hesab olunur.

# Yeni pişik növü kəşf edilib

**Boliviyada əvvəllər məlum olmayan vəhşi pişik növü kəşf edilib. Ona Leopardus tilcayo və ya Tilcayo pələng pişiyi adı verilib.**

Adalet.az xəbər verir ki, bu barədə "National Geographic" jurnalı məlumat yayıb.

Alimlər Tilcayo ilə bağlı ilk müşahidələri 2016-cı ildə aparmışdılar, lakin kəşfin rəsmi olaraq tanınması üçün geniş tədqiqatlar aparılmalı idi. Növün unikallığı laboratoriya analizləri ilə təsdiqlənib və bu da onun qo-



hum növlərdən aydın şəkildə fərqlənməsinə imkan verib.

Tilcayo bir sıra fərqli xüsusiyyətləri ilə seçilir. Bu növ adi ev pişiyindən daha kiçikdir. Bəbirə bənzər naxışlara və bu bölgədə yaşayan digər kiçik pişiklərdə rast gəlinməyən yuvarlaq qulaqları ilə fərqlənir.Tilcayo növünün kəşfi ekoloqlar üçün əlavə prioritetlər yaradır: bu populyasiyanın qorunması hazırda çox vacibdir. Bu nadir növ Cənubi Amerikaya məxsusdur və məhdud əraziyə malikdir.

# AZƏRBAYCAN DÜNYAYA NÜMUNƏDİR



**Bu gün dünyada kiçik və böyük ölkə anlayışı yoxdur. İndi dünyada mizan-tərəzi tam başqa bir sistemə uyğun qurulub. Balaca dövlət ola bilər, amma onun iqtisadiyyatı o qədər zəngin ola bilər ki, digər böyük dövlətlərə meydan oxuyar. Başqa sözlə demiş olsaq, heç də hər şey böyüklükdən və kiçiklikdən asılı deyil. İndi çox şey hər hansı ölkənin iqtisadi, hərbi və siyasi qüdrətindədir.**

Sadə bir misal çəkmək istəyirik. Hamı düşünürdü ki, ABŞ bir neçə günün içində İranı məhv edəcək və İran da məcbur olub onunla sülh müqaviləsi bağlayacaq. Amma neçə aydır ki, ABŞ İranın əlində əlik-dəlik olub çıxış yolu tapa bilmir. Arxasını da yerə vermir ki, biz qalib dövlətik. İran da deyir ki, elə şey yoxdur, qalib dövlət bizik. Yaxud Rusiyanı götürək. Onlar da fikirləşirdi ki, bir neçə həftəyə Ukraynanı işğal edəcək, rus tankları Ukrayna ərazisinə daxil olanda xalq onu duz-çörəklə qarşılayacaq. Göründüyü kimi, bu hadisələr də başqa cür cərəyan eledi: yeni beş ilə yaxındır müharibə gedir, Rusiya Ukraynanın hər hansı şəhərinə raketlə zərbə endirəndə Ukrayna da Rusiyanın şəhərlərinə, o cümlədən paytaxt Moskvaya dronlarla zərbə endirməyi bacarır.

Sözümüzün canı ondan ibarətdir ki, Azərbaycan haqqında da əvvəllər dünya dövlətləri, xüsusilə də super dövlətlər başqa fikirdəydi. Yəni onlar düşünürdü ki, 30 ildən çox 20 faiz ərazisi işğal altında olan Azərbaycan zəifləyəcək, onların və ermənilərin dedikləri məsələlərlə razılaşacaq. Daha doğrusu, Qarabağı Ermənistana verəcəyik. Amma dünyada analoqu olmayan 44 günlük İkinci Qarabağ savaşı super dövlətlərin, yəni ermənilərin havadarlarının düşüncələrini alt-üst etdi və yeni bir düzəm yaratdı. Yəni qüdrətli Azərbaycan bu 44 gündə və sonrakı antiterror əməliyyatında 23 saat ərzində öz ərazi bütövlüyünü tamamilə bərpa etdi. Bununla da el dilində demiş olsaq, bizə yuxarıdan aşağıya baxan o super dövlətlər, Ermənistanın havadarları və eləcə də ermənilər özlərini yığışdırdılar.



Çünki dünyaya Ermənistan kimi iqtisadi cəhətdən zəif, dövlətçilik tarixi olmayan bir ölkə yox, zəngin sərvətləri olan, dünya siyasətinə və iqtisadiyyatına güclü təsir edən qüdrətli Azərbaycan lazım idi. Ona görə də onlar Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə ölkəmizə böyük maraq göstərirdilər. Və təsadüfi deyildi ki, "Əsrin müqaviləsi" adlanan neft müqaviləsi Böyük Britaniyanın BP şirkəti ilə qısa zaman kəsiyində gerçəkləşdi və dünya da gördü ki, Azərbaycanın dünyaya inteqrasiyası ilk növbədə onların maraqlarına və mənafelərinə çox yaxındır. Daha doğrusu, obrazlı dillə demiş olsaq, Azərbaycan şirəli, dadlı bir yerdir və hər bir ölkə bu şirəli, dadlı yerə böyük maraq göstərirdi.

İkincisi də bu maraq adi maraq deyildi. Biri var investisiya qoyub ziyan görəsən, biri də var sərmayə yatırıb maya dəyərini çıxarasan, üstəlik də izafi dəyər qazanasan. Ancaq bu sabit və möhtəşəm Azərbaycanda real görünürdü. Buna görə də bir çox super dövlətlərin və inkişaf etmiş ölkələrin prezidentləri, baş nazirləri Azərbaycanla siyasi-iqtisadi əlaqələr yaratmağa böyük həvəs göstərirdilər.

Böyük Britaniyadan sonra Rusiya, Almaniya, Fransa, İtaliya, Türkiyə, Bolqarıstan, Macarıstan, Rumıniya, Çin Xalq Respublikası, Yaponiya, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, İran və digər dövlətlər Azərbaycanla iqtisadi əlaqələrə çox böyük önəm verdilər. Təbii ki, bütün bu iqtisadi, möhtəşəm layihələr gerçəkləşdikcə Azərbaycana maraq birə beş artmağa başladı. Xüsusilə də qardaş türk xalqları ilə aramızda isti münasibət yarandı və onlar ölkəmizdə yeni möhtəşəm layihələrin həyata keçirilməsi üçün böyük sərmayə qoydular. Neft və qaz sektorunda, kənd təsərrüfatı sahəsində, turizm və digər iqtisadi sahələrdə xarici ölkələrin böyük marağı yarandı. Onlar gördülər ki, həqiqətən də Azərbaycana sərmayə qoymaq hər iki dövlətin xeyirinə işləyir.

Ölkə prezidenti Cənab İlham Əliyevin 20 ildən çox hakimiyyəti dövründə xarici ölkələrin məmləkətimizə marağı daha da yüksəldi. Belə ki cənab prezident xarici ölkələrə səfəri zamanı, eləcə də Bakıda dünyanın məşhur şirkətlərinin nümayəndələri ilə görüşündə çox səmimi surətdə bildirirdi ki, hansı ölkə Azərbaycana sərmayə yatırsa, onun hüquqları qorunacaq və bu iqtisadi əlaqələr daha da genişlənəcək.

Həqiqətən də belə oldu. Ölkəmizin BP şirkəti, eləcə də dünyanın digər məşhur şirkətləri ilə iqtisadi əlaqələri daha da möhkəmləndi. Çinin, Yaponiyanın, Səudiyyə Ərəbistanının, Birləşmiş Ərəb Əmirliklərinin, eləcə də Türkiyənin iş adamlarının Azərbaycana marağı birə-beş artdı. Bütün bu iqtisadi layihələrin gerçəkləşməsi fonunda Azərbaycanın dünyaya inteqrasiyası daha geniş vüsət almağa başladı. Çünki Azərbaycan geosiyasi baxımdan dünyada çox əlverişli coğrafi mövqedə yerləşir və burdan Avropa ölkələrinə, eləcə də dünyanın digər ölkələrinə çıxış hər bir dövlətə böyük xeyir gətirə bilər.

Heç şübhəsiz, gələcəkdə Zəngəzur dəhlizinin açılışı və onun istifadəyə verilməsi bu gün böyük dövlətlərin maraq dairəsindədir. İlk növbədə ABŞ, Çin, Türkiyə, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, İslam dünyası və eləcə də digər Türk dövlətləri bu iqtisadi layihənin gerçəkləşməsini böyük səbirsizliklə gözləyirlər. Çünki bu yolun açılışı təkcə Azərbaycanın marağını deyil, həm də dünyanın marağını təmin etmiş olacaq.

**Heç kimə sirr deyil ki, İran və Rusiya Zəngəzur dəhlizinin açılmasında bir o qədər maraqlı deyil və həmişə müxtəlif siyasi yollarla bu prosesin qarşısını almağa, birmənalı olaraq ləngitməyə çalışırlar. Amma görünən odur ki, bu gün dünya heç də Rusiya və İranın maraqlarına uyğun inkişaf etmir. Dünya ona iqtisadi gəlir gətirəcək, sabitlik yaradacaq və dünyaya sülh ərməğan edəcək ölkələrə üstünlük verir. Bax, Azərbaycan da bu gün dünyaya inteqrasiya olunmuş ən qüdrətli dövlətlərdən biridir!**

**Emil FAİQOĞLU**


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Bodrumda yerli həyatın izində: Egey sahilinin fərqli üzünü kəşf edin

**Bu gün səyahətçilər yalnız görməli yerləri ziyarət etməklə kifayətlənmir, səfər etdikləri məkanla daha yaxından tanış olmağa və onun ab-havasını hiss etməyə çalışırlar. Buraya yerli sakinlərin üstünlük verdiyi məkanları kəşf etmək, adət-ənənələr və gündəlik həyat tərzi ilə yaxından tanış olmaq da daxildir. "Yerli kimi yaşamaq" müasir səyahət tendensiyalarına təsir edən əsas istiqamətlərdən birinə çevrilib. Son araşdırmalar göstərir ki, səyahətçilərin 72 faizi ənənəvi görməli yerlərə deyil, yerli təcrübələrə daha çox vəsait ayırmağa üstünlük verir. Bu tendensiya xüsusilə daha dolğun və mənalı təcrübələrə önəm verən Millennials və Z nəslinin nümayəndələri arasında özünü göstərir.**

Belə bir yanaşma fonunda Türkiyə qonaqpərvərlik ənənələri ilə seçilir və ziyarətçilərə yerli həyatla daha yaxından tanış olmaq imkanı yaradır. Ölkənin müxtəlif bölgələrində gündəlik həyatın bir parçası olan görüşlər, ortaq ənənələr və yerli icmalarla qurulan səmimi münasibətlər vasitəsilə autentik təcrübələr yaşamaq mümkündür. Muğlanın Egey sahilində yerləşən və məşhur istirahət məkanlarından biri olan Bodrum da bunun ən yaxşı nümunələrindəndir. Vaxtilə balıqçı kəndi olan Bodrum bu gün dəbdəbəli istirahətlə assosiasiya olunur. Zərif otellər, firuzəyi sahillər boyunca uzanan çimərlik klubları və MICHELIN ulduzlu restoranlar şəhərin müasir simasını formalaşdırır. Lakin Bodrumun parlaq və dəbdəbəli görünüşünün arxasında daha sakit və səmimi bir şəhər də var. Onu ən yaxşı yerli kimi kəşf etmək mümkündür. Sakit koylarda mavi sulara baş vurun, küçələrdə gezintiyə çıxın, yerli dadları sınayın və gözlənilmədən qarşılaşdığınız kiçik butikləri kəşf edin. Məhz burada Egeyin əsl ritmini hiss etmək mümkündür.

Egey və Aralıq dənizlərinin qovuşduğu ərazidə yerləşən Bodrum gözəl sahil xətti və kristal kimi təmiz suları ilə seçilir. Lüks yaxtalarla dolu marinalar və beynəlxalq səviyyədə tanınan çimərlik klubları yarımadanın simvollarından birinə çevrilib. Gümbet, Bitez və Türkbükü isə sahil boyunca ən canlı məkanlar sırasında yer alır. Bununla belə, Bodrumun məşhur sahillərindən kənarda tamam başqa bir həyat ritmi var. Mavi Bayraqlı çimərliklər, eləcə də Mazı, Kızılağaç və Güvercinlik kimi daha sakit məkanlar bölgənin təbiətlə iç-içə, kənd ab-havasını üzə çıxarır. Burada ziyarətçilər gündəlik həyatın tempini yavaşladaraq dəniz kənarında sadə anların zövqünü, yerli sakinlər kimi yaşaya bilərlər.

Dəniz Bodrumun kimliyinin ayrılmaz hissəsidir. Türkiyənin əfsanəvi "Mavi Səyahət" ənənəsinin doğulduğu Bodrumda bu təcrübəni burada ilk dəfə inşa edilən taxta qayıqlarda - guletlərdə yaşamaq mümkündür. Ənənəvi sənətkarlığı geniş məkan və dənizdə rahatlıqla birləşdirən bu özünəməxsus qayıqlar sahilin ənənəvi marşrutlarından kənarda yerləşən koylara yol açır. Aspat, Kissebükü və ya Karaada Poyrazın şəffaf sularında lövbər salaraq Bodrumun daha sakit tərəfini kəşf edə bilərsiniz. Gizli koylar və toxunulmamış mənzərələr arasında keçən belə günlərdə həyatın ritmini tamamilə dəniz müəyyən edir.



### Şəhərin füsunkar küçələrində gəzintiyə çıxın

Bodrumun məşhur sahillərindən kənarda uzanan dar küçələr ağ rəngə boyanmış evləri və hər tərəfi bürüyən begonvilləri ilə şəhərin yerli həyatının başqa bir üzünü ortaya çıxarır. Dolanbac küçələr boyunca ənənəvi şirniyyat dükanları, səmimi kafelər və kiçik butiklər yerli bazarlar və küçə satıcılarının təklif etdiyi dadlarla bir araya gəlir. Burada hər addımda dayanıb ətrafı kəşf etmək üçün yeni bir səbəb tapmaq mümkündür. Şəhərin gözlənilməz guşələrində qədim dövrlərdən qalan izlərə də rast gəlmək olur və bu tarixi miras gündəlik həyatın mənzərəsi ilə təbii şəkildə qovuşur.

Məsələn, Bodrumun iki limanı arasında gəzərkən qarşınıza XV əsrə aid Bodrum qalası çıxır. Bu tarixi abidə hazırda Sualtı Arxeologiya Muzeyinə ev sahibliyi edir. Türkiyənin "Gecə Muzeyləri" təşəbbüsü çərçivəsində muzey yay aylarında saat 22:00-dək açıq qalır və ziyarətçilərə Bodrumun tarixini gün batdıqdan sonra da kəşf etmək imkanı yaradır.

Bodrumun zəngin tarixi irsi qaladan daha geniş ərazini əhatə edir. Qədim Teatr və Halikarnas Mavzoleyinin qalıqları şəhərin çoxəsrlik tarixinin bu günə qədər gəlib çatan mühüm yadigarlarıdır. Qədim Teatrdan Bodrum və onun sahil xəttinə açılan geniş mənzərəni seyr etmək mümkündür. Qədim Dünyanın Yeddi Möcüzəsindən biri hesab olunan Halikarnas Mavzoleyinin qalıqları isə şəhərin uzaq keçmişinə dair maraqlı təsəvvür yaradır.

Bodrumun daha sakit guşələrinə doğru yolunuza davam etdikdə şəhərin başqa bir tarixi simvolu - külək dəyirmanları qarşınıza çıxır. Limanın üzərində sakitcə ucalan bu tarixi tikililər şəhərə və sahil xəttinə panoramik mənzərə təqdim edir. Daha çox ziyarət olunan məkanlardan uzaqda yerləşən dəyirmanlar sakit və nostalji ab-havasını qoruyub saxlayır. Burada dayanaraq Bodrumu fərqli bir rakursdan seyr etmək və şəhərin sakitliyindən zövq almaq mümkündür.

### Egey mətbəxinin yerli dadlarını kəşf edin

Bodrumun kulinariya mənzərəsində Egey mətbəxinin özünəməxsus dadları beynəlxalq təsirlərlə bir araya gəlir və bu zənginlik MICHELIN Bələdçisinin də diqqətini cəlb edib. Bununla belə, Bodrumda yaxşı yemək təcrübəsi yalnız məşhur restoranlarla məhdudlaşmır. Sadə məkanlarda və yerli sakinlərin sevimli ünvanlarında da yadda qalan dadlar təqdim olunur. Bodrum qalasının ətrafındakı daş döşənmiş küçələr boyunca ənənəvi meyxanalar sıralanır. Burada təzə tutulmuş dəniz məhsulları ənənəvi türk məzələri və bölgənin şərabları ilə birlikdə təqdim edilir. Bodrum mətbəxinin təklif etdikləri isə yalnız dəniz məhsulları ilə məhdudlaşmır. Yerli məkanlarda xırtıldayan kartof, yumşaq ət və qatığın bir araya gəldiyi, bölgənin özünəməxsus yeməklərindən olan "çökertmə kababı" da təqdim edilir. Sadəcə yerli sakinlərin izinə düşərək Bodrumun dadlarını kəşf etmək kifayətdir.

### Əl sənətləri emalatxanalarını kəşf edin

**Şəhərin yaradıcı ruhu yalnız mətbəxlə məhdudlaşmır. Kiçik emalatxanalarda yerli sənətkarlar keyfiyyətli dəri sandalları əl işi ilə hazırlayır, Egey motivlərindən ilhamlanan tekstil məhsulları, zinət əşyaları və dekorativ əşyalar yaradırlar. Kütləvi istehsal olunan suvenirlərdən fərqli olaraq, bu əl işləri şəhərin sənətkarlıq ənənələrini və gündəlik mədəniyyətini əks etdirir. Yerli emalatxanalardan birinə baş çəkin, Bodrumun sənətkarlıq irsi ilə yaxından tanış olun və şəhərin yaradıcı ruhundan bir parçanı özünüzlə aparın.**

## TƏBRİK

**Bu gün nəvəm Aysu xanımın 11 yaşı tamam olur! Onu ÖPÜB ürəkdən TƏBRİK EDİRƏM! Atalı, analı, sağlam BÖYÜSÜN!**



*Sən evimə gələn gün*
*Ev-eşiyim şadlandı...*
*Adını söylədikcə -*
*Dilim -ağzım bal daddı!*

*Hamı oldu pərvanən*
*Böyüdün ləçək, ləçək!*
*Qızların sırasında -*
*Oldun ən gözəl çiçək!*

*Hər yeni ad gününlə*
*Arzumuz da böyüyür!*
*Aldığın qiymətlərlə-*
*Atan, anan öyünür!*

*Xoşbəxt taleh, gülən üz -*
*Olsun ömür payın bu!*
*Səni şox sevirik biz -*
*Bunu unutma , Aysu!*

**Baban Əbülfət**

## "Sərgüzəşti- Vəziri-xani-Lənkəran" tamaşasının premyerası keçirilib



**İrəvan Dövlət Azərbaycan Dram Teatrında "Sərgüzəşti- Vəziri-xani- Lənkəran" tamaşasının premyerası keçirilib.**

Teatrın geniş, işıqlı və ağ rəngə boyanmış foesi tamaşaya gələn hər kəsdə xoş təəssürat oyadırdı. Düşünürəm ki, bu abhava tamaşaçılarda xoş əhvalın yaranmasına əsas səbəblərdən biri idi.

Tamaşadan öncə teatrın direktoru Hacıbaba Məmmədov tamaşaçılara teatrın yaranma tarixindən və keçdiyi yoldan söz açıb.

Hər kəs "Sərgüzəşti- Vəziri-xani- Lənkəran"ın işığına yığılmışdı. Sözügedən tamaşa görkəmli dramaturq Mirzə Fətəli Axundzadənin eyni adlı əsəri əsasında dövlət sifarişi ilə hazırlanmışdı. Tamaşanın quruluşçu rejissoru Gümrah Ömər klassik əsərə teatrın səhnəsində yeni nəfəs vermişdi. Daha dəqiq izah etsək, əsər bir çox məqamlarda tamaşaçıya müasir üslubda təqdim olunurdu. Əsərdə daha çox cəmiyyət, ailə münasibətləri və hakimiyyət məsələləri ön plana çəkilirdi. Yalanın, riakarlığın hökm sürdüyü hadisələrin içində tamaşaçıda təəbbüsüm yaradacaq replikaların olması hadisələrin rabitəsini sındırmırdı. Tamaşa boyunca hadisələr daha çox vəzirin hərəmxanasında cərəyan etsə də, rejissor fırlanan çarx üzərində dünyada yaxşı və yamanın olmasını, ağ və qaranın mövcudluğunu aşkar şəkildə izah edirdi.

İlk baxışdan tamaşaçıya aciz görünən vəzir onları "aldatmağı" bacarır. O, öz bacarığını və tədbirli davranmağını əsərin sonlarına yaxın mükəmməl şəkildə nümayiş etdirir.

Əsərdə gənc, daha emosianal duyğuya sahib olan Teymur Ağanın da varis kimi taxtda əyləşməsini vəzirin uzaqgörən siyasətinin nəticəsi hesab etmək olar.

Tamaşa öz məişət oxundan çıxaraq, vəzirin tədbirli davranışları ilə daha çox əxlaqi dəyərlərin qorunmasını və hakimiyyət uğrundakı mübarizəni tamaşaçıya çatdırır.

Obrazları canlandıran aktyorların əsərin dil üslubunu qorumaları da tamaşaçıların diqqətindən kənarda qalmırdı.

Sözügedən iki üzlü komediya izləyicini güldürməkdən çox düşündürməyi bacarırdı. Çirkabla dolu dünyada mənəvi dəyərlərin qorunması üçün atılan addımların heç də mənasız olmadığını əks etdirirdi. Müasir dövrümüzlə səsləşməyi bacaran əsər tamaşaçının diqqətini çəkirdi.

Əsərin İrəvan Dövlət Azərbaycan Dram Teatrının səhnəsində tamaşaçı qarşısına çıxarılması həm ədəbiyyat, həm də mədəniyyat üçün uğurlu addımdır.

**Əntiqə KƏRİMZADƏ**

## Roza Zərgərli: "O mahnılar heç nəyi sübut etmədi, amma..."

**Tanınmış müğənni Roza Zərgərli "Səndən sadəcə diqqət istədim" mahnısı ilə bir çox ölkədə sevilməyinin sirrini açıqlayıb.**



Adalet.az bildirir ki, müğənni mahnının keyfiyyətindən çox onun həvəslə ifa edilməsinin əsas vasitə olduğunu söyləyib: ""Səndən sadəcə diqqət istədim" mahnısı sənətimin yenidən dönüş nöqtəsi oldu. Əslində bundan əvvəl də fərqli mahnılar ifa etmişdim. Ancaq bizim millət o mahnıları deyil də, məhz bu tip mahıları sevdilər. Həmin mahnı ilk olaraq Azərbaycanda popluyarlaşdı. Sonra Orta Asiyaya və Qafqaz dövlətlərinə, daha sonra isə Avropaya yayıldı.Mən 26 ildir estrada səhnəsindəyəm. Bu illər ərzində oxuduğum mahnılar diapozon daşıyırdı. Bəm də , orta registr də, zil də var idi. O mahnılar illər boyu heç kəsə heç nə sübut etmədi. Amma səsinin ahəngini, hissiyyatını ortaya qoyanda dil bilməyən də sənin dilini bilir. Həmin mahnı dünya siyahsında 200 mahnının arasında 37-ci yeri tutdu".

**Əntiqə**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 296
Çapa imzalanmışdır: 24.09.2026